

...Bizim gənclərimiz dinimizi olduğu kimi öyrənməli, qəbul etməli və ondan istifadə etməlidirlər. Biz heç vaxt yol verə bilmərik ki, ayrı-ayrı şəxslər, ayrı-ayrı qüvvələr öz şəxsi mənafelərini güdərək, İslam dini pərdəsi altında Azərbaycan gənclərinin tərbiyəsinin və mənəviyyatının zədələnməsinə gətirib çıxartsınlar.

**Heydər Əliyev**

# DÖVLƏT VƏ DİN

İCTİMAİ FİKİR TOPLUSU

№ 02 (61) 2019

**REDAKSİYA HEYƏTİ:**

| | |
|---|---|
| **Allahşükür Paşazadə** | Tarix elmləri doktoru, professor |
| **Bəxtiyar Əliyev** | Psixologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Etibar Nəcəfov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Əli Əhmədov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Əli Həsənov** | Tarix elmləri doktoru, professor |
| **Fazil Mustafa** | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| **Gövhər Baxşəliyeva** | Filologiya üzrə elmlər doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Gülçöhrə Məmmədova** | Memarlıq doktoru, professor |
| **İlham Məmmədzadə** | Fəlsəfə elmləri doktoru, professor |
| **Mübariz Qurbanlı** | Tarix elmləri üzrə fəlsəfə doktoru, dosent |
| **Nizami Cəfərov** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Sabir Həsənli** | İlahiyyat üzrə fəlsəfə doktoru |
| **Sakit Hüseynov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Səlahəddin Xəlilov** | Fəlsəfə elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Teymur Kərimli** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Urxan Ələkbərov** | Biologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Vasim Məmmədəliyev** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Yaqub Mahmudov** | Tarix elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |

**Redaktor: Sadiq Mirzəyev**
**İxtisas redaktoru:** Güney Namazova
**Texniki redaktor:** Raman Dadaşov

**REDAKSİYANIN ÜNVANI:**
AZ1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi, 5.
Telefon: (+99412) 505-78-19
Qeydiyyat № 1674 / Tiraj: 800 / www.scwra.gov.az

Toplunun "Rəsmi guşə"sində AzərTAc-ın materiallarından istifadə edilib.
Toplunun materiallarından istifadə edərkən istinad zəruridir.
Jurnal "Azərbaycan" nəşriyyatında çap olunub.

**İSSN 2220-8542**

# BU SAYIMIZDA

## RƏSMİ GUŞƏ

Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı........................5
"Dünya dini liderlərinin II Bakı sammiti"nin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.............................................6
Azərbaycanın pravoslav xristian icmasına.............................................................................................8
*Prezident İlham Əliyev: Biz dərin milli-mənəvi təməl üzərində müasir dövlət qurmuşuq*
Müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimi keçirilib
Prezident İlham Əliyev mərasimdə iştirak edib .....................................................................................9
Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı..................................................................................22
Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik.................................................................23
Prezident İlham Əliyevin Sərəncamı ilə DQİDK-nın bir qrup əməkdaşı təltif edilib............................24

## BAXIŞ BUCAĞI

*Aygün Kərimova* - Şərq peripatetizminin İslam fəlsəfəsindəki mövqeyi..............................................25
*Aliyə Mürsəlova* - Yəhudi və İslam hüququnda hiyləyi-şəriyyə..........................................................32
*Səbinə Nemətzadə* - İslam əlyazma sənətində hilyəyi-şərif .................................................................43
*Фариз Ахмед* - Утилитарный дух запада и духовное развитие человека в исламе........................49

## CƏMİYYƏT VƏ DİN

*Fuad Nurullayev* - Təfsir elminin yaranması və yayılmasına ümumi baxış..........................................56
*Müzəffər Məmmədov* - Qurani-Kərimdə iqtisadi prinsiplər...................................................................62
*Əlirza Qafarov* - Qövmlərin həlakını doğuran amillər...........................................................................68

## ARAŞDIRMA

*Qəmər xanım Cavadlı* - Süni mayalanma: müsəlman etikasının ilkin və son postulatları arasında......75
*Aqil Əhmədov* - Səbinə Nemətzadənin "Əlyazmaların bədii tərtibat xüsusiyyətlərində dini-fəlsəfi aspektlər" əsəri.........................................................................................................84
*Azadə Bağırova* - Azərbaycan dövlətçiliyində dünyəvilik....................................................................90

## TARİXƏ PƏNCƏRƏ

*Əli Fərhadov* - Hürufiliyin tarixindən.....................................................................................................96
*Şükür Əndəlifov* - Yəhudilikdə peyğəmbərlik və peyğəmbərlər..........................................................103
*Tarix Dostiyev* - Azərbaycanda şəhər mədəniyyətinin formalaşmasında İslamın rolu.........................112



**www.scwra.gov.az**
**e-mail: redaksiya@scwra.gov.az**

# Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ildə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illiyi tamam olur.

Şeyxülislam Allahşükür Paşazadə bütün həyatı boyu cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin və milli həmrəyliyin bərqərar olunması yolunda səmərəli fəaliyyət göstərmiş, yaxın tarixi keçmişdə xalqımızın yaşamış olduğu taleyüklü hadisələr zamanı həm dini rəhbər, həm də ictimai xadim kimi yüksək vətənpərvərlik və əsl vətəndaş mövqeyi nümayiş etdirmişdir. O, ölkəmizdə beynəlxalq hüquq normalarına və mütərəqqi tarixi ənənələrə əsaslanan dövlət-din münasibətlərinin formalaşması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və təbliği sahəsində səmərəli xidmətlər göstərməkdədir.

Müxtəlif konfessiyaların dini liderləri arasında böyük nüfuza malik olan Şeyxülislam Allahşükür Paşazadə bir çox beynəlxalq dini qurum və mərkəzlərin rəhbərliyində təmsil olunmaqla, sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına, ayrı-ayrı etiqadlar arasında qarşılıqlı etimad mühitinin yaradılmasına sanballı töhfələr verir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Qafqaz Müsəlmanları İdarəsinin təkliflərini nəzərə almaqla, Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinə həsr edilmiş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

***Bakı şəhəri, 9 aprel 2019-cu il.***

# "Dünya dini liderlərinin II Bakı sammiti"nin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



Azərbaycan Respublikasında müasir dövrdə millətlərarası münasibətlər və din sahəsində həyata keçirilən dövlət siyasəti beynəlxalq hüquq normalarına və zəngin tarixi köklərə əsaslanır. Dünyanın multikulturalizm mərkəzlərindən biri kimi tanınan Azərbaycanda sivilizasiyalararası və dinlərarası dialoqa töhfə verən bir sıra nüfuzlu beynəlxalq tədbirlərin keçirilməsi artıq ənənəyə çevrilmişdir. Beynəlxalq ictimaiyyəti narahat edən humanitar problemlər 2008-ci ildən etibarən, mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsini nəzərdə tutan "Bakı prosesi" çərçivəsində müzakirə olunur, dünyanın tanınmış dini liderləri, ictimai-siyasi xadimləri, dövlət rəsmiləri, nüfuzlu alim və ziyalıları arasında səmərəli fikir mübadiləsi aparılır. Bu baxımdan, 2010-cu ildə dünya dini liderlərinin Bakıda keçirilmiş sammitini sivilizasiyalararası dialoqun inkişafına, müxtəlif dini konfessiyaların əməkdaşlığının genişlənməsinə, eləcə də qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfə hesab etmək olar.

Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70 illiyi ilə bağlı yubiley tədbirləri çərçivəsində Bakıda növbəti beynəlxalq sammitin keçirilməsi, ayrı-ayrı regionlarda gedən mürəkkəb etnik-dini proseslərin və qloballaşan dünyanın müasir çağırışlarının nüfuzlu dini-ictimai xadimlərin iştirakı ilə birgə müzakirəsi aktuallıq kəsb edən məsələlərdəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. "Dünya dini liderlərinin II Bakı sammiti"nin 2019-cu il 14-15 noyabr tarixlərində keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Əli Əhmədov - Azərbaycan Respublikası Baş nazirinin müavini

**Təşkilat Komitəsinin üzvləri**

Şeyxülislam Allahşükür Paşazadə - Qafqaz Müsəlmanları İdarəsinin sədri, Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin sədri

Zeynal Nağdəliyev - Azərbaycan Respublikası Prezidentinin Ərazi-təşkilat məsələləri üzrə köməkçisi - şöbə müdiri

Əli Həsənov - Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri

Etibar Nəcəfov - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri

Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri

Əbülfəs Qarayev - Azərbaycan Respublikasının mədəniyyət naziri

Mübariz Qurbanlı - Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri

Vüsal Hüseynov - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi

Ülvi Mehdiyev - Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri

Ramiz Həsənov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

İsa Həbibbəyli - Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti

Siyavuş Novruzov - Azərbaycan Respublikası Milli Məclisinin İctimai birliklər və dini qurumlar komitəsinin sədri

Aslan Aslanov - Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyətinin sədri

Rövşən Məmmədov - "Azərbaycan Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini

İsmayıl Hacıyev - Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin sədri

Aleksandr İşein - Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu

Milix Yevdayev - Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri

Salman Musayev - Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini

Vasim Məmmədəliyev - Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Qafqaz Müsəlmanları İdarəsi Elmi Dini Şurasının sədri.

2. Bu Sərəncamın 1-ci hissəsi ilə yaradılmış Təşkilat Komitəsi "Dünya dini liderlərinin II Bakı sammiti"nin keçirilməsinə dair Tədbirlər Planı hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 11 aprel 2019-cu il.***

# Azərbaycanın pravoslav xristian icmasına

Hörmətli həmvətənlər!

Sizi – Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzularımı yetirirəm.

Yüz illər boyu Azərbaycanda müxtəlif dinlərin və xalqların nümayəndələrinin sülh, qarşılıqlı hörmət və etimad şəraitində yaşaması müasir dünyada ölkəmizi nümunəvi tolerantlıq məkanı və multikulturalizm mərkəzlərindən biri kimi tanıtmışdır. Etnik-dini müxtəlifliyin və multikultural ənənələrin qorunub saxlanılması və təşviqi dövlət siyasətimizin prioritet istiqamətlərindən biridir. Azərbaycanın bu sahədə zəngin təcrübəsi açıq şəkildə göstərir ki, multikulturalizm cəmiyyətdə həmrəyliyi, harmoniyanı və qarşılıqlı anlaşmanı gücləndirməyin yeganə yoludur.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan xristian icması digər dini etiqadların mənsubları ilə birgə respublikamızın tərəqqisi naminə həyata keçirilən böyük quruculuq işlərində, ictimai-siyasi və sosial-mədəni həyatımızın bütün sahələrində yaxından iştirak edir. Əminəm ki, xristian həmvətənlərimiz bundan sonra da ümumi evimiz olan Azərbaycanın daha da güclənməsi naminə səylərini əsirgəməyəcəklər.

Dirçəlişi, yeniliyi, mərhəmət və şəfqət duyğularını təcəssüm etdirən Pasxa bayramı insanların qəlbində inam və gələcəyə ümid hissi oyadır, onları xeyirxahlığa yönləndirir. Bu əziz gündə bir daha sizə xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 aprel 2019-cu il.***

**Prezident İlham Əliyev:**

***Biz dərin milli-mənəvi təməl üzərində müasir dövlət qurmuşuq***

# Müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimi keçirilib Prezident İlham Əliyev mərasimdə iştirak edib



***Mayın 23-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.***

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başlayıb.

**Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə mərasim iştirakçılarını salamlayaraq deyib:**

- Bismillahir-rəhmanir-rəhim.

Möhtərəm cənab Prezident İlham Əliyev.

Dəyərli qonaqlar.

Allah-Təalanın mübarək Ramazan ayının iftar süfrəsində Sizləri salamlayır, qonaqlarımıza, xüsusən dövlətimizin başçısı, möhtərəm Prezidentimiz İlham Əliyev cənablarına məclisimizdə iştirak etdiyinə görə Azərbaycan dindarları adından və şəxsən öz adımdan salam-dualarımı və dərin minnətdarlığımı bildirirəm. Burada iştirak edən dəyərli din və dövlət xadimlərinə, dini konfessiya rəhbərlərinə, deputatlara, xarici ölkələrin nümayəndələrinə təşəkkür edirəm.

Qurani-Kərimin nazil olduğu, duaların qəbul edildiyi mübarək Ramazan ayında iftar mərasimində Sizinlə görüşmək böyük dəyər kəsb edən əlamətdar ənənəyə çevrilib. Bu qardaşlıq

məclisini bizlərə böyük insan, dahi dövlət xadimi, mənim unudulmaz, əziz qardaşım Ulu Öndər Heydər Əliyev əmanət edib.

Hər il biz Heydər Əliyev şəxsiyyətinin dəyər və miqyasını, ucalıq və müdriklik zirvəsini bir daha kəşf edir, əziz xatirəsini böyük ehtiramla yad edirik. Ulu Öndər bizə müstəqil dövlət, möhkəm din-dövlət münasibətləri, nadir multikultural mədəniyyət nümunəsini əmanət edib. Xalqımıza, dövlətimizə müdrik rəhbər bəxş etmiş dahi Heydər Əliyevə və möhtərəm Zərifə xanıma Allah rəhmət eləsin, ruhları şad olsun.

Zati-aliləri, Azərbaycan torpağına qədəm basan hər kəsin şahidi olduğu tərəqqi və uğurların təməlində Sizin – dövlətimizin başçısının fəaliyyəti və müdrik siyasəti durur. Sizin həyata keçirdiyiniz siyasətin yaşam gücü dövlət-xalq birliyində, Prezident-vətəndaş həmrəyliyindədir. Bu, həm siyasi, həm mənəvi baxımdan ən düzgün yoldur.

Azərbaycan tarixən dinlərarası tolerantlıq və multikulturalizm mühitinin təşəkkül tapmasına böyük önəm verib. Mədəniyyətlərarası əməkdaşlığa dair onillik tarixə malik "Bakı Prosesi"nin müəllifi məhz dövlətimizin başçısı möhtərəm İlham Əliyevdir. Azərbaycanın Birinci vitse-prezidenti möhtərəm Mehriban xanım Əliyevanın ölkəmizdə və beynəlxalq aləmdə genişmiqyaslı fəaliyyəti, milli-mənəvi irsimizi yüksək səviyyədə təbliğ etməsi, ümumbəşəri dəyərlərə diqqəti və himayəsi Azərbaycanın bu istiqamətdə söz sahibinə çevrilməsinə xidmət edir, dünyaya təqdim olunan Azərbaycan modeli sivilizasiyalararası dialoq, dinlər və mədəniyyətlərarası əməkdaşlığın inkişafına öz töhfəsini verir.

Möhtərəm cənab Prezident, biz Sizin dünya səviyyəsində qəbul olunan qlobal ideyalarınızdan ilham alaraq bir çox beynəlxalq tribunalardan Azərbaycanın multikulturalizm və tolerantlıq modelini böyük qürurla təqdim edirik.

Zati-alinizin xeyir-duası və təşəbbüsü ilə Qafqaz Müsəlmanları İdarəsinin nəzdində yaradılmış Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin məramı nadir multikulturalizm modelinin yaradılmasına və inkişafına dair qlobal ideyalarınızı təbliğ etməkdir. Məhz bu məramla, İnşallah, bu ilin iyununda Mərkəzimiz tərəfindən BMT-nin Cenevrə İnsan Haqları və Qlobal Dialoq Mərkəzinin, habelə Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAİCİİD) həmtəşkilatçılığı, Azərbaycanın Avstriyadakı səfirliyinin, Avstriya dövlətinin ali dəstəyi və iştirakı ilə Vyanada 10-dan artıq beynəlxalq təşkilatın, 40-a yaxın ölkənin 300-ə yaxın din və dövlət nümayəndəsinin, elm və ictimaiyyət xadiminin iştirak edəcəyi beynəlxalq konfrans keçiriləcəkdir.

Dünyanın bir çox ölkələrində mənəvi dəyərlərə qarşı savaş açıldığı, islamofobiya, antisemitizm zəminində təqiblərin, terrorun, ekstremizm və radikallığın artdığı mürəkkəb zamanda müxtəlif qitə nümayəndələrinin, din və mədəniyyət təmsilçilərinin Azərbaycan Prezidentinin elan etdiyi multikulturalizm, İslam həmrəyliyi kimi qlobal əhəmiyyətli ideyalar ətrafında bir araya gəlməsi dövlətimizin uğuru və Sizin siyasətinizin təntənəsidir. Bu gün Azərbaycan iqtisadi, siyasi, mədəni sahələrdə liderliyi ilə yanaşı, dünya çapında dini-mənəvi dəyərlərin inkişafına böyük töhfələr verən multikulturalizm mərkəzi kimi tanınmaqdadır. Beynəlxalq ictimaiyyəti narahat edən problemlərin həlli yönündə dünyanın tanınmış dini

liderləri, ictimai-siyasi xadimləri arasında səmərəli fikir mübadiləsi üçün Azərbaycanda dövlət tərəfindən hər cür şərait yaradılmışdır. Biz Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsi ilə əməkdaşlıq çərçivəsində Zati-alinizin irəli sürdüyü istiqamətlər yönündə yeni əməli layihələr üzərində işləyirik.

Fərəhləndirici haldır ki, ölkəmiz 2010-cu ildə dünya dini liderlərinin Bakıda keçirilmiş birinci Sammitinin davamı olaraq sivilizasiyalararası dialoqun inkişafına daha bir töhfə verməyə hazırlaşır. Zati-alinizin Dünya Dini Liderlərinin II Bakı Sammitinin keçirilməsi barədə Sərəncamı, heç şübhəsiz, tarixi bir qərar oldu. Müxtəlif dini konfessiyalar arasında əməkdaşlığın genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə önəmli töhfə olacaq bu beynəlxalq tədbirin dəyərini zaman və dünya ictimaiyyəti verəcəkdir.

Zati-aliləri, Azərbaycandakı din-dövlət münasibətlərinin yüksək səviyyəsinin təmini istiqamətində əməli addımlarınız, milli-mədəni irsin dirçəlişinə göstərdiyiniz maddi və mənəvi yardım Ulu Öndərin Bibiheybətdən başlatdığı ali mənəviyyat yoluna sadiqliyinizi hər zaman əməli səylərinizlə nümayiş etdirirsiniz.

Ali himayənizi heç vaxt əsirgəmədiyiniz, xalqımız üçün müqəddəs məkan sayılan Təzəpir məscidinin ətrafında aparılan abadlaşdırma işləri, genişləndirilən ərazidə salınan möhtəşəm park, məscidin ilkin tarixi layihəsinə uyğun yenidən qurulması barədə iradəniz - bütün bunlar milli-mənəvi dəyərlərimizə, tariximizə olan yüksək qayğının təzahürü, xalqımıza böyük hədiyyədir. Zati-alinizin mənəvi irsimizə sahib çıxaraq XX əsrdə Vladiqafqazda azərbaycanlı xeyriyyəçi Muxtarov tərəfindən inşa edilmiş məscidi tam bərpa etdirməniz isə bütün Qafqaz bölgəsi müsəlmanlarına, orada yaşayan soydaşlarımıza böyük hədiyyədir.

Möhtərəm cənab Prezident, Zati-alinizə xas olan yüksək mənəvi xüsusiyyətlərdən biri də odur ki, Siz təkcə İslamın deyil, bütün dinlərin dini-mədəni irs nümunələrinə sahib çıxaraq, ölkəmizdəki, həmçinin ölkə xaricindəki istər xristian, istər yəhudi məbədlərinə eyni dərəcədə diqqət və himayə göstərirsiniz.

Peyğəmbərimiz Məhəmməd Salavatullahın hədisində buyurulur ki, insanların ən xeyirlisi xalq üçün daha faydalı olanıdır. Zati-aliləri, Azərbaycanın iqtisadi qüdrətinin artırılması yönündə səyləriniz, beynəlxalq əhəmiyyətli enerji və nəqliyyat layihələrində fəal iştirakınız, sosial layihələrə verdiyiniz dəstək xalqımızın rifahına, dövlətimizin mənafelərinə xidmət edir. Siz və Mehriban xanım bütün vətəndaşlara həyatın ən çətin məqamlarında - təbii fəlakətlərdə, yanğınlarda, baş verən faciələrdə yüksək insani dəyər verir, onların problemlərinə diqqətlə yanaşırsınız. Dünyanın inkişaf etmiş dövlətlərinin miqrant böhranını aradan qaldıra bilmədiyi bir dövrdə Siz, möhtərəm cənab Prezident, Azərbaycanın qaçqın və məcburi köçkünləri üçün böyük qayıdış planları həyata keçirirsiniz. Cocuq Mərcanlıda Zati-alinizin inşa etdirdiyi məscidin, aparılan quruculuq işlərinin mənəvi önəmi xalqımız üçün sözlə ifadə olunmayacaq qədər böyükdür.

Ölkəmizdə həyatın bütün sahələrində gerçəkləşdirdiyiniz islahatlar əsl liderə xas əzəmət və siyasi qüdrət nümunəsidir.

Zati-aliləri, qədirbilən xalqımız Sizin siyasətinizin dövlətimizin uğurlu gələcəyinə xidmət etdiyindən əmindir. Lakin bizi istəməyən, gözü götürməyən bədxah qüvvələr Azərbaycanı bu qədər inkişaf etmiş gördükcə böhtan və iftiralarla xalq-dövlət birliyini pozmağa çalışırlar. Təəssüf ki, bədxah qüvvələr Azərbaycana qarşı mübarizələrində bəzən soydaşlarımızdan da istifadə etməyə çalışırlar. Şeyxülislam olaraq bildirmək istəyirəm ki, doğru yola qədəm qoysunlar, xalqımızın, dövlətimizin mənafelərini hər şeydən uca tutsunlar.

Bu yaxınlarda 10 milyonuncu vətəndaşımızın dünyaya gəlməsi gündən-günə geriləyən, maddi və mənəvi iflasa uğrayan, demoqrafik böhran yaşayan Ermənistan üçün ağır zərbədir. Ordumuzun artan qüdrəti, insanlarımızın Sizə sədaqəti bədxahları narahat edir, hətta dini zəmində qarşıdurma yaratmaq, məzhəb ayrı-seçkiliyi salmaq niyyətində olan daxili və xarici qüvvələr də yox deyildir. Lakin bu cür insanlar heç nəyə nail olmayacaqlar. Allahın köməyi və Azərbaycan xalqının dəstəyi həmişə Sizinlədir, möhtərəm cənab Prezident! Sizi əmin etmək istəyirəm ki, apardığınız siyasi xəttin qələbəsi yolunda hər zaman Sizin yanınızdayıq. Biz dindarlar Sizi dövlət rəhbəri kimi Məkkədə – müqəddəs məkanda seçmişik, xeyir-dualar vermişik və seçimimizə sadiqik. Allah-Təala hər zaman haqqın tərəfindədir.

Zati-aliləri, 70 illik yubileyim və Şeyxülislamlıq fəaliyyətimin 40 illiyi münasibətilə verdiyiniz ali qərar və sərəncamınızla cənabınıza xas olan böyüklük nümayiş etdirərək, şəxsimə, Azərbaycan xalqı, dövlətçiliyimiz, müqəddəs dinimiz yolunda xidmətlərimə böyük dəyər verdiniz. Şeyxülislam olaraq 40 il ərzində dini mərkəzimizi Ulu Öndər Heydər Əliyevin xeyir-duası ilə onun əmanəti kimi saxlamağa, cənab Prezident, Sizin dəstəyinizlə dünyanın tanınmış dini təşkilatı səviyyəsinə qaldırmağa nail olmuşuq. Bu illər ərzində idarəmizə, şəxsimə olan hörmət və diqqətiniz, özəl münasibətiniz, fəaliyyətim barədə dəyərli fikirləriniz mənim üçün ən qiymətli hədiyyə olubdur. Zati-alinizin məni dost, qardaş adlandırmasını özüm üçün ən böyük mükafat hesab edirəm və bu yüksək etimadınızla fəxr edirəm. Hər zaman, hər yerdə qürurla deyirəm ki, harada dövlət və din birliyi varsa, orada dövlətin və xalqın siyasi, iqtisadi və mənəvi rifahı üçün təminat vardır, Heydər Əliyev yolunun davamı və Uca Yaradanımızın xeyir-duası vardır.

Möhtərəm cənab Prezident, bizim yeganə problemimiz, ağrılı yerimiz Dağlıq Qarabağ münaqişəsidir ki, onun da tezliklə Allahın köməyi və Ali Baş Komandanımızın əzmi, qətiyyəti sayəsində həllini tapacağına, torpaqlarımızın azad olunacağına əminik. Bu əziz gündə Vətən uğrunda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət diləyirik. Allah-Təala Sizin rəhbərliyinizlə müzəffər ordumuzun əzəli torpaqlarımıza zəfər bayrağı sancmasını görməyi bizlərə nəsib etsin, İnşallah! Bu müqəddəs və mübarək Ramazan ayında Zati-alinizə və möhtərəm ailənizə ən gözəl arzularımızı yetiririk. Uca Allah hər zaman Sizi qorusun, yardımçınız olsun.

Müqəddəs Ramazan ayında etdiyimiz dualar qəbul olar, İnşallah. Bu niyyətlə hamıya - dəvət olunan mötəbər qonaqlara, dini konfessiyaların möhtərəm başçılarına, diplomatik nümayəndələrə bir daha "Xoş gəlmisiniz!" deyir, Allahdan hər birinizə xeyir-dualar diləyirəm.

Allah-Təala Azərbaycanı hifz eləsin! Amin!

* * *

**Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr çıxış edərək deyib:**

-Hörmətli cənab Prezident.

Möhtərəm Şeyxülislam.

Hörmətli din xadimləri, xanımlar və cənablar.

Dini və milli ənənələrimizi yeniləmək və möhkəmləndirmək üçün Ramazan ayı günlərində bir yerə toplaşmaq əlamətdar ənənəyə çevrilib. Bu görüş Azərbaycanda yaşayan xalqların öz tarixi və dini köklərinə bağlılığının parlaq təsdiqi, milli mentalitetin, dövlətlə din arasında konstruktiv qarşılıqlı münasibətlərin əyani təzahürüdür. Bu əlamətdar günlərdə bütün Azərbaycanda, bütün şəhərlərdə və kəndlərdə ailələrdə, dostların və tanışların əhatəsində belə iftar süfrələri açılır. Bizim iştirak etdiyimiz bu iftar süfrəsi də ölkədə sabitliyin, xalq-iqtidar birliyinin, dinlərarası dialoqun yüksək səviyyəsinin və multikulturalizmin Azərbaycan modelinin uğurunun parlaq təsdiqi, cəmiyyətin inkişafının Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasi kursunun dəyişməzliyinin sübutudur. Azərbaycanın bütün iqtisadi, siyasi, ictimai, elmi və mədəni həyatı bu məcrada inkişaf edir. Bu baxımdan Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi, bu il 15 illiyini qeyd etdiyimiz Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Cənab Prezidentlə birlikdə din xadimlərinin, hökumət nümayəndələrinin, Milli Məclisin deputatlarının, elm və mədəniyyət xadimlərinin, respublikada akkreditə olunmuş diplomatik missiya rəhbərlərinin iştirak etdikləri bugünkü iftar mərasimi də dini həyatın vəziyyətinin yüksək səviyyədə olmasının göstəricisidir. Bu, tolerantlıq ruhunun və ölkəmizin rəhbərliyinin yürütdüyü multikulturalizm siyasətinin çox güclü təzahürüdür.

Möhtərəm cənab Prezident, icazə verin, Sizi əmin edək ki, Azərbaycanın din xadimləri Azərbaycan Respublikasının rəhbəri vəzifəsində Sizin fəaliyyətinizə dərin ehtiramla yanaşır, Sizin yürütdüyünüz siyasi kursu səmimi dəstəkləyir, Sizin cansağlığınız və ümumi evimiz olan Azərbaycanın tərəqqisi üçün ürəkdən dua edirlər.

İcazə verin, Sizə Rus Pravoslav Kilsəsinin başçısı, Moskvanın və bütün Rusiyanın patriarxı zati-müqəddəsləri Kirillin fevral ayında ölkəmizə son səfəri zamanı ona göstərdiyiniz mehriban və səmimi qəbula görə onun dərin təşəkkürünü çatdırım.

Hamınızı Ramazan ayı münasibətilə təbrik edirəm.

* * *

**Azərbaycandakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Melih Yevdayev çıxış edərək deyib:**

-Möhtərəm prezident.

Şeyx həzrətləri.

Xanımlar və cənablar.

Bacılar və qardaşlar.

Bu müqəddəs Ramazan günlərində ənənəvi iftar süfrəsi arxasında hamınızı yəhudi xalqı adından salamlayıram. Qoy Allah-Təala hamınızı öz qanadı altına alaraq şər qüvvələrdən hifz etsin. Allah-Təala tutduğunuz orucların və etdiyiniz duaların əvəzində sizə cansağlığı, xoşbəxtlik, səadət, bol ruzi-bərəkət bəxş etsin.

Müqəddəs Ramazan ayını üç hissəyə bölmək olar: əvvəli rəhmət, ikincisi bağışlanma, sonu isə cənnətə doğru. Orucun mənası isə ucalmaq, yüksəlmək deməkdir. Adəm övladı öz iradəsi ilə nəfsinə qalib gəlirsə, həm öz gözündə, həm də Allah-Təalanın gözündə ucalaraq yüksəlir.

Bu gün Azərbaycanın sürətli inkişafını, uğurlu xarici və daxili siyasətini, o cümlədən dövlət və din münasibətlərinin səmərəli tənzimlənməsini şərtləndirən başlıca iki amil mövcuddur. Birincisi, Ulu Öndərin əsasını qoyduğu sağlam bünövrə, ikincisi isə Ümummilli Liderin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin həmin sağlam bünövrə üzərində həyata keçirdiyi uğurlu strategiyadır.

Biz qədirbilən Azərbaycan xalqı ilə birgə bugünkü Azərbaycana, bu əmin-amanlığa, bugünkü gücə, qüdrətə görə Ulu Öndərə minnətdarlıq edib qəni-qəni rəhmət diləyirik:

Həmişə xalqına baş əydiyindən,
Ucaldın zamanın keşməkeşində.
Özün düşüncədə bir ümman ikən,
Özünü əritdin ümman içində.

Ulu Öndər cəmiyyətimizdəki tolerantlıq və humanizm mühitinə görə xalqımızın yaddaşına borclu olduğumuzu dönə-dönə qeyd edirdi:

Vətənə borcluyam mən,
Xalqıma borcluyam mən,
Bəlkə də bu dünyada,
Hamıya borcluyam mən.

Möhtərəm Prezident, on beş ildən çoxdur ki, Siz bu siyasi xətti uğurla davam etdirirsiniz. Sizin böyük dərəcədə humanist, insanpərvər, Vətənini və xalqını sevən, bunu bütün dünyaya bəyan edən Prezident olmağınızla fəxr edir və qürur duyuruq:

Üzündə müqəddəs Vətən qüruru,
Alnında mərd kişi ləyaqəti var.
Şəffaf gözlərində günəşin nuru,
Bir də sadəliyin təravəti var.

Möhtərəm Prezident, müəyyən müddət idi ki, Azərbaycanda Yəhudi Mədəniyyət Mərkəzinin tikilməsini arzulayırdıq. Yəhudi Mədəniyyət Mərkəzinin tikilməsi üçün ayırdığınız torpaq sahəsinə görə Sizə Azərbaycanda yaşayan bütün yəhudilər, həmçinin bütün dünya yəhudiləri adından dərin minnətdarlığımızı bildiririk. Bu vaxta qədər bütün dünyada analoqu olmayan bir hal kimi bizə bəxş etdiyiniz sinaqoqla yanaşı, tikiləcək bu mədəniyyət mərkəzi də dünyada analoqu olmayan bir hal kimi tarixə düşəcəkdir:

Arzu zirvə başındadır,
Onun min bir pilləsi var.
Hər arzunun neçə-neçə,
Böyük, kiçik çilləsi var.

Möhtərəm Prezident, Allah-Təala bütün arzularınızı böyük və kiçik çillələrdən keçirərək çin etsin. Çünki Sizin arzularınız bizim arzularımızdır.

Möhtərəm Prezident, Azərbaycanda yaşayan yəhudilər həmişə olduğu kimi, respublikanın

ictimai-siyasi həyatında fəal iştirak edirlər. Respublikamız mötəbər tədbirlərə ev sahibliyi edir. Həmin tədbirlərə dünyanın hər yerindən gələn çoxsaylı qonaqlar bizim həyat tərzimiz və fəaliyyətimizlə tanış olur, öz dövlətlərinə qayıdandan sonra Azərbaycanın bugünkü həqiqətlərindən danışırlar. Lakin bu, həmişə belə olmur. Bizim inamlı qələbələrimizdən qıcıqlanan bəzi üzdəniraq qonaqlar bugünkü sülh və əmin-amanlıq şəraitində yaşamağımızdan yazmaq əvəzinə ikili standartlara əl atırlar, doğru sözümüzü demirlər və bilmək istəmirlər ki:

Doğru söz insanlığın görən gözüdür,
Doğru söz ədalətin, həqiqətin özüdür.
Müqəddəs ocağın közüdür düz söz,
Dahilər dilinin gücüdür düz söz.

Biz bu yaxınlarda Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun 50 illiyini Şəhidlər xiyabanında və sonra Beynəlxalq Muğam Mərkəzində yüksək səviyyədə keçirdik. Bu tədbirin keçirilməsində, inanın Allaha, bütün respublika bizə kömək edirdi. Prezident Administrasiyası, Nazirlər Kabineti, şeyx həzrətləri, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və aidiyyəti nazirliklər - Müdafiə, Mədəniyyət, Gənclər və İdman Nazirlikləri, bütün icra hakimiyyətləri bizə dəstək oldular.

Möhtərəm Prezident, əlbəttə ki, bütün bunlar Azərbaycanda mümkündür:

Bir süfrənin başında,
Nemətimiz bərabər.
Hüququmuz bərabər,
Hörmətimiz bərabər.
Bir məclisdə sözümüz,
söhbətimiz bərabər.
Ana yurda borcumuz,
xidmətimiz bərabər.
Mübarəkdir bir eşqin,
Bir amalın bayramı.
Etibarın, vəfanın,
Dəyanətin bayramı.

Bu əziz günlərdə dünyasını dəyişənlərimizə və cəmi şəhidlərimizə Allah-Təala qəni-qəni rəhmət etsin. Qoy onların qəbirləri nurla dolsun. Hər bir qəhrəman Vətənin şöhrəti və yaraşığıdır. Məzarda olsalar belə, həmişə həyatdadırlar. Əlbəttə ki, atalarımız, analarımız dünyalarını dəyişiblər:

Yenə gəldim ziyarətə,
Öpdüm mərmər daşı, ata.
Sifətinə ləkə saldı,
Gözlərimin yaşı, ata.
Məndə oğul dəyanəti,
Səndə qəbir sükunəti,
Baxışların məğrur, qəti,

Mərd kişi idin, kişi ata.
Qartal vüqarlısan, dağ əzəmətli,
Ata qeyrətlisən, bacı şəfqətli.
Ay mənim qeydimə qalanım ana,
Həkimim, təbibim, loğmanım ana.
Torpaq da anasız qalmasın deyə,
Torpağın qoynuna köçür analar.

Ona görə də Allah-Təala onlara qəni-qəni rəhmət etsin. Allah-Təala onların qəbirlərini nurla doldursun.

Vətəni sevirəm deyən çox olar,
Deməyə nə var ki, dil yorulmasa.
Vətən də mənim tək ölər, yox olar,
Vətənin yolunda ölən olmasa.

Ona görə də bu gün biz cəmi şəhidlərimizi yad edirik, onlar həmişə bizim qəlbimizdə, bizim ürəyimizdədirlər.

Bir arzumuz da var ki, deyir:

Arzumu görmüşəm mən arzularda,
Arzumu yazmışam ayna sularda.
Dərdi tək çəkirəm çətində, darda,
Sevinci hamı ilə bölən olmuşam.

Bizim ən hündür bayrağımız Qarabağ göylərində dalğalananda mən bütün sevincimi, bütün xalqın sevincini Sizinlə bölüşəcəyəm.

Möhtərəm Şeyx həzrətləri:

İlham qonağındır ellər var olsun,
İlhama hər zaman Allah yar olsun,
Evində həmişə toy-bayram olsun.
Qoy bilsinlər qızıldır, incidir, ləldir İlhamın.

Sağ olun.

* * *

**Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete çıxış edərək deyib:**

-Zati aliləri, cənab Prezident İlham Əliyev.

Möhtərəm Şeyxülislam Allahşükür Paşazadə.

Hörmətli xanımlar və cənablar.

Şadam ki, Ramazan ayı ilə əlaqədar bu il də biz hörmətli Şeyxin evində bir yerə toplaşmışıq. İcazə verin, mən, ilk növbədə, ev sahibi kimi ona burada artıq dəfələrlə hiss etdiyimiz qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirim. Hörmətli Şeyxülislam, mən Azərbaycan katolikləri adından sizə xüsusilə bu il - sizin əlamətdar 70 illik yubileyiniz münasibətilə ən xoş arzularımı çatdırmaq istəyirəm. Ulu Tanrı sizi, ailənizi qorusun və sizə kömək etsin ki, həyatınız, zəhmətiniz gələcəkdə də dini dözümlülük ideyalarının möhkəmlənməsinə və bu gözəl ölkənin bütün sakinlərinin əməkdaşlığına kömək etsin.



Hörmətli cənab Prezident, mən Azərbaycan katolikləri adından bu dövlətin başçısı kimi Sizə təşəkkürümü bildirmək istəyirəm. Burada və digər yerlərdə dəfələrlə səsləndiyi kimi, Siz bütün bəşəriyyətə çox böyük töhfə verən tolerantlıq və multikulturalizm proseslərinin qarantısınız. Sizin rəhbərliyinizlə həyata keçirilən bu siyasət həm ölkəmizdə uğurla inkişaf edir, həm də bütün dünyada müsbət əks-səda doğurur.

Bu ilin fevralında Papa Fransisk Əbu-Dabiyə səfərə gəlmişdi. Bu səfərin ən mühüm hadisələrindən biri bəşəri qardaşlıq haqqında sənədin imzalanması oldu. Həmin sənəddə Papa və "Əl-Əhzar"ın ali imamı əl-Tayib birlikdə bütün insanları qardaş olmağa, bir-birinə hörmət etməyə çağırdıqlarını bəyan edirlər. Sənəddə deyilir: "Bizim zəmanəmizdə bəziləri dinə münaqişə mənbəyi kimi baxır. Biz birlikdə İslamla Xristianlıq arasında görüşün mümkünlüyünün daha bir aydın və qəti nümunəsini göstərdik. Göstərdik ki, bütün mədəni müxtəlifliyə və ənənələrin fərqliliyinə baxmayaraq, Xristian dünyası ilə İslam dünyası arasında hörmət və dialoq mümkündür. Həm Xristian dünyası, həm də İslam dünyası ümumi dəyərləri - həyatı, ailəni, dini hissləri, böyüklərə ehtiramı, gənclərin tərbiyəsini və s. dəyərləndirir və qoruyur".

Azərbaycanda olduğum müddətdə mən dəfələrlə Papanın həmin sənəddə ifadə olunan arzularının burada təcrübədə, gündəlik həyatda reallaşdığını müşahidə etmişəm. Mən azərbaycanlıların qonaqpərvərliyinə və səmimiliyinə, eləcə də onların tarixi səhvlərə və ədalətsizliyə qarşı qəhrəmancasına dözümlü və səbirli olmasına heyranam. Mən əminəm ki, bunların hamısı bütün bəşəriyyət üçün dəyərli töhfə olacaq. Mən indi də, qarşıdakı illərdə də Sizin rəhbərliyinizlə Azərbaycanın insanlar arasında sülhün, xoş münasibətlərin və əməkdaşlığın adası olaraq qalması, bütün şərəfli zəhmətkeş insanlar üçün kifayət qədər məkanın olduğu, öz vətəndaşlarının və burada yaşayanların hamısının azadlığını və ləyaqətini qoruyan ölkə kimi qalması üçün dua etmək və işləmək istəyirəm. Bizi yaradan qüdrətli Tanrı hamımıza, - öz düşüncəsinə görə bizi yerləşdirdiyi yerlərdə hər birimizə, - gələcək nəsillər üçün daha gözəl və fərəhli dünya qurmaqda kömək etsin.

Zati-aliləri, hörmətli Şeyxülislam, icazə verin, bir daha sizə ürəkdən möhkəm cansağlığı, Tanrının köməyini və bütün müsəlman qardaşlarımıza firavanlıq, inkişaf və tərəqqi arzulayım. Təşəkkür edirəm.



Dövlətimizin başçısı mərasimdə nitq söyləyib.

**Prezident İlham Əliyevin nitqi**

- Hörmətli Şeyx həzrətləri.

Hörmətli din xadimləri.

Xanımlar və cənablar.

Hər il olduğu kimi, mübarək Ramazan ayında Şeyx həzrətlərinin iftar süfrəsində görüşürük. Bu, gözəl ənənədir. Bu ənənə yaşayır və yaşayacaq. Bu, dövlət-din münasibətlərinin bariz nümunəsidir. Dövlət-din münasibətləri hər bir ölkə üçün xüsusi əhəmiyyətə malikdir və Azərbaycanda bu münasibətlər nümunəvi xarakter daşıyır.

Bu münasibətlərin təməlində Ulu Öndər Heydər Əliyev və Şeyx həzrətləri dayanırlar. Onların şəxsi dostluğu, bir-birilərinə olan hörməti dövlət-din münasibətlərinin inkişafına çox böyük təsir göstərmişdir. Mən onun şahidiyəm ki, Şeyx həzrətləri və Ulu Öndər Heydər Əliyev bir-birinə çox yaxın insanlar olmuşlar və onların xalq, Vətən qarşısında gördükləri işlər bugünkü Azərbaycanın uğurlu inkişafına şərait yaratmışdır.

1993-cü ilə qədər dövlət-din münasibətlərində müəyyən boşluqlar var idi. 1993-cü ildən sonra bu sahədə də bütün istiqamətlər üzrə işlər ən yüksək səviyyədə tənzimlənir. Mayın 10-da, Ulu Öndərin anadan olmasının 96-cı ildönümü günündə onun xalq, dövlət qarşısında gördüyü işlər haqqında danışdıq. Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləri var. Bugünkü müstəqil Azərbaycan onun əsəridir. Dövlətçiliyin əsaslarının qurulması, Azərbaycanın strateji inkişaf istiqamətlərinin müəyyən edilməsi məhz Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində mümkün olmuşdur.

Hörmətli Şeyx həzrətləri xalq və dövlət qarşısında böyük xidmətlər göstərir. Şeyx həzrətləri həm Azərbaycanda, həm Qafqazda, həm də dünyada böyük nüfuza malik görkəmli

din xadimidir və Azərbaycanı dünyada öz dəyərlərinə sadiq, eyni zamanda, müasir, tolerant ölkə kimi təqdim edir. Onun çoxşaxəli beynəlxalq fəaliyyəti Azərbaycanı dünyaya tanıtdırır, Azərbaycan reallıqlarını dünya ictimaiyyətinə təqdim edir və Şeyx həzrətlərinin uğurlu fəaliyyəti ölkəmizi gücləndirir.

Ölkəmizdə milli həmrəylik, vətəndaş həmrəyliyi var. Konstitusiyaya görə din dövlətdən ayrı olsa da, əslində din və dövlət bir-birinin yanındadır. Bizim gücümüz birliyimizdədir. Bu gün Azərbaycanın uğurlu inkişafı dövlət-din münasibətlərinin uğurlu inkişafından böyük dərəcədə asılıdır.

Dünyada vəziyyət gərginləşir. Həm bölgəmizdə, həm dünyada yeni toqquşmalar, yeni münaqişə ocaqları yaranır, yeni risklər, təhdidlər meydana çıxır. Dünyanın gələcəyi ilə bağlı, sabitliyin gələcəyi ilə bağlı müxtəlif fikirlər, fərziyyələr irəli sürülür. Bizim əsas vəzifəmiz Azərbaycanda sabitliyi qorumaq, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq və ölkəmizi mümkün olan risklərdən qorumaqdan ibarətdir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülüb. Azərbaycan inkişaf yolu ilə gedir. İnkişaf dinamikamız çox müsbətdir. Əminəm ki, gələcək illərdə aparılan dərin islahatlar sayəsində ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcəkdir.

Biz dərin milli-mənəvi təməl üzərində müasir dövlət qurmuşuq. İslam dəyərləri milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir. Biz öz dinimizə bağlıyıq. Biz dünyada İslam mədəniyyətini təbliğ edirik. Dünyada çoxsaylı konfranslar, sərgilər, təqdimatlar keçirilir, Azərbaycan həqiqətləri, İslam mədəniyyətinin həqiqətləri dünya ictimaiyyətinə təqdim edilir. Biz İslamı olduğu kimi, sülh, mərhəmət dini kimi dünyaya təqdim edirik və bu fəaliyyəti bundan sonra da davam etdirəcəyik.

Müsəlman ölkələri ilə bizim ənənəvi dostluq-qardaşlıq əlaqələrimiz vardır. Bu, xarici siyasətimizdə prioritet istiqamətlərdən biridir. Azərbaycan bütün müsəlman ölkələri ilə sıx əlaqələr qura bilmişdir və beynəlxalq müstəvidə biz daim bir-birimizi dəstəkləyirik. Eyni zamanda, ikitərəfli formatda çox fəal əməkdaşlıq edirik. Bir neçə gün bundan əvvəl müsəlman ölkələrinin səfirləri ilə görüş əsnasında bu məsələlərlə bağlı fikir mübadiləsi apardıq.

Azərbaycan, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür və bu təşkilat çərçivəsində İslam həmrəyliyinin möhkəmlənməsinə öz dəyərli töhfəsini verir. Ölkəmizdə İslam Əməkdaşlıq Təşkilatının xətti ilə bir çox tədbirlər keçirilir. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda İslam dəyərlərinin qorunması işində apardığımız siyasətə çox yüksək qiymət verir. Biz bundan sonra da təşkilat çərçivəsində İslam həmrəyliyinin möhkəmlənməsi işində öz səylərimizi davam etdirəcəyik. Onu da bildirməliyəm ki, 2016-cı ildə İslam Əməkdaşlıq Təşkilatı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə kontakt qrupu yaratmışdır və təşkilat bu münaqişə ilə bağlı bizim haqq işimizi daim dəstəkləyir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin bir yolu var - Azərbaycanın dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyü bərpa edilməlidir. Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır. Biz bu həqiqətləri dünyaya çatdırırıq. Əfsuslar olsun ki, münaqişə başlanan zaman münaqişə ilə bağlı dünyada kifayət qədər məlumat yox idi. 1990-

cı illərin əvvəllərində torpaqlarımız işğal altına düşmüşdür. Ölkəmizdə o vaxt yaşanan böhran, hərc-mərclik, xaos Ermənistana imkan verdi ki, bizim tarixi torpaqlarımızı zəbt etsin. O vaxt biz beynəlxalq təcriddə idik, öz səsimizi dünya ictimaiyyətinə çatdıra bilmirdik. Beləliklə, dünyada münaqişə ilə bağlı böyük dərəcədə təhrif edilmiş rəy formalaşdırılmışdı. Bizim müntəzəm səylərimiz nəticəsində artıq bütün dünya bilir ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, tarixi torpağımızdır. Münaqişəyə dair çoxsaylı kitabların çap edilməsi, təqdimatların, konfransların keçirilməsi dünya ictimaiyyətinə münaqişə ilə bağlı həqiqətləri çatdırır.

Hər kəs görür ki, münaqişə ilə bağlı ikili standartlar mövcuddur. Necə ola bilər, dünyanın ali orqanı olan BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edir, bu qətnamələrdə açıq-aydın deyilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır və bu qətnamələr icra olunmur. Ona görə hesab edirəm ki, dünyada mövcud olan ikili standartlar ən böyük problemlərdən biridir. Münaqişənin həlli üçün biz səylərimizi davam etdirəcəyik. Biz iqtisadi gücümüzü artırırıq, siyasi çəkimiz artır, hərbi baxımdan Azərbaycan bu gün güclü ölkələr sırasındadır. Döyüş meydanında üstünlüyümüzü təmin etmişik. Vaxtilə işğal altına düşmüş torpaqların bir hissəsini azad etmişik. O torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. İşğaldan azad edilmiş torpaqlarda Şuşa məscidinin bənzəri olan məscid tikilmişdir, qəsəbə salınmışdır, oraya həyat qayıtmışdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bu gün dirçələn və inkişaf edən Cocuq Mərcanlı kəndi Azərbaycan xalqının əyilməz ruhunu təcəssüm etdirir. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Bir daha demək istəyirəm ki, bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Biz tarixi, dini abidələrimizi qoruyuruq və burada da dövlət və din bir yerdədir. Son illərdə yüzlərlə məscid tikilmiş və ya təmir edilmişdir. Onların arasında tarixi məscidlərimiz xüsusi yer tutur. Şeyx həzrətləri qeyd etdi, Təzəpir məscidinin ətrafında salınan möhtəşəm park həm şəhərə yeni nəfəs verəcək, yəni, 20 hektar ərazidə salınan yaşıllıqlar bu zonada iqlimin yaxşılaşmasına xidmət göstərəcək, insanların rahatlığı üçün imkanlar yaradacaq, eyni zamanda, Təzəpir məscidinin əzəmətli görkəmi artıq bütün vətəndaşlara açıq olacaq. Çünki vaxtilə Təzəpir məscidinin ətrafında tikilmiş binalar imkan vermirdi ki, biz onu uzaq məsafədən seyr edək. Digər məscidlərimizin əsaslı şəkildə bərpası bizim niyyətimizi, siyasətimizi göstərir. Bibiheybət, Əjdərbəy, Şamaxı Cümə məscidlərinin, "İmamzadə" tarixi-dini kompleksinin əsaslı şəkildə təmir edilməsi dövlət-din münasibətlərinin təzahürüdür. Heydər məscidinin tikintisi tarixi hadisədir.

Bildiyiniz kimi, keçən il prezident seçkilərindən sonra iştirak etdiyim birinci tədbir Hacı Cavad məscidinin yeni binasının açılışı olmuşdur. Bu da təsadüfi deyil. Mən seçkilərdən sonra istənilən yerə gedə bilərdim. Məhz Hacı Cavad məscidinin yeni binasının açılışını birinci növbədə qeyd etməyimiz dövlət-din münasibətlərimizə, İslam dininə göstərdiyimiz hörmətdir.

Ölkəmizdə dinlərarası münasibətlər ən yüksək səviyyədə tənzimlənir. Bu, artıq reallıqdır. Bütün dünya bu reallıqları bilir və qəbul edir. Bu gün Azərbaycan dünya miqyasında dinlərarası dialoqun aparılması üçün bir mərkəzə çevrilib. Təsadüfi deyil ki, çoxsaylı beynəlxalq tədbirlər

məhz bizim təşəbbüsümüzlə ölkəmizdə keçirilir. Əgər biz bu təşəbbüsü göstərməsəydik, bu tədbirlər də keçirilməzdi.

Hörmətli Şeyx həzrətlərinin dediyi kimi, bu il Dünya Dini Liderlərinin II Zirvə Görüşü keçiriləcəkdir. Bu məsələ ilə bağlı qərar qəbul edildi. Şeyx həzrətlərinin yubileyi və fəaliyyətinin 40 illiyi dövlət səviyyəsində təntənəli şəkildə qeyd ediləcəkdir. Əminəm ki, Azərbaycan müasir, öz dini, milli köklərinə bağlı olan ölkə, eyni zamanda, tolerant və multikultural dəyərləri təbliğ edən dövlət kimi öz reallıqlarını dünyaya bir daha təqdim edəcək.

Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq tədbirlər həm ölkəmiz, həm daxildə gedən proseslər, həm də dünya üçün böyük məna daşıyır. Çünki Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu, bizim böyük sərvətimizdir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri mehribanlıq, əmin-amanlıq şəraitində yaşayır. Biz bir ailə kimi yaşayırıq və bizim gücümüz birliyimizdədir. Bu tədbirlərin dünya üçün də böyük əhəmiyyəti var. Çünki bu gün dünyada dinlərarası münasibətlərlə bağlı fərqli fikirlər var, yəni, birmənalı yanaşma yoxdur. Bəzi hallarda çox təhlükəli fikirlər səslənir, çox böyük fəsadlara gətirib çıxara biləcək addımlar atılır. Ona görə bizim təşəbbüslərimiz dünya üçün böyük əhəmiyyət daşıyır. Sonuncu böyük tədbir Mədəniyyətlərarası Dialoq Forumu idi. Bu Forum çərçivəsində çox önəmli məsələlər müzakirə edilmişdir və Azərbaycanın bu sahədəki müsbət rolu bir daha qeyd olunmuşdur. Biz bu sahədə öz səylərimizi davam etdirəcəyik. Bir daha demək istəyirəm ki, bu, bizim üçün lazımdır və bu, dünya üçün lazımdır. Çünki biz istəyirik ki, dünyada proseslər müsbət məcrada getsin, dini, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmasın, sülh olsun, bərabərlik olsun, ədalət olsun. Müqəddəs İslam dinimiz bunu tələb edir və biz dövlət olaraq bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik. Ölkəmizin uğurlu, dayanıqlı inkişafı təmin olunacaq, ölkə qarşısında duran vəzifələr icra edilir və ediləcəkdir, mövcud problemlərin həlli üçün çox aydın baxışlar, konkret proqramlar var və onlar icra edilir. Bu gün Azərbaycan reallıqları belədir ki, ölkəmiz inamla, nikbinliklə irəliyə gedir, nikbinliklə yaşayır. Ölkə qarşısında duran bütün problemlərin həlli üçün bizdə həm güclü siyasi iradə, həm də cəmiyyət tərəfindən böyük dəstək var.

Hörmətli mərasim iştirakçıları, mən hörmətli Şeyx həzrətlərinə, digər din xadimlərinə mənim haqqımda, ünvanıma deyilən bütün xoş sözlərə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bütün dünya müsəlmanlarını Ramazan ayı münasibətilə təbrik etmək istəyirəm. Bütün dünya müsəlmanlarına sülh, əmin-amanlıq, rifah arzulayıram! Sağ olun.

* * *

Sonra iftar süfrəsi açılıb.

# Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanın dünyaya nümunə olan hazırkı mədəni müxtəliflik və yüksək tolerantlıq mühiti əsrlərdən bəri burada ayrı-ayrı xalqların və konfessiyaların nümayəndələrinin qarşılıqlı hörmət və əmin-amanlıq şəraitində dinc yanaşı yaşamalarının nəticəsidir. Cəmiyyətdə qarşılıqlı mənəvi zənginləşmə üçün davamlı zəmin yaratmış bu etnik rəngarəngliyin qorunub saxlanmasının müstəqil dövlətçiliyin əsaslarının daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 2,0 (iki) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350,0 (üç yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350,0 (üç yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 150,0 (yüz əlli) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 150,0 (yüz əlli) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 150,0 (yüz əlli) min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək göstərilməsi üçün Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 100,0 (yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 may 2019-cu il.***

# Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Dövlət başçısı İlham Əliyev Ramazan bayramı münasibəti ilə Azərbaycan xalqını təbrik edib. Təbrikdə deyilir:

Hörmətli həmvətənlər!

Sizi mübarək Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram.

Bəşər övladını xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən, öz mahiyyəti ilə insanların ruhunu təzələyən Ramazan ayı dünya müsəlmanlarının ən əziz ayıdır. Oruc tutmaqla inanclı insanlara mənəvi-ruhi ucalığın, əxlaqi saflığın fərəhini, şəfqət, mərhəmət, həmrəylik duyğularının sevincini yaşadan Ramazan ayı ilahi hikmətlər xəzinəsi müqəddəs Qurani-Kərimin nazil olması ilə əlamətdardır. Ramazan bayramı günlərində mömin vətəndaşlarımız Uca Yaradan qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi zənginliyin üstünlüyünü yaşamaq fürsəti qazanırlar.

Azərbaycan İslam sivilizasiyasının tərkib hissəsi kimi bəşəriyyətin mədəni irsinə öz töhfələrini vermiş, böyük alimlər və mütəfəkkirlər yetişdirmişdir. İslam və onun mahiyyətindən irəli gələn sülhpərvərlik, dözümlülük, bərabərlik, qardaşlıq və bu kimi dəyərlər Azərbaycanda tolerantlıq mühitinin, cəmiyyətdə vəhdət və harmoniyanın yaranmasında, multikulturalizm və humanizm ideyalarının bərqərar olmasında müstəsna rol oynamışdır.

Əziz bacı və qardaşlarım!

Bu günlər ölkəmizin hər yerində xalqımızın əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. İnanıram ki, bu müqəddəs bayram günlərində sizin dua və diləkləriniz Tanrı dərgahında qəbul ediləcək, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir. Bir daha hər birinizi və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı ürəkdən təbrik edir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram.

Ramazan bayramınız mübarək olsun!

**İlham Əliyev**
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 03 iyun 2019-cu il.***

***

Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. Təbrikdə deyilir: “Əziz həmvətənlər, Sizi müqəddəs Ramazan bayramı münasibətilə təbrik edirəm. Bu mənəvi yenilənmə və təmizlənmə bayramında sizə xoşbəxtlik və rifah, saf niyyətlər və xeyirxah işlər arzu edirəm. Allah sizin bütün oruclarınızı və dualarınızı qəbul etsin, Vətənimizə sülh, xoşbəxtlik, xoş günlər və firavanlıq bəxş etsin”.

# Prezident İlham Əliyevin Sərəncamı ilə DQİDK-nın bir qrup əməkdaşı təltif edilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 iyun 2019-cu il Sərəncamı ilə bir qrup dövlət qulluqçusu orden və medallarla təltif edilib.

Dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin aşağıdakı əməkdaşları da təltif olunublar.

**"Tərəqqi" medalı:**
Elnarə Kərimova,
Ayziynət Zeynalova,
Ruslan Əsgərov

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı:**
Aygün Cəbrayılova,
Namiq Cırıyev,
Günel Yusifi,
Rəhim Rəhimli

# ŞƏRQ PERİPATETİZMİNİN İSLAM FƏLSƏFƏSİNDƏKİ MÖVQEYİ

***Aygün KƏRİMOVA,***
*BDU-nun Sosial elmlər və psixologiya fakültəsi, Fəlsəfə kafedrasının müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru,*
*aygunxalilqizi@mail.ru*

***AÇAR SÖZLƏR:*** *fəlsəfə, İslam fəlsəfəsi, peripatetizm, məşşailik, müsəlman filosoflar.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *философия, исламская философия, перипатетизм, мешшаизм, мусульманские философы.*
***KEY WORDS:*** *philosophy, Islamic philosophy, peripatetism, Mashaism, Muslim philosophers.*

İslam dini meydana gəldiyi dövrlərdən etibarən bəşəriyyətin düşüncə tarixinə əsaslı şəkildə təsir göstərmişdir. Dini aspektlərə, inanc və şəriətə əsaslanan, Allah, səbəb, ruh haqqında suallara cavab axtaran İslam fəlsəfəsi dünya fəlsəfəsində silinməz iz buraxmışdır.

İslamdan öncə ərəblər arasında fəlsəfi fikirlər demək olar ki, mövcud olmamışdır. Qədim yunan filosoflarının əsərlərinin tərcümə edilib yayılması sayəsində ərəblər fəlsəfə ilə tanış olmuş və İslam fəlsəfəsi formalaşmağa başlamışdır. Bu baxımdan, İslam fəlsəfəsi şəriətlə yanaşı, Platonun və Aristotelin də ideyalarını ehtiva etmiş, müsəlman filosoflar adıçəkilən və digər bir çox antik filosofların nəhəng irsindən bəhrələnmiş, bu ideyaları şəriətiə uyğun şəkildə izah etmişlər. "Çox vaxt orta əsrlər fəlsəfəsini Aristotel nüfuzunun bölünməz ağalığı sahəsi hesab edirlər. Bu, şübhəsiz doğrudur, lakin müəyyən hədd-hüdud daxilində. Hər şeydən əvvəl, Aristotel yeganə yunan filosofu idi ki, bütün əsərləri ərəb dilinə, sonralar isə latın dilinə tərcümə olunmuşdur" [1, s.194]. Ancaq VIII əsrdən etibarən formalaşmağa başlayan İslam fəlsəfəsi XVI əsrdən sonra müxtəlif səbəblərdən durğunluq dövrünə qədəm basmışdır. Bununla belə, İslamın qızıl dövrü kimi tanınan VIII-XIII əsrlərdə fəaliyyət göstərmiş bir çox düşüncə sahiblərinin dini-fəlsəfi irsini araşdırmaq, bu nəhəng irsə obyektiv qiymət vermək müasir dövr üçün aktual əhəmiyyət kəsb edir.

Antik fəlsəfənin İslam dünyasında yayılmasından sonra ortaya çıxan fəlsəfi məktəblərdən biri Şərq peripatetizmi olmuşdur. İslam mədəni bölgəsində bu məktəb "məşşailik" adı ilə məşhurlaşmışdır. Əsərləri ilə dünyaya böyük töhfələr verən Şərqin dahi filosofları məhz bu fəlsəfi məktəbin nümayəndəsi olmuşdur. Dövrün məşhur peripatetikləri Əbu Yusif Yaqub ibn İshaq ibn Səbbah əl-Kindi (801-873), Əbu Nəsr Məhəmməd ibn Məhəmməd ibn Tərxan ibn Uzlağ əl-Fərah əl-Farabi (870-950), Əbu Əli Hüseyn ibn Abdullah ibn Həsən ibn Əli İbn Sina (980-1037), Əbülhəsən Bəhmənyar ibn əl-Mərzban əl-Azərbaycani (993-1066), Əbu əl-Valid

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

Məhəmməd ibn Əhməd ibn Rüşd (1126-1198), Siracəddin Mahmud Əbubəkr oğlu Urməvi (1198-1283), Xacə Nəsirəddin Əbucəfər Məhəmməd ibn Məhəmməd ibn Həsən Tusi (1201-1274) kimi məşhur nümayəndələrinin adı dünya fəlsəfə tarixinə qızıl hərflərlə həkk olunmuşdur. “Şərq peripatetikləri Aristotelin elmlərin təsnifatı nəzəriyyəsinə əsaslanaraq, öz sələflərindən aldıqları fəlsəfəni nəzəri və əməli olmaqla iki hissəyə bölürdülər. Birinci hissəyə metafizika, təbiyyat və riyaziyyat, ikinci hissəyə isə etika, mənzil-məişət məsələləri və siyasət daxil edilirdi. Məntiqə gəldikdə, Şərq peripatetikləri onu gah fəlsəfənin nəzəri və əməli hissələrindən sonra üçüncü bir hissə zənn etmiş, gah da nəzəri hissənin tərkibinə salmışlar” [2, s.65].

Bu termin bilavasitə Aristotelin təlim-tədris metodikası ilə bağlıdır. Belə ki, Aristotel tələbələrinə dərs keçən zaman gəzintiyə üstünlük verirmiş. Bu tədris üsulu yunan dilində “peripatetikos” adlanırdı. Daha sonra isə filosofun tələbələri və onun fəlsəfi irsini davam etdirənlər bu nəzəri sistemi mənimsəyib, daha da inkişaf etdirərək peripatetizm fəlsəfi məktəbini formalaşdırmışlar.

Abbasilər sülaləsinin (750-950) hakimiyyəti dövründə müsəlman aləmində elm sahəsində canlanma müşahidə olundu. Abbasi xəlifəsi Məmun tərəfindən 832-ci ildə əsası qoyulan Dar-ül hikmət (Fəlsəfə Akademiyası) bu prosesə əsaslı şəkildə təsir göstərmiş, İslam fəlsəfəsinin formalaşmasına öz dəyərli töhfələrini vermişdir. Həmin dövrdən etibarən müsəlman alimləri fəlsəfə, riyaziyyat, fizika, siyasət, astronomiya, fiqh, təbabət və kimya kimi elmlərlə məşğul olmağa başlamışlar. İslam fəlsəfəsinin formalaşmasında Platonun kölgələr, yaxud ideyalar dünyasının, Aristotelin məntiq nəzəriyyəsinin xüsusi rolu vardır. Sözügedən filosofların metafizika, əxlaq və siyasət haqqındakı ideyaları da İslam mütəfəkkirləri tərəfindən qəbul olunmuş və mənimsənilmişdir. Şərq dünyasında “birinci müəllim” (müəllimi-əvvəl) kimi tanınan Aristotelin məntiq haqqında təliminin ehtiva olunduğu “Orqanon” əsərinə müsəlman filosoflar tərəfindən çoxlu şərhlər yazılmışdır. Bu baxımdan, bütün İslam filosofları məntiq sahəsində Aristotelin davamçılarıdır. Bununla yanaşı, onlar “birinci müəllim”in cövhər, araz, materiya, zaman, məkan və ağıl haqqında nəzəriyyələrindən də bəhrələnmişlər.

Məşşailik fəlsəfəsində metod kimi ağıl əsas götürülür, amma Quran və hədislərə qarşı laqeyd münasibət göstərilmirdi. Digər tərəfdən, Qəzali və Sührəvərdi kimi məşhur filosoflar məşşailik fəlsəfəsinə qarşı çıxmışlar. Aristotelin əsərlərinin tərcüməsi və şərhi sahəsində ciddi işlərə imza atan Əl-Kindinin İslam ideyaları ilə peripatetizmi uyğunlaşdırma cəhdləri sayəsində müsəlman aristotelizmi meydan gəlmişdir. Qərb dünyası isə Aristoteli İbn Rüşd sayəsində öyrənmişdir. Fərabi də fəlsəfə sahəsində gördüyü işlərə görə “müəllimi-səni”, yəni “ikinci müəllim” üvanını almışdır.

Şərq peripatetizminin qurucusu olmuş Əl-Kindi ilk ərəb filosofu kimi məşhurdur. Əl-Kindi fəlsəfəni insanın gücü nisbətində ümumi və sonsuz şeylərin varlığını, necə və nə qədər olduqlarını və hadisələrin səbəblərini araşdırması kimi xarakterizə edirdi. Məşşailik ideologiyasının banisinə görə, ən böyük və ən kamil filosof varlıqların ilk səbəbi olan Allah haqqında məlumata malik olan filosofdur. Onun fikrincə, insanın şəhvət gücü donuza, qəzəb gücü itə, ağıl gücü isə mələyə bənzəyir. Xeyirxahlığa çatmağın yolu qəzəb və şəhvət kimi maddi

həvəsləri öldürməkdən keçir. Beləliklə, insan bu üç xüsusiyyətdən birinin daha fəal olmasına görə donuz, it və ya mələk təbiətinə yaxınlaşır.

"Kindi "biliyi" insanın elm və təhsil vasitəsilə təkmilləşmək cəhdini təcəssüm etdirən anlayış hesab edirdi. O, "bəşəri bilikləri" "ilahi biliklərdən" fərqləndirərək yazırdı ki, Allah öz bildiklərini yalnız peyğəmbərlərə öyrədir. İlahi bilik Allah elçilərinin nəsibidir, bu bilik onları daxilən təmizləyir, qəlblərinə nur saçır və ali varlıqlara çevirir. İnsanlar öz təbiətinə görə bu cür bilik əldə etməyə qabil deyillər. Onların bilik əldə etməsi üçün araşdırmalar və vaxt lazımdır" [3, s.63]. Filosofun tədris və təhsil haqqında, xüsusilə də fəlsəfə öyrənmək istəyən şəxslərə özünəməxsus metodla belə bir tövsiyəsi olmuşdur: "Üstün zəka, səbr, qabiliyyət, yaradıcılıq və işinə davamlı olaraq zaman ayırmaq" [4, s.16].

Şərq peripatetizminin inkişafında Əl-Fərabinin də böyük xidmətləri olmuşdur. Onun ortaya qoyduğu fəlsəfi sistem aristotelizmin, həmçinin neo-platonizmin ideyalarına yaxın idi. Filosofun fikrincə, zəruri mahiyyətə malik olan Allah gerçəklikdəki hər cür hərəkətin əsasıdır. Fəlsəfəsinin ən önəmli qismini isə məntiq haqqında önə sürdüyü ideyalar təşkil edirdi. Fərabi hesab edirdi ki, varlıqlar dünyası ilə ideyalar dünyası arasında harmoniya vardır və bu harmoniyanı anlamaq üçün məntiq təhsili almaq lazımdır. İnsana xas olan yaxşı əməllərin başında ağıl dayandığına görə məntiq sənəti də ağlın düzgün işləməsini təmin edən vasitədir. Aristotelə görə, məntiq informasiya əldə etməyin vasitəsidirsə, Əl-Fərabinin fikrincə, məntiq həm sənət, həm də elmdir. Məntiq ilə dil arasında çox yaxın əlaqə vardır. Belə ki, məntiq təfəkkürün universal qaydalarını, elm isə dilə məxsus qaydaları müəyyən edir. Eyni zamanda məntiqin riyaziyyat və həndəsə ilə də yaxın əlaqəsi vardır. Buna görə də məntiq öyrənmək istəyənlər ilk növbədə həndəsə öyrənməlidirlər. Əl-Fərabinin kəlam alimləri üzərindəki təsiri də böyükdür. Məşhur müsəlman ilahiyyatçısı Əbu Həmid əl-Qəzali Fərabi və İbn Sinanı tənqid etsə də, bir sıra sahələrdə onlardan təsirlənmişdir.

Peripatetiklərin digər nümayəndəsi İbn Sinaya görə, varlıq özündən başqa bir şeylə açıqlana bilməz, çünki onun özündən daha yaxşı məlum olan hansısa bir anlayış yoxdur. Əsas mövzusu varlıq olan metafizika isə nəzəri hikmətin ən yüksək məlumatlarını əhatə edir. "İbn Sinaya görə, cisimlər sonsuz sayda xırda hissələrə bölünə bilir. O, atomizmi qəbul etmirdi. Onun fikrincə, bədən öləndə ruh dəyişmir, dəyişməz şəkildə yaşayır. Ruh bədənin ağasıdır, bədən onun əlində bir alətdir. Filosofa görə, varlığın üç pilləsi vardır: 1) mümkün olan varlıq aləmi (maddi aləm); 2) vacib və mümkün varlığın qarışığı (mələklər və səma aləmi); 3) öz-özünə zəruri olan ilahi aləm. Onun fikrincə, bütün mövcudatın ilk səbəbi tək olan Allahdır. Hər bir yaxşı və ya pis iş yalnız Allahın işidir. O, əxlaq məsələlərinə geniş yer verirdi. Göstərirdi ki, xeyir və şər əməllər də Allahdan irəli gəlir. Allah insanları şərdən qoruyan əsas qüvvədir. Həyatda şər əməllərdən xilas olub, xeyrə qovuşmaq üçün ilahi aləmə bağlanmaq lazımdır. Bu, səadət əldə etməyin əsl yoludur. Onun fikrincə, Allah insanlara xeyir və şəri seçməkdə iradə azadlığı verir və xeyri seçənlərə kömək edir. İbn Sina dinə yaxın filosof olmuşdur, din ilə fəlsəfənin müqayisəsində birinciyə üstünlük vermişdir. Onun fikrincə, iman əqli tamamlayır, o, əqlin kamalıdır" [5, s.58].

İbn Sinanın varlıq haqqındakı fikirləri orjinal olması ilə diqqəti cəlb edir. Filosof hesab edir ki, varlıq boşluqda mükəmməl şəkildə yaradılmışdır, ancaq bütün duyğularından təmizlənmişdir. Mahiyyət və varlığın bir-birindən ayrı olması ideyası İbn Sina ontologiyasının əsasını təşkil edir. Mümkün varlıqlarda əvvəl mahiyyət olur, varlıq isə sonradan ortaya çıxır. Lakin Tanrıda mahiyyət olmadığı üçün belə bir ayrı-seçkilik də yoxdur. O, sırf varlıqdır, məcburi varlıqdır. İnsana ülvi aləmdən göndərilən ruh mənəvi bir cövhərdir. Ruh bədəndən öncə mövcud ola bilməz və bədənlə birlikdə mövcuddur, lakin ruh bədən məhv olduqdan sonra müstəqil şəkildə mövcud olur. Gerçəklikdə hər şeyin mövcud ola bilməsi üçün maddəyə və surətə ehtiyacı vardır. Ruh nəbati, heyvani və insani ruh şəklində təzahür edə bilər. İnsanda həm nəbati, həm heyvani, həm də insani ruh olur. Allahın yaratması bənzəri olmayan bir yaratmadır, başqa sözlə ibdaidir. Bu qəbildən olan yaratma sevgi, bilgi və düşüncə ilə reallaşır.

Metafizika peripatetizm sistemində mühüm yer tutduğundan orta əsrlərdə filosofları qruplara bölərkən Şərq peripatetiklərini metafizik filosoflar kimi səciyyələndirmişlər. O dövr filosoflarının və fəlsəfə tarixçilərinin əsərlərində metafizika mütləq varlıq haqqında elm kimi təqdim edilmişdir. İbn Sina metafizikanın ali elm adlandırıldığını qeyd edərkən göstərmişdir ki, burada araşdırılan şeylərin mövcudluğu hissi onların materiyası ilə bağlı deyildir. Belə ki, onları materiyasız və hərəkətsiz təsəvvürə gətirirlər, məsələn, əql, varlıq, vəhdət, səbəbiyyət əlaqəsi və s. İbn Sinanın fikrincə, ali elmin mövzusu ayrı-ayrı şeylər deyil, məhz mütləq varlıqdır.

İbn Sinanın şagirdi olmuş məşhur Azərbaycan filosofu Əbülhəsən Bəhmənyarın fəlsəfi fikirləri də Şərq peripatetizminin mütərəqqi ənənələrinə mütabiq idi. “Bəhmənyarın varlıq təlimində mərtəbələrdən ibarət bütün mövcudat vacib və mümkün olmaqla iki qismə bölünür və bunlar səbəb ilə nəticə timsalında araşdırılır. Filosof səbəbin məhz nəticəyə səbəb olduğunu yazır. Bəhmənyar səbəbiyyət haqqında təlimi ilə sxolastların kreatsionizm nəzəriyyəsini təkzib edirdi. Bəhmənyara görə aləm ilk səbəbdən heç bir boşluq vasitəsilə ayrılmır və əsla aradan qaldırıla bilməz” [6, s.58].

Azərbaycan fəlsəfi fikrinin banisi sayılan Bəhmənyara görə, metafizika elminin mətləblərini təşkil edən şərtsiz varlıqla əlaqədar olan şeylər mövcudat üçün ya növlər, ya da aksidensiyalar kimidir. Bəhmənyarın metafizikasında “varlıq”, “substansiya”, “aksidensiya”, “cisim”, “materiya” və “bütün elmlərin möhtac olduğu müqəddimələr” araşdırılır. Şərq peripatetizmində “aşağı elm” – “təbiyyat” (“ət-təbiyyat”, yaxud “əl-elm ət-təbii”, yaxud da “elm ət-təbiə”) termini Aristotel fəlsəfəsindəki “fizika” terminınə mütabiqdir. “Birinci müəllim”in fizikası hərəkət edən varlıq haqqında və əsas etibarilə materiyadan ayrı mövcud olmayıb, tərif verilə bilən mahiyyət haqqında elmdir. İbn Sina buna uyğun olaraq “Bilik kitabı” əsərində yazır: “Fizika elə hallar haqqında elmdir ki, onların təsəvvürü materiyadan ayrılmazdır. Bu elmin mövzusu hissi cisimdir”. Aristotelin təlimində olduğu kimi, ərəbdilli peripatetiklərin yaradıcılığında da fizika sözün ən geniş mənasında bütün təbiət elmlərini, təbiətşünaslığın fəlsəfi məsələlərini ifadə edir.

Bəhmənyar polemik məktublarından birində fəlsəfi fənlərin İbn Sina tərəfindən verilmiş təsnifatına tənqidi yanaşmışdır. O yazırdı: “Cənabımız Şeyx Rəis İbn Sinanın təbirincə, fəlsəfə

nəzəri fəlsəfəni və əməli fəlsəfəni özündə birləşdirir. Onun fikrincə, əməli fəlsəfədə də nəzər və idrak vardır. Deməli, onların hər ikisinin qayəsi idrakdır".

Filosof öz müəlliminə etiraz edərək bildirirdi ki, əməli fəlsəfə əməldir, nəzər deyildir. Bu məsələdə əvvəlki və sonrakı filosoflar da həmrəydirlər.

Əməli fəlsəfəni həm əxlaqi xeyirxahlıq, həm də onu öyrənən elm sayan İbn Sinadan fərqli olaraq, Bəhmənyar yalnız əxlaqi xeyirxahlıq mənasında şərh edirdi.

Təbiət elmləri ilə bilavasitə qaynayıb-qarışdığı üçün peripatetik fəlsəfə gerçək həyatla daha yaxından bağlı idi.

Qərb dünyasında Averroes kimi məşhurlaşan İbn Rüşdün irəli sürdüyü ideyalar da Şərq peripatetizminin inkişafına öz dəyərli töhfələrini vermişdir. İbn Rüşdə görə, fəlsəfənin əsas qayəsi mövcudatı anlamaq və ona dəlalət cəhətdən nəzər yetirməkdən ibarətdir. Filosof hesab edir ki, rasional olmayan heç bir şey dini ola bilməz. Allahın varlığı üçün iki əsas dəlil vardır: inayət dəlili və ixtira dəlili. İnayət dəlili məqsəd və qayə ilə, ixtira dəlili isə yaradılma ilə xarakterizə edilir. Maddi dünyanın əbədiliyi ideyasını qəbul edən İbn Rüşd axirət dünyasının mövcud olması fikri ilə razılaşmırdı.

Azərbaycan filosofu Siracəddin Urməvi də Şərq peripatetizmi mövqeyindən çıxış edirdi. "O, «varlığı» onun ziddi olan «yoxluq» anlayışı ilə qarşılıqlı götürmüş və onları üç hissə halında qruplaşdırmışdır: 1) vacib varlıq - qeyri-mümkün yoxluq; 2) vacib yoxluq - qeyri-mümkün varlıq; 3) mümkün varlıq - mümkün yoxluq. Urməvi vacib varlığı mümkün varlığın ilk səbəbi timsalında götürürdü. O, səbəb və nəticəni əzəli və əbədi hesab edirdi. Başqa peripatetiklər kimi, Urməvi də idrak prosesinin hissi və əqli olaraq iki mərhələdən keçdiyini göstərirdi. Urməvi özünün məntiq sahəsində tədqiqatlarında Aristotelin və onun Şərq davamçılarının araşdırmalarına əsaslanırdı. O da məntiqi elmi tədqiqatın silahı (metodu) hesab edirdi. S.Urməvi Aristotel kimi, özünün sosial-siyasi baxışlarında mötədillik prinsipini əsas götürür, ifrata varmağı orta həddə - ədalətə qarşı qoyurdu. O, hesab edirdi ki, haqq-ədalət işi hər şeydən üstündür. Ədalət bolluq və firavanlıq rəhni olduğu kimi, onun yoxluğu da fəsadlığın səbəbidir" [7, s.113-114].

Siracəddin Urməvi kosmoqonik baxışlarına görə geosentrik təlimin tərəfdarı idi. Hesab edirdi ki, səbəbiyyət mahiyyət etibarilə obyektiv məzmun daşıyır. Varlığın həm vacib, həm də mümkün varlıq formaları zaman baxımından əbədidir. İnsan idrak qabiliyyətinə malik olduğu üçün mümkün varlıqların içərisində önəmli mövqeyə malikdir.

Bəzi mənbələrdə haqqında "üçüncü müəllim" deyə bəhs edilən digər Azərbaycan filosofu Nəsirəddin Tusi Şərq peripatetizmin məşhur nümayəndələrindən biri olmuşdur. XIII əsrdə ensiklopedik yaradıcılığı ilə diqqət çəkən N.Tusi də gerçəkliyin zəruri və mümkün varlıqdan ibarət olmasına inam bəsləmişdir. Nəsirəddin Tusinin qənaətincə, cisimlərin təməlində od, su, torpaq və hava kimi dörd əsas ünsür dayanmışdır və bu ünsürlər materiya ilə formanın vəhdəti sayəsində bərqərar olmuşdur. Materiya və formanın birlikdə mövcud olması "cisim" adlı məfhumun ortaya çıxmasına səbəb olmuşdur. O, cisimləri müxtəlif qruplara bölərək, hər qrup barəsində öz mülahizələrini qeyd etmişdir. Tusi sadə cisimlərin quruluşu barədə dörd

konsepsiyanın mövcudluğunu xatırlayıb, sonuncunu öz dünyagörüşünə uyğun bilib, peripatetik əsaslarla təhlil etmişdir" [8, s.65-66].

Göründüyü kimi, Şərq peripatetizmi nümayəndələrinin yaratdığı elm, tədris və təhsil metodikası və bu metodlar sayəsindəki elmi nailiyyətlər təkcə müsəlman Şərqində deyil, dünya fəlsəfə tarixində böyük əks-səda doğurmuşdur.

# ƏDƏBİYYAT


1. Şükürov A. Şərq fəlsəfəsi və filosofları. Bakı: 2005.
2. Məmmədov Z. Azərbaycan fəlsəfə tarixi. Bakı: "Şərq-Qərb", 2006.
3. Mehdiyev R. Fəlsəfə. Dərs vəsaiti. Bakı: "Şərq-Qərb", 2010.
4. Diyanet ilmi dergi. Kindi (özel sayı), cilt: 54, say: 2, nisan-mayıs-haziran 2018.
5. Hacıyev Z. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı: "Turan evi" nəşriyyatı, 2012.
6. Fəlsəfə ensiklopedik lüğəti. Bakı: NPB, 1997.
7. Rüstəmov Y. Fəlsəfənin əsasları (mühazirə kursu). Bakı: "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2007.
8. Abbasov N., Həsənov R. Nəsirəddin Tusinin müdriklik fəlsəfəsi. Bakı: 2012.

Айгюн Кяримова

## ПОЗИЦИЯ ВОСТОЧНОГО ПЕРИПАТЕТИЗМА В ИСЛАМСКОЙ ФИЛОСОФИИ

РЕЗЮМЕ

Исследование религиозно-философского наследия многих мыслителей VIII-XIII веков, известного как золотой век ислама, и объективная оценка этого гигантского наследия имеет первостепенное значение для современной эпохи. Имена представителей восточных перипатетиков, известных в мусульманском мире как мешшаизм (машшаиййа), отмечены золотыми буквами в истории мировой философии.

Гигантское философское наследие, созданное представителями восточного перипатетизма, занимает важное место не только на мусульманском Востоке, но и в истории мировой философии. Радует тот факт, что среди известных представителей восточного перипатетизма также есть имена мыслителей Азербайджана. Наше поколение также несет ответственность за тщательное изучение этого философского наследия и представление этого философского наследия мировому сообществу.

Aygun Karimova

## PLACE OF EASTERN PERIPATETICISM IN ISLAMIC PHILOSOPHY

SUMMARY

The study of the religious and philosophical heritage of many thinkers of the 8th-13th centuries, known as the Islamic Golden Age, and an objective assessment of this giant heritage are of utmost importance for the modern era. The names of the representatives of the eastern peripatetics, known in the Muslim world as Meshshayism (Mashshaiya), are in fact marked with golden letters in the history of world philosophy.

The giant philosophical heritage created by representatives of Eastern peripateticism occupies an important place not only in the Muslim East, but also in the history of the world philosophy. It is heartening to note that among well-known representatives of Eastern peripateticism there are also names of the Azerbaijani thinkers. Our generation is also responsible for the careful study of this philosophical heritage and for its presentation to the world community.

# YƏHUDİ VƏ İSLAM HÜQUQUNDA HİYLƏYİ-ŞƏRİYYƏ

***Aliyə MÜRSƏLOVA,***
*BDU-nun İlahiyyat fakültəsinin sabiq doktorantı,*
*aliyatagiyeva@yahoo.com*

***AÇAR SÖZLƏR:*** *hiylə, hiyləyi-şəriyyə, hüquqi fiksiya/fənd, aaramot, şəriət, qanundan yayınma.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *фикция, юридические уловки, юридическая беллетристика, аарамот, Шариат, обход закона.*
***KEY VORDS:*** *trickery, legal subterfuges, legal trickery/fraud, aaramot, Sharia, evasion of law.*

## GİRİŞ

İnsan ictimai varlıq olduğuna görə cəmiyyət içərisində yaşamaq məcburiyyətindədir, bunu sivil şəkildə edə bilmək üçün isə müəyyən qaydalara tabe olmalıdır. Hər cəmiyyətdə tabe olunması vacib hökmlər mövcuddur, onların pozulması isə cəza ilə nəticələnir. Lakin cəmiyyətin təyin etdiyi qaydaların elmi, mədəni və ya mənəvi faktorların təsiri ilə dəyişməsi nəticəsində bəzi insanlar müəyyən şəraitlərdə həyatlarını asanlaşdırmaq üçün və cəzadan qaçmaq məqsədi ilə qanuna qarşı hiylədən istifadə edirlər [1, s.231-232]. Bir sıra hüquq sistemlərində analoji məhdudiyyətlər qanunlardakı boşluqlardan istifadə edərək və müxtəlif çarələrə əl ataraq sərfəli olmayan qanunlardan yayınmaq məcburiyyətini əmələ gətirir. Qanuni yolla istəyə nail ola bilmədikdə, eyni zamanda qanunu adi üsulla dəyişdirmək iqtidarında olmadıqda, adətən, hüquqi fiksiyalara/fəndlərə üz tutulur.

Bu məqalədə yəhudi və İslam şəriətində hüququn qoyduğu qaydalardan yayınmaq üçün fəqihlərin hansı şəraitdə hansı üsullardan necə istifadə etdiyini araşdırmağa çalışmışıq. Bizi maraqlandıran hissə bu şəraitlərin necə yaranması, hiylədən istifadənin caiz, məkruh və ya haram olmasını araşdırmaqdır. Qeyd edək ki, hiyləyi-şəriyyə hüquqi məsələ olmaqdan daha çox, ictimai problem olub yalnız sxolastik və nəzəri olaraq hüquqi üsulla həll edilə bilməz [2, s.188; 2, s.87]. Qanunların məna və məqsədlərini anlamaq üçün mətnləri hərfi mənada deyil, təfsirləri ilə birlikdə düşünmək lazımdır.

Latın dilindən tərcümədə fiksiya (fictio) "təxəyyül, uydurma" mənalarını verir [3, s.3]. Termin mənasını isə ilk dəfə XVIII əsr alman filosofu Hans Fayxinger verməyə çalışmışdır [3, s.45]. Onun qneseoloji teoriyasına görə, fiksiya tədqiqat nəticələrinin əks təsirinin mənfi tərəfi deyil, əksinə, onun müsbət tərəfi olub şüurlu şəkildə tətbiq metodudur. Təcrübədə fiksiyanın faydası bizi motivasiya edir və ya arqument yaradır ki, bu da axtarılan nəticə üçün müsbət effektə gətirib çıxarsın [3, s.4]. Fiksiyalar insan ağlı ilə bağlı olub onun müasir dövrdə həyatını asanlaşdırmaq məqsədini daşıdığı üçün mənfi hal hesab edilə bilməz.

“Hiylə” sözünün lüğəvi mənası isə “çarə, məharət, yaxşı fikirləşmək, diqqətli düşünmə bacarığı”dır [2, s.281; 4, s.204; 5, s.71]. Qurani-Kərimdə “hiylə” sözü “ən-Nisa” surəsinin 98-ci ayəsində “hilətən” şəklində “çarə” **“Yalnız hicrət etməyə yol və çarə tapmağa qadir olmayan aciz kişi, qadın və uşaqlar müstəsnadır”**, “ət-Talaq” surəsinin 2-ci ayəsində “məxracən” şəklində “çıxış yolu” mənasında **“...Kim Allahdan qorxsa, Allah ona (hər çətinlikdən) bir çıxış yolu əta edər”** istifadə olunmuşdur.

Termin olaraq isə hiylə “məqsədə çatanadək fikir dəyişmə” [6, s.406], “gizli yolla məqsədə çatdıran vasitə” [7, c.XXIV, s.108] “məşru sahədə hər hansı üsulla hökmü başqa şəklə salmaq” [8, s.294], “şəkil baxımından hüquqa uyğun bir hökmü vasitə edərək qadağan olunmuş nəticəni əldə etmək məqsədi ilə görülən iş” [9, s.21] kimi tərif edilir. Fiksiyalar/fəndlər hüquq sistemində heç vaxt birmənalı qarşılanmamışdır. Mövcud qanunlardan yayınmaq üçün onlardan istifadə etməyin lehinə və əleyhinə olan bir sıra baxış var. Lakin nəzərə almaq lazımdır ki, müasir dövrdə elmin və texnikanın inkişaf etməsi ilə hüququn da dinamikliyini və elastikliyini məhz bu fiksiyalar/fəndlər artırır.

## Yəhudi hüququnda hiylə - aaramot

Müasir ortodoksal yəhudilikdə hüquq sisteminin (Alaha) [10, s.26] mənbələri Tanah (yazılı Tövrat) və Talmud (şifahi Tövrat) sayılır. Bunların tərkibində çoxlu sayda hüquqi hiylə mövcuddur [3, s.37]. Talmudda tez-tez rast gələnən aarama/aaramot, bir növ, hüquqi fiksiyanı/fəndi xatırladır. Aarama qanunda yaranan boşluğu atlamaq və ya gizlətmək üçün deyil, tam əksinə, qanunun ləğvi və ya pozulması zamanı onu qorumaq məqsədini daşıyır. Bundan əlavə, qanundan yayınmanın cəzasından qaçmaq üçün qanunun statusunun dəyişdirilməsi onun cəzasını azaltmağa kömək edir [11, s.9].

Yəhudi qanunlarında yayınma metodlarını üç yerə bölmək olar [12, s.41]:

1. Qanuniləşdirilmiş – din xadimləri tərəfindən qanundan yayınmağa icazə üsulu. Buna Yəhudiliyin ilk dövrlərində rast gəlinir və “pikuax nefeş” (həyatı xilas etmək) adlanır;
2. Məcburi – dövlətin siyasəti və ya tarixi vəziyyət imkan vermədikdə yəhudi adətlərini qoruyub saxlamaq məqsədini daşıyan üsul. Bu üsul II Dünya müharibəsi və ondan sonrakı dövrə aiddir;
3. Milli – xalqın adət-ənənələrinə əsaslanan üsul.

Birinci üsul ən çox Şabat günü və həmin gün mövcud olan çoxsaylı qadağalardan yayınmaq üçün istifadə olunur. Onlardan biri həmin gün görüləcək işlərin sağ yox, sol əl ilə edilməsi tələbidir [12, s.42]. Bundan başqa, Tövrata görə, Yom-tov günü heyvanın özünü və onun nəslini bir gündə kəsmək qadağandır. Belə rəvayət olunur ki, bir gün quyuya ana və bala heyvan düşür, onları eyni anda çıxarıb kəsmək qeyri-mümkün olduğuna görə hiylə işlədib kəsmək niyyəti ilə birini çıxarıb, həmin niyyətdən imtina edərək kəsməyib, ikincisini çıxarıb kəsmək olar [3, s.37, 46]. Yaxud da Tövratda insan surətinin qələmə alınmasının qadağan edilməsinə [Tövrat, Çıxış, 20:3] baxmayaraq, yəhudi incəsənətində bir çox məşhur ravvinin portretləri və ya dini personajların şəkilləri mövcuddur. Bunu insan üzünün anfasdan (öndən tam

şəkildə) çəkilməsinin qadağan edildiyi, lakin profildən çəkilməsi haqqında belə bir qadağanın mövcud olmaması ilə izah edirlər [12, s.43].

Digər bir nümunə, "Hilelin prozbolu" haqqındadır. Talmudda deyilir: "Şmit ilində (hər yeddi ildən bir) bütün borclar silinməlidir" [Tövrat, Qanunun təkrarı, 15:2]. Borcların silinməsini istəməyən yəhudilər ehtiyacı olanlara pul borc vermirdilər. Hilel isə prozbol əqdini yaradır. Həmin əqdi kreditor bağlayır və o, öz borcunu ravvinlərin məhkəməsinə ötürür ki, artıq onlar bu borcu yığmaqla məsul olurlar. Prozbol əqdi sayəsində Şmit ilində borclar silinməzdi. Hilel ravvin məhkəməsinin mülkün ekspropriasiya (müsadirə etmək) hüququnu borclar hüququnda istifadə etmişdir.

Lakin aarama təkcə qanunu qorumaq məqsədi daşımır. Həmçinin mövcud olan qanunu saxlamaq və pozmamaq şərti ilə onun tətbiqini modifikasiya etmək (dəyişdirmək) məqsədi güdür. Buna nümunə olaraq torpaq sahəsi (2400 $m^2$ = 1.4 ha) haqqında qanunu göstərə bilərik. Talmudda deyilir ki, həmin torpaq sahəsindəki məhsulun zəkatı onun toplanıb şəhərin əsas girişində ölçülməsindən sonra verilir [Tövrat, Sayılar, 18:11–23]. Zəkatı vermək istəməyənlər ya həmin məhsulu tam yox, hissə-hissə gətirərək ölçdürür, ya da əsas girişdən gətirməməklə qanundan yayınırdılar.

Aaramot ilə bağlı nümunələrdən biri də xametsin (qıcqırma prosesi ilə bişirilmiş çörəyin) Pesax bayramında yəhudilərdən alına bilinməməsi qadağasıdır [Tövrat, Qanunun təkrarı, 16:3]. Yəhudilər hiylə işlədərək həmin çörəyi bayramdan əvvəl qeyri-yəhudiyə satıb, bayram günü ondan alırlar, çünki Tövratda həmin çörəyi qeyri-yəhudidən almaq barədə heç bir qadağa yoxdur. Həmçinin kaşer qanunları ilə hazırlanmayan dərmanlardan istifadə etmək də aaramota nümunə göstərilə bilər [13, s.31-32].

Ortodoksal yəhudilikdə ərin qadına boşanma sənədi olaraq bilinən və Tövratda adı keçən "qet" əqdi mövcuddur [Tövrat, Qanunun təkrarı, 24:1-2]. Bu əqd olmadan bir qadın ərindən boşanmış sayılmaz və yeni ailə qura bilməz. Kişilər bəzən bu sənədi verməməklə, gecikdirməklə və ya pul müqabilində imzalayacaqlarını bildirirlər. 90-cı illərin əvvəlində bu ədalətsizliyin qarşısını almaq üçün məşhur ABŞ ravvin məhkəməsi "Beyt-din" aaramadan istifadə edərək adı çəkilən əqdə qanun əlavə etmişdir. Boşanmadan sonra ər qadına "qet" sənədini verməyib yubatdığı hər günə görə 150 amerikan dolları həcmində təzminat ödəməlidir.

Şənbə günü ilə bağlı bir sıra aaramot mövcuddur. Məsələn, şənbə günü başladığı andan alov yandıran və ya odun doğrayan böyük günaha girmiş sayılır. Ona görə də şənbə günü hər növ işdən qaçmaq üçün ən rahat çıxış yolu xüsusi təyinatlı qeyri-yəhudi işçi – şabesqoy [14] işə götürüb bütün işləri ona gördürməkdir. Lakin bu zaman da xırda bir nüans ortaya çıxır. Həmin işçiyə əmr vermək qadağandır, yalnız görüləcək işə işarə etmək lazımdır ki, qalanını özü başa düşsün. Şənbə günü qadağasını poza biləcək həkim və polis işçilərini də qeyd etmək lazımdır. Onların işindən insanların həyatları asılı olduğuna görə bu istisna hal sayılır, çünki insanın həyatını xilas etmək şənbə günü qadağasından daha fəzilətlidir. Ravvin Şimon ben Qamliel Tövrata istinad edərək deyir: "Bir gün yaşı olan yeni doğulmuş uşağa görə şənbə gününü pozurlar, lakin Davud peyğəmbərə görə pozmurlar" [13, s.3] Bunun başqa, bir dəlili

isə belədir: “Yaxud Tövratda oxumamısınız ki, şənbə günləri kahinlər məbəddə şənbə gününü pozurlar, amma günahkar sayılmırlar? Bunu bilin ki, burada məbəddən də böyük bir adam durub” [Tövrat, Mətta, 12:05-06], “Orada əli qurumuş bir adam vardı. İsanı təqsirləndirməyə bir bəhanə tapmaq üçün ondan soruşdular: “Qanuna görə, şənbə günü adam sağaltmaq olar?” İsa onlara cavab verdi: “Aranızda elə adam varmı ki, bircə qoyunu olsa və həmin qoyun şənbə günü çalaya düşsə, onu oradan çıxarmasın? Amma gör insan qoyundan nə qədər qiymətlidir! Bəli, qanuna görə şənbə günü savab iş görmək olar” [Tövrat, Mətta, 12:10-12].

İkinci üsula mezuzanın (kiçik dua kitabçası) qapının üstündə saxlanmasını nümunə göstərə bilərik. Mezuza xüsusi mürəkkəblə çox bahalı perqament üzərində yazılır, lakin qıtlıq və müharibə dövrlərində onu əldə etmək çox çətin olurdu. Ona görə də onun əvəzinə adi kağızda “Sidura” duaları yazılırdı. Və ya kollektiv dua oxuma zamanı minyan toplamaq lazım olduqda 10 yəhudi kişinin əvəzinə qadınlar, uşaqlar və hətta qeyri-yəhudilər toplanırdı. Dəfn olunmağa gəlincə, yaşadığı dövlətin adətlərinə görə ölən şəxsə adi paltar geyindirmək icazəsi vardı. Amma həmin paltarın altından taxrixim (xüsusi dəfn paltarı) geyindirilirdi [12, s.44]. Digər bir nümunə Tövratın əsas 613 qanunundan biri olan faizsiz kreditlə bağlıdır [Tövrat, Çıxış, 22:24, Lavililər, 25:35-36]. Lakin eter-isk əqdi indiki dövrdə öz pulunu sığortalamaq üçün bir yəhudiyə digər yəhudiyə krediti faizlə vermək imkanı verir. Eter-isk əqdi II Dünya müharibəsindən sonra yəhudilərin öz bizneslərini qura bilmələri üçün alimlər tərəfindən yaradılmışdır. Bu əqdə görə, ayrılan pulun yarısı kredit, yarısı isə biznesə investisiya kimi qiymətləndirilir və həmin müddətdə ondan qazanmaq imkanı yaranır [15, s.6].

Üçüncü üsula qəbir ziyarəti zamanı yalnız bir qohumun qəbrini ziyarət etməyin mümkün olduğunu, o biri qəbirlərə yaxınlaşmağın isə qadağan edildiyini nümunə göstərmək olar. Bu qadağadan yayınmaq məqsədi ilə qəbiristanldan çıxıb yenidən girmək lazımdır. Ancaq bu halda digər qəbirə yaxınlaşmaq olur [12, s.48-49]. Bundan başqa, matəmin 7 günü ölənin ailə üzvlərinin ayaqyalın gəzməsi qaydasından yayınmaq məqsədi ilə ayaqqabının içinə qum tökərək gəzirlər [12, s.50].

## İslam hüququnda hiylə - hiyləyi-şəriyyə

İslam dini Allah-Təala tərəfindən Cəbrail vasitəsilə Məhəmməd peyğəmbərə (s) endirildiyindən orada mövcud olan qanun-qaydalar doqma sayılır və bəziləri insan ağlı ilə dərk olunmasa da, onları dəyişdirmək qeyri-mümkündür. Belə şəraitdə şəriət məhkəmələrində hakimlərin vəzifəsi dini-hüquqi normaları pozmadan hüquqi fiksiyalar/fəndlər vasitəsi ilə arzu olunan nəticəyə gətirib çıxartmaqdır [3, s.47].

İslam dinində mövcud olan hiyləyi-şəriyyə hüquq sistemlərində olan qanundan yayınma yollarından [2, s.22-23] fərqlənir. Qanundan yayınma fərdin mövcud nizamnaməyə qarşı çıxmasıdır. Hiyləyi-şəriyyə isə problemi həll etmək üçün bir qanunun başqa qanunla əvəz olunmasıdır, eyni hüququn nizamlanması baxımından başqa bir üsul ilə yeni çarə tapılmasıdır. Qanundan yayınmada fərd özü hüquq sistemindəki boşluqlardan istifadə edərək nizamnaməni aldatmağa çalışır, hiyləyi-şəriyyədə isə hakim və qazılar (əhliyyət sahiblərinin) şəri ölçülər

daxilində çıxış yolu üçün digər üsulla fətva verir [5, s.87-88]. İslam şəriətinə xas hiyləyi-şəriyyə məfhumu ilahi qadağaları pozmadan qanundan yan keçmək üçün istifadə olunan hüquqi fənddir [16, s.146]. Hiyləyi-şəriyyənin terminoloji mənasını Yozef Şaht belə açıqlayır: "Hiyləyi-şəriyyə İslam şəriətinin ayrılmaz hissəsini təşkil edən hüquqi fənddir, hansı ki, qanuni üsullardan istifadə edərək qanunsuz nəticələr əldə etmək üçündür, yəni istər qanuni olsun, istər olmasın, şəriətin məşru gördüyü vasitələrlə əldə edə biləcəyi üsullardır [17, s.511]. İslam dinində hiyləyi-şəriyyəni hüquqi əsas kimi daha çox hənəfilər istifadə edir [18, s.148]. Şafei məzhəbi hiyləni məkruh qəbul edir, maliki məzhəbi mötədil yol seçir, hənbəli məzhəbi isə hiyləyə qarşı çıxaraq onu batil sayırlar" [5, s.88; 19, s.165-170; 20, s.235-237].

İslam fiqhində hiyləyi-şəriyyənin meydana gəlməsi Abbasilər dövründə xalqın istəmədiyi hökmdarlara beyət etməsi, imanın zəifləməsi, yeni ehtiyacların yaranması ilə ictihad müəssisəsinin istənilən qaydada işləməməsi və əcnəbi mədəniyyətlərin təsiri altına düşmə ilə əlaqədardır [21, c.XVIII, s.174]. Bəzi hüquqçulara görə, hiylənin yaranması tabiun nəslinin son dövrlərinə təsadüf edir [22, s.167], digər fəqihlər isə məsələni Əbu Hənifə ilə əlaqələndirir, lakin bu fikir ixtilaflıdır [1, s.151; 20, s.238].

XIV əsrdə yaşamış məşhur müfəssir və fəqih İbn Qayyim əl-Cövziyyə hiyləni 3 yerə ayırmışdır [23, c.I, s.384]:

1. Halal hiylə - Allahın əmrlərinə tabe olunduğu zaman yaranan;
2. Halal hiylə - edib-edilməməsi günah sayılmayan;
3. Haram hiylə - Allahı və Peyğəmbərini (s) aldatmaq niyyətində olduqda, Onun əmrlərinə tabe olmaq istənilmədiyi zaman yaranan və haramı halal edən.

İslam hüququnda hiyləyi-şəriyyə daha çox kölə azad etmə, evlənmə-boşanma və and içmə ilə əlaqəli hökmlərdə istifadə olunmuşdur [22, s.207] və dörd növü mövcuddur [21, c.XVIII, s.170]:

1. Məşru yolla məşru nəticə əldə etmək – nikah, boşanma [2, s.286], alış-veriş, icazələr;
2. Qeyri-məşru üsulla qeyri-məşru nəticə əldə etmək – namaz qılmamaq üçün sərxoş olmaq;
3. Qeyri-məşru üsulla məşru nəticə əldə etmək – başqasının bıçağını oğurlayıb öz heyvanını kəsmək, boşanan qadının keçmiş həyat yoldaşına halal ola bilməsi üçün başqa bir kişi ilə yalan evlilik əqdi/cali ilə evlənməsi;
4. Məşru vasitələrlə qeyri-məşru nəticə əldə etmək – Beynul-inə, təvərrüq, mürabəhə, sukuk, hüllə [2, s.288; 20, s.228].

Hiyləyi-şəriəyyəyə aid nümunələr:

Qadağan olunmuş (haram) hiyləyə zövcəsini boşamaq istəyən kişinin onun iddət müddətini uzatmaq məqsədi ilə hər dəfə müddətin sonunda [24, "Bəqərə", 231] yenidən boşayıram deyib xanımın iddət müddətini gözlətməsi [4, c.II, s.381; 25, c.II, s.99], kasıbların paylarını verməmək üçün varlıların sübh tezdən məhsul yığmaları [24, "Qələm", 17-33], varisləri mirasdan məhrum etmək və ya paylarını azaltmaq üçün mirası əqrəbalarına vəsiyyət etmək [24, "Nisa", 12], zəkat borcunu azaltmaq [26, c.IV, s.43], hüllə etmək [19, s.179; 24, "Bəqərə", 230; 27, c.II, s.415;

28, c.VI, s.14], qatilin mirasçı sayılmaması [27, c.III, s.259] kimi halları nümunə verə bilərik. Məsələn, rəvayət olunur ki, Rifaə əl-Qurazi zövcəsini boşadıqdan sonra yenidən onunla evlənə bilmək üçün Əbdürrəhman ibn Zəbirə ərə vermək istədikdə Rəsulullah (s) feilən evlilik həyatını yaşamasa, keçmiş yoldaşına qayıda bilməyəcəyini xəbərdar etmişdir [26, c.IV, s.55, 74; 29, c.X, s.68].

Məşru (caiz) hiylənin məqsədi əsl hökmü məşru olan vasitə ilə başqa bir hökmə çevirməkdir [8, s.294]. Buna ən gözəl nümunə kafirlərin hakimiyyətindən qurtulmaq üçün müsəlmanların İslam ölkəsinə hicrət etməsi əmri (ən-Nisa, 97-99) və ya bir ailənin dağılmaması üçün hirsli anda verilən qərarı poza bilmək məqsədi ilə hiyləyə üz tutulmasıdır [9, s.16]. Yəni bir kişi zövcəsini üç və ya bir talaqla boşasa, boşanmanın həyata keçməməsi üçün "inşallah, üç talaqla boşsan" deməsi ilə mümkündür. Həmin üsulla köləsini azad etsə də, sonda "inşallah" əlavə etməsi ilə [24, "Qələm", 18] həmin kölənin azad olmaması misalı da bura aid edilə bilər [21, c.XXVIII, s.363]. Digər nümunə "yatmış cənin" məfhumu ilə bağlıdır. Boşanmış və ya dul bir qadın başqasına ərə getmədən müəyyən bir müddət ərzində (hənəfilərdə 2 il, hənbəlilərdə 4 il, malikilərdə 7 il) uşaq dünyaya gətirsə, o, keçmiş ərinin nəsəbindən sayılır və ona varis olur [3, s.50; 30, s.324].

Məzhəblər arasında ixtilaflı məsələlərdən olan beynul-inə dövrümüzdəki kredit əqdləri deməkdir [16, s.152]. Belə ki, şafei hüquqçuları beynul-inəni məşru saydıqları halda, Hənəfi fəqihləri üçüncü vasitəçinin varlığını şərt qoşur. Maliki və hənbəli hüquqçuları isə onun caiz olmadığını iddia edir [20, s.242]. İstər beynul-inə, istərsə də ona oxşar təvərrüq və ya beynul-vəfa İslam şəriətində ribanın [28, c.IV, s.279-274] qarşısını almaq məqsədi ilə istifadə olunan hiyləyi-şəriyyələrdir [16, s.154].

Müsəlmanların müasir dövrün iqtisadiyyatı ilə ayaqlaşmaları üçün belə hiylələrdən istifadə etməsi zərurəti yaranmışdır. İlk İslam iqtisadiyyatı ilə bağlı beynəlxalq konfrans 1976-cı ildə Məkkədə keçirilmiş və buna oxşar çıxış yolları müzakirə edilmişdir. Qeyd etmək lazımdır ki, hiyləyi-şəriyyə üzrə məşhur mütəxəssis Məhəmməd Tahir Mənsuri caiz olmayan hiylə və riba ilə yanaşı, adı çəkilən beynul-inə və beynul-vəfa [31, s.38], təvərrüq və mürabəhə [19, s.144; 31, s.39], 1988-ci ildən istifadəsinə dair fətva verilən sukuk (dəyərli kağızlar) [32, s.63; 33, s.251], 1989-cu ildə qanuniləşən təkafül [33, s.403] və icarə kimi əqdlərin tərəfdarıdır [34, s.84].

Hiyləyi-şəriyyənin məşru olmasının dəlilləri bunlardır: Qurani-Kərimdə Əyyub peyğəmbərin (ə) xəstə olduğu zaman zövcəsinin bir iş dalınca getdiyi, yubanaraq çox gec gəldiyi bildirilir. Bundan hirslənən Həzrət Əyyub (ə) sağaldıqdan sonra ona yüz çubuq vuracağına and içir [19, s.123]. Həm öz andına əməl etməsi, həm də zövcəsinin cəzasının yüngülləşdirilməsi üçün ona belə buyurulur: **"Əlinə (yüz yaş və ya quru çubuqdan ibarət) bir şələ götür və onunla (övrətini) vur. Andını pozma. Biz onu (müsibətlərə) səbir edən gördük"** [24, "Sad", 44]. Ənsardan bir kişi cariyəsi ilə zina etdiyi üçün cəza olaraq bu ayədən çıxış yolu kimi istifadə edilməsi hədisini [27, c.III, s.213] nümunə verə bilərik. Həzrət Peyğəmbərin (s) məsciddə olanda bir sualı oradan çıxmadan cavablayacağına söz verməsi və sonra çölə çıxdıqda bir ayağı çöldə,

bir ayağı içəridə ikən cavab verməsi [26, c.IV, s.68, 71] andın məsuliyyətindən qaçmaq üçün əl atılmış nümunədir. Rəsulullahın (s) müxtəlif keyfiyyətdə və fərqli ölçülərdə olan xurmanın dəyişdirilməsini qadağan etməsi, az keyfiyyətli xurmanı satıb onun pulu ilə yüksək keyfiyyətli xurmanın alınmasına icazə verməsi hədisdə [7, c.XII, s.9; 19, s.124; 26, c.VI, s.421; 29, c.V, s.95] faizə düşməmək üçün çıxış yolu kimi göstərilmişdir [9, c.IV, s.280].

Hiyləyi-şəriyyənin caiz olmamasına aid dəlillər bunlardır:

Bəzi alimlərə görə, yuxarıda Həzrət Əyyub (ə) ilə bağlı qeyd olunan hadisə **"...Sən onların arasında Allahın nazil etdiyi (Quran) ilə hökm et. Sənə gələn haqdan ayrılıb onların nəfslərinin istədiyinə uyma. Sizin hər biriniz üçün bir şəriət və bir yol təyin etdik"** şəklində "əl-Maidə" surəsinin 48-ci ayəsi ilə nəsx olunmuşdur [2, s.283]. Digər alimlərə görə isə həmin hadisə yalnız o peyğəmbərə aid edilir. Digər dəlil isə yəhudilərin Allaha qarşı gəlib şənbə günü ovlamamaq qadağasını pozub, hiylə ilə balıq tutmalarını əks etdirən "əl-Əraf" surəsinin 163-166 ayələridir: **"(Ey Peyğəmbərim!) Onlardan (yəhudilərdən) dəniz kənarında yerləşən qəsəbə (əhli) haqqında xəbər al. O zaman onlar şənbə günü (balıq ovlamaqla) həddi aşırdılar. O vaxt şənbə günü balıqlar (hər tərəfdən suyun üzərində görünüb) dəstə-dəstə onlara tərəf axışır, şənbədən başqa günlərdə isə gəlmirdilər. İtaətdən çıxdıqlarına (günah işlədiklərinə) görə Biz onları belə imtahana çəkirdik".**

## Nəticə

Beləliklə, hər iki dinin bəzi qanunlarını indiki dövrümüzə uyğunlaşdırmaqla müasir iqtisadi və elmi həyatın dinamikliyi ilə ayaqlaşmaq üçün qaydalardan yayınmanın mümkünlüyünü görürük. Bunu edə bilmək üçün din xadimlərinin və hakimlərin mənbələrdə mövcud olan qiyas, məsalihi-mürsələ, səddi-zərai və s. üsullardan istifadə edərək mövcud qanunun əvəzinə ona oxşar digər bir qanunla hökm verməsi və ya şəriətdə qadağası haqqında heç bir mənbədə rastlanmayan bir qayda ilə əvəzləməsi mümkündür.

Yəhudi şəriətində qanundan yayınmaq üçün istifadə olunan hiylələr daha çox şənbə günlərində yaranan çətinliklərlə və dindar yəhudilərin qeyri-yəhudi dövlətlərində yaşadığı müddətdə dini ayinlərini (dini bayramlar, koşer qidalar və s.) həyata keçirə bilməməsi ilə əlaqədardır.

İslam tarixinə nəzər yetirdikdə isə hiyləyi-şəriyyənin geniş vüsət almasını daha çox siyasi səbəblərdən qaynaqlandığını görə bilərik. Hüquq dövlətlərində bəzi haqlar dövlət tərəfindən qəsb edilməyə başlandıqda haqq sahiblərini qorumaq üçün açıq şəkildə dövlətlə mübarizə aparmaq məqsədilə hiylələrə ehtiyac yaranmışdır [22, s.143-144]. Əbu Hənifənin Abbasi dövründə qazılıq etməməsi, İmam Malikin xəlifənin istədiyinə uyğun fətva vermədikdə cəzalandırılması [22, s.155-157] və s. xəlifələrin alimlərə təzyiq göstərməsinə nümunədir [20, s.238]. Ancaq hiyləyi-şəriyyədən istifadə etmək məzhəb hüquqçuları tərəfindən birmənalı qarşılanmamışdır. Bəzi fəqihlər onu müəyyən şərtlər daxilində məşru, digərləri isə tamamilə caiz hesab etməmişlər [16, s.148].

Beləliklə, həm yəhudi, həm də İslam şəriətində hiyləyi-şəriyyədən fərqli yerlərdə və fərqli

şəraitlərdə istifadə olunduğunu gördük. Hər iki din zəmanəyə uymaq, elmi-texnoloji inkişafa və müasir problemlərə tab gətirə bilmək, dünya iqtisadiyyat sistemi ilə yarışa bilmək üçün ağıldan və məntiqdən istifadə edərək çıxış yolları tapmaq məcburiyyətindədir. Əlbəttə, müsəlmanlar "Əməllər niyyətə görədir" hədisini [26, c.IV, s.21] əsas götürməli, halal və haram sərhədini pozmamaq şərtini də unutmamalıdır.

# ƏDƏBİYYAT


1. Köse Saffet. Hile-i şeriyye konusunda ilginç bir risale, İstanbul: İslam Hukuku Araştırmalan Dergisi, sayı 1, 2003, s. 231-255 s.
2. Topçuoğlu Hamide. Kanuna karşı hile (Kanundan kaçınma yolları). İzmit: Selüloz Basımevi, 1950, 296 s.
3. Танимов О.В. Фикции в религии как нормативный регулятор // Россия: Общество и Право, № 1 (38), Теория и История Права Государства, 2012, стр. 45-50
4. Şatibi Ebu İshak İbrahim b. Musa b. Muhammed el-Gırnati. el-Muvafakat: İslami ilimler metodolojisi (trcm: Mehmet Erdoğan). İstanbul: İz Yayıncılık, 1990, 2 c.
5. Baktır Mustafa. İslam hukukunda hile-i şeriyye. Erzurum: İslami Araştırmalar, sayı 2, 1986, 71-89 s.
6. ابن نجيم زين بن ابراهيم بن محمد بن محمد بن المشهمر ، *الاشباه والنظائي* ، بيروت – لبنان : مكتبة العصرية ، 2011 ، ص486
7. العيني بدر الدين ، *عمدة الكارى شرحي صحيح البخاري*، بيروت: دار الكتب العلمية ، 2009، ج 25
8. البوطي محمد سعيد رمضان ، *ضوابط المصلحة في الشرعية الاسلامية* ، بيروت: مؤسسة الرسالة ، 1982 ، ص 466
9. Eyyüpoğlu Osman. Sosyal değişmenin zeminlerinden biri olarak hile-i şeriyye. İstanbul: İslami Araştırmalar Dergisi, c. 17, sayı 1, 2004, 14-26 s.
10. Примаков Д.Я. Особенности Еврейской правовой системы: Сравнение Еврейского и Мусульманского права (VII-XIII вв.). Санкт-Петербург: Санкт-Петербургский Государственный Университет, Юридический факультет, 2011, 160 стр.
11. Байбурин А.К. Нельзя… но если очень нужно… (к интерпретации способов нарушения правил и запретов) // Труды факультета этнологии, вып. 1, Санкт-Петербург: изд-во Европейского ун-та, 2001, стр. 4–11.
12. Каспина Мария. Столкновение закона и обычая в традиционной культуре евреев Восточной Европы: народный иудаизм, Москва: Антропологический форум (Научный журнал: Этнография и историческая антропология, Культура. Культурология, Языкознание, Антропология) № 13, 2010, стр. 39-54
13. Ефимова Ольга. Иудаизм и этические проблемы медицины. Иерусалим: Маханаим-еврейский культурно-религиозный центр, 2001, 35 стр.
14. Katz J. The "Shabbes Goy": A Study in Halakhic Flexibility (trans. by Yoel Lerner). Philadelphia, Jerusalem: Jewish Publication Society, 1989, 254 p.
15. Шуб Яков. Этер-Иска. Путь к кошерному бизнесу. Москва: Toldot Yeshurun, 2012, 16 стр.
16. Бизюков С.Н. Юридические уловки (хийал) в современной исламской банковско-финансовой сфере. Санкт-Петербург: Известие, 2014, стр. 146-169.
17. Schacht Josef. Encyclopaedia of Islam: Hiyal. Leiden: Brill Publishing, vol. 3, 1960, 510–513 p.
18. Rohe Mathias. Islamic Law in past and Present. Boston: Brill Publishing, 2014, 657 p.
19. Ismail Muhammed Imran. Legal stratagems (hiyal) and usury in Islamic commercial law. UK: Department of Theology and Religion College of Arts and law, The University of Birmingham, 2010, 331 p.
20. Eser Ercan. İslam hukuku açısından hilenin meşruiyeti (İslami finans kurumlar örneği) // İslam Hukuku Araştırmaları Dergisi, sayı 25, 2015, 225-250 s.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

**21.**İslam ansiklopedisi. İstanbul: Türkiye Diyanet Vakfı, 1998, 44 c.

**22.**Köse Saffet. İslam Hukukunda Kanuna Karşı Hile (Hile-i Şer'iyye), İstanbul: Birleşik Yayıncılık, 1996, 457 s.

**23.** الجوزية أبو عبد الله شمس الدين محمد ابن قيم ، *إغاثة اللهفان من مصايد الشيطان* ، تحقيق: محمد بشير عيون ، دمشق: مكتبة دار البيان ، 1994 ، ج 2

**24.**Bünyadov Z.M. Məmmədəliyev V.M. Qurani-Kərim və tərcüməsi. Ankara: Diyanət İşləri Başqanlığı nəşrləri, 2015, 615 s.

**25.** الجصاص ابو بكر احمد بن علي الرازي ، *احكم القرآن* ، بيروت: مطبعة الاوقاف الاسلامية، 19895، ج

**26.** العسقلاني احمد بن علي بن حجر ، *فتح الباري شرح صحيح البخاري* ، الرياض : دار السلام ،2000 ، ج 9

**27.** ماجاه عبد الله محمد بن يازد بن ، *سنن ابن ماجه* ، بيروت – لبنان : دار المعرفة ، 2006 ،ج 4

**28.** مغنية محمد جواد ، *فقه الامام جعفر الصادق*، قم: مؤسسة أنصاريان، 2003، ج 6

**29.** مسلم ابو الحسين بن الحجاج القشيري النيشابوري ، *صحيح مسلم* ، بيروت – لبنان : دار المعرفة ، 2003 ،ج 16

**30.**Власенко Н.А. Теория государства и права: учебное пособие. Москва: Проспект, 2011, 416 стр.

**31.**Бизюков С.Н. Юридические уловки в исламском праве: путь от средневековья до XXI века // Россия: Журнал Высшей школ экономики, № 3, 2014, стр. 31-54

**32.**Visser Hans. Islamic finance: Principles and practice. Cheltenham, UK and Northampton MA: Edward Elgar Publishing, 2009, 184 p.

**33.**Khan Muhammad Akram. What Is Wrong with Islamic Economics?: Analysing the Present State and Future Agenda. UK: Edward Elgar Publishing, Islamic Economic, vol. 29, No 2, 2013, 169-174 p.

**34.**Mansoori Muhammad Tahir. Use of ḥiyal in Islamic Finance and its Sharī῾ah Legitimacy // Islamabad: Journal of Islamic Business and Management, vol. 1, No 1, 2011, 69–92 p.

**35.**https://www.jw.org/az/neshrler

**36.**www.dinimizislam.com

**37.**http://www.fikih.info

**38.**www.ihya.org/kavram/kavramlar-ansiklopedisi

**39.**https://toldot.ru/articles

**40.**http://samsonblinded.org

**41.**https://eleven.co.il/talmud-rabbinics/sages/11172

**42.**www.toislam.ws

Алия Мурсалова

# ЮРИДИЧЕСКИЕ УЛОВКИ В ЗАКОНОДАТЕЛЬСТВЕ ИУДАИЗМА И ИСЛАМА


## РЕЗЮМЕ

Статья посвящена рассмотрению роли и значения юридических уловок в современном праве Иудаизма и Ислама. Это юридическое решение и средство правовой защиты называются “аарама/аарамот” в еврейском праве и “хийляи-шерийя” в литературе по исламскому праву. Эта тема, с которой мы сталкиваемся во многих примерах в книгах фикха и Галахе, выдвигала множество аргументов за и против себя.

Хийал - (юридическая беллетристика) применялась на протяжении всей истории во всех религиях и светских правовых системах. Ее смысл состоит в том, чтобы избежать целей и последствий, изложенных в законе, принимая правовые соображения, учитывая пробелы в законе. Поскольку хийал часто наносит ущерб намерениям законов, шариатские ученые обеих религий обеспокоены тем, что истинное назначение законов поменяется и что его неизменные принципы могут исказиться.

Также в статье дается краткий обзор первых источников, логические и терминологические значения уловок, история появления и понятие уловок, приводятся примеры их использования, а также краткий обзор исламских правовых концепций для определения законности применения уловок. Приводится анализ использования уловок для обхода запрета, а также аргументы против и за.

Aliya Mursalova

# LEGAL SUBTERFUGES IN JEWISH AND ISLAMIC LAW

## SUMMARY

The article reviews the role and place of legal subterfuges in the modern Jewish and Islamic legislaton. This legal solution and remedy is referred to as "aarama/aaramot" in Jewish law and "hiyal" in Islamic law literature. This topic, which we encounter in many examples in the books of fiqh and halacha, has advanced many supposing and opposing arguments.

Hiyal - (legal trickery) has been experienced throughout the history in all religions and secular legal systems. The purpose is to avoid the goals and consequences set forth in the law, by taking into account legal considerations and considering the gaps in the law. Since hiyal often spoils intentions of the laws, sharia scholars of both religions are concerned that the true purpose of the laws changes and that its unchanging principles may be distorted.

The article also provides a brief overview of the first sources, logical and terminological meanings of tricks, a history of emergence and the concept of tricks, and gives examples of their usage, as well as a brief overview of Islamic legal concepts to determine the legitimacy of using tricks. An analysis of the use of tricks to avoid the ban, as well as supporting and opposings arguments are also reviewed in the article .

# İSLAM ƏLYAZMA SƏNƏTİNDƏ HİLYƏYİ-ŞƏRİF

***Səbinə NEMƏTZADƏ,***
*İlahiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*nematzadesabina@yahoo.com*

***AÇAR SÖZLƏR:*** *İslam, mədəniyyət, əlyazma, Hilyə, sənət.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Ислам, культура, рукопись, Хиля, искусство.*
***KEY WORDS:*** *Islam, culture, manuscript, Hilya, art.*

İslam mədəniyyətində əlyazmalarla bağlı sənətlər məhz müqəddəs Quranın, dini mətnlərin, hilyələrin, qitələrin, dini lövhələrin bədii tərtibatı zəminində inkişaf etmiş, formalaşmış, dünya mədəniyyətinə şah əsərləri qazandırmışlar.

Uzun müddət bir yandan Quranın imla qaydalarına riayət edərək düzgün oxunması üçün əmək sərf edilmiş, digər tərəfdən əlyazma sənətkarları – xəttatlar xəttin gözəlləşməsi üçün hünər göstərmiş, İslam kalliqrafiyasının misilsiz nümunələrini, İslamın maddi mədəniyyət incilərini miras qoymuşlar [1, s.43-44].

Xətt sənətində Qurani-Kərimdən sonra ən çox işlənən sahə Həzrət Məhəmmədin (s) adı və hədisləri ətrafında meydana gəlmişdir. Hədis kitabları arasında təhsil və təsbit məqsədilə yalnız oxunaqlılığına diqqət edilənlərlə yanaşı, peyğəmbər sözünə layiq, gözəl xətlərə bürünmüş, sənət dəyəri daşıyan bir çox kitab və məcmuə də vardır [2, s.89].

Türk-İslam xətt sənətinin tətbiq sahələrindən biri də “Hilyəyi-Şərif”dir. Hilyə – Peyğəmbərin (s) fiziki xüsusiyyətlərini izah edən ədəbi əsərlər və eyni mövzuda hüsnxətlə yazılmış lövhələr üçün istifadə olunan termindir.

Lüğətdə “bəzək, zinət, boyunbağı” kimi mənaları ifadə edən “hilyə” məcazi mənada “yaradılış, surət və gözəl vəsflər (sifətlər, xüsusiyyətlər)” deməkdir. Səhabələr Məhəmməd peyğəmbərin (s) vəsflərini öz elm və idrakları nisbətində təsbit etməyə çalışmış, bu da hilyə mövzusunda fərqli rəvayətlərin ortaya çıxmasına səbəb olmuşdur [3, s. 44].

“Həzrət Əli Məhəmməd peyğəmbəri belə təsvir edərdi: Peyğəmbər əfəndimizin boyu nə çox uca, nə də çox bəstə idi; o, qövmünün orta boylusu idi. Saçları nə qıvrım, nə də dümdüz idi; yüngülcə dalğalı idi. Üzü – xəfif dəyirmi və dolu idi. Üzünün rəngi çəhrayı-ağ, gözləri qara, kirpikləri sıx və uzun, sümükləri, oynaqları və çiyin başları iri idi. Bədəni tüksüz idi, yalnız sinəsindən göbəyinə doğru enən incə bir tük zolağı vardı. Əl və ayaq barmaqları qalın idi. Gedərkən əyri və kələ-kötür bir yerdə gedirmiş kimi ayaqlarını sürtmədən sərtcə qaldırar və addımlarını uzun atırdı. Kiməsə baxanda yalnız başını çevirərək deyil, bütün vücudu ilə o tərəfə yönəlirdi. İki kürək sümüyü arasında peyğəmbərlər zəncirinin son halqası olduğunu göstərən peyğəmbərlik möhürü vardı. İnsanların ən comərdi, ən doğru sözlüsü, ən yumşaq xasiyyətlisi və ən dostcanlısı idi... Əfəndimizi tərifləmək istəyən kimsə, “Mən ondan əvvəl və sonra tayı-

bərabərini, bənzərini görmədim" deyərdi. Allahın səlat və salamı onun üzərinə olsun!" [4, s.48].

Hilyələr lövhələr arasında şərəfli mövqedədir. Həzrət Məhəmmədin (s) vəsfləri, xüsusiyyətləri ilə əlaqədar mötəbər siyər kitablarından alınan ən səhih rəvayətlərdən biri ilk dəfə olaraq XVII əsrin sonlarında Hafiz Osman tərəfindən müəyyən şəkil verilərək divara asılmaq üçün lövhə şəklində yazılmışdır. Bu tərtibdə süls (bəsmələ üçün bəzən mühəqqəq) və nəsx xətləri seçilmişdir.

XVIII əsrin sonlarında Yəsari Mehmed Esad Əfəndi hilyə lövhələrini təliq xətti ilə yazmağa başlamışdır. Ondan sonra bu tərz davam etmişdir. Fərqli rəvayətlərə görə, hilyələrdə bir neçə mətndən istifadə olunmuşdur. Lakin ən geniş yayılan Həzrət Əlinin rəvayətidir [5, s.40].




Hilyə lövhəsi aşağıdakı hissələrdən ibarətdir:

1) Baş məqam. Buraya mütləq bəsmələ yazılır.

2) Göbək. Hilyə mətninin böyük hissəsi buraya sığışdırılır. Dairəvi, beyzi (oval), hətta mürəbba (dördbucaqlı) şəklində tərtib edilir.

3) Hilal.

Hilyədə təzyinat baxımından ən zəngin yer hilalın kənarında qalan, dörd tərəfində yer alan sahələrdir. Bu sahələrə dörd xəlifənin, yəni

4) Həzrət Əbu Bəkr,

5) Həzrət Ömər,

6) Həzrət Osman,

7) Həzrət Əli

adları ardıcıllıqla yerləşdirilir. Dörd xəlifənin yerinə bəzən Həzrət Məhəmmədin (s) daşıdığı dörd ad da yazıla bilər. Dörd xəlifədən başqa, Cənnətlə müjdələnmiş on səhabənin, yəni "aşərayi-mübəşşərə"nın adları yazılan hilyələr də mövcuddur.

8) Ayə. Buraya Həzrət Məhəmməd (s) ilə əlaqəli olan bir ayə yazılır. Ən çox rastlanan: **"...Səni də (Ya Rəsulum!) aləmlərə (bütün insanlara və cinlərə) ancaq bir rəhmət olaraq göndərdik...."** ("Ənbiya", 107) mənasında olandır. **"Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən"** ("Qələm", 4) və **"... Məhəmmədin Allah Rəsulu olduğuna şəhadəti yetər..."** ("Fəth", 28-29) ayələrindən biri də ilk yazılan ayənin yerinə yazılır.

9) Ətək. Hilyə mətninin davamı və dua qisminə deyilir. Ən sona Hilyəni yazan xəttat imzasını və yazdığı tarixi əlavə edir. Ətək qisminin iki tərəfində qalan boşluqlara qoltuq (kürsü) deyilir və burada təzyini motivlər yer alır [5, s.40-41].

Məhəmməd peyğəmbərin (s) şəkli, fiziki və xarakter keyfiyyətləri, bəşəri xüsusiyyətləri ilə bağlı hədis və siyər kimi İslam qaynaqlarında bir sıra məlumat vardır.

Tövhid inancının təməl prinsiplərinə xələl gətirə biləcəyini düşünərək Peyğəmbərin (s) rəsmini çəkmək İslam cəmiyyətində qəbul edilməmişdir. Əvəzində, hədis və siyər qaynaqlarındakı Məhəmməd peyğəmbəri vəsf və təsvir edən rəvayət mətnlərinə əsaslanan hilyələr böyük rəğbət qazanmışdır.

Peyğəmbərin (s) necə yaradılışa sahib olduğunu əks etdirən hilyələr onun mübarək vəsflərini və gözəlliklərini anladan mənzum və ya mənsur əsərlər "Hilyəyi-Şərif", "Hilyəyi-Səadət", "Hilyəyi-Nəbi" və "Hilyəyi-Nəbəvi" olaraq adlandırılmışdır [6, s.12-14].

Məhəmməd peyğəmbərin (s) yüksək səciyyə və əxlaqını mədh edən mətnlərə istər ədəbiyyatda, istərsə də xətt sənətində tez-tez rast gəlmək mümkündür. Xüsusilə türk-İslam sənət və ədəbiyyat tarixi bu kimi əsərlər baxımından olduqca zəngindir. Peyğəmbəri (s) istək, sevgi və həsrətlə anan hər sənətkar özündən əvvəl ortaya qoyulmuş əsərlərdən ilham alaraq yeni baxış prizmasından öz məhəbbətini izhar etməyə çalışmışdır. Bu, ənənə halını aldıqdan sonra ədəbiyyat tarixində nət qələmə almayan şair, sənət tariximiz boyunca hilyə yazmayan xəttat, hilyə təzhibləməyən müzəhhib, demək olar ki, olmamışdır [7, s.41].

Hilyələr İslam ədəbiyyatı, hüsnxət və təzhib sənətlərində xüsusi yerə sahibdir. Əvvəllər məcmuə formasında və ya qatlanıb cibdə daşınması mümkün olan hilyələr ilk dəfə, yuxarıda da qeyd edildiyi kimi, XVII əsrin xətt dühası Hafiz Osman tərəfindən lövhə şəklində hazırlanmışdır. Bu klassik forma hər dövrdə aktual olmuşdur [8, s.19]

Peyğəmbəri (s) təsvir edən hilyələri yazmaq və təzhibləmək xəttat və müzəhhiblər üçün hünər göstəricisi sayılmışdır.

Hilyələrin mənəvi dəyəri, xüsusiyyəti, qrafik dizaynındakı mükəmməllik, yazının xaricində qalan boşluqlar müzəhhibləri cəzb etmişdir. Məhz hilyə təzyinatı sənətin bütün ecazkarlığı ilə nümayişində çatılacaq ən yüksək nöqtədir.

Əsrlər boyu təzhib sənətinə təsir edən bir çox amil olmuşdur. Mədəni qarşılıqlı təsir, sosial və iqtisadi amillər, sənətə baxış tərzi, sənətkarın təkrara yol verməmək istəyi, yenilik axtarışı dəyişikliklərin əsasını təşkil etmişdir.

Bəzi tərz və üslublar dəyişən zövq və istəklər istiqamətində hər dövrdə təsirli olmuş, bəziləri isə bir müddət təsirli olduqdan sonra zəifləyib əhəmiyyətini itirmişdir [9, s. 42].

Həzrət Məhəmmədi (s) tərif və təsvir edən gözəl yazıların müəyyən bir nizama görə lövhə halına gətirilmiş şəkli olan "Hilyəyi-Şərif" bəzəmələrində sətir araları təzhiblənməklə yanaşı, bu cür lövhələrə xas olan baş məqam, göbək, dörd xəlifənin adı, ayə və ətək kimi yazı sahələri arasında qalan fərqli formalardakı zəminlər təzhiblənir [10, s.63].

Qeyd etmək lazımdır ki, hilyələrin yazılacağı kağız zövqlə seçilmiş, insanın gözünü yormayacaq rəngdə (noxudu sarıya çalan rənglər) olmasına fikir verilmişdir. Hilyələrdə kağız necə diqqətlə seçilmişdirsə, təzhibin rənglərinin də o cür həssas və harmoniya içərisində olmasına əhəmiyyət verilmişdir.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı



***Kazasker Mustafa İzzət Əfəndinin süls-nəsx xətti ilə yazdığı "Hilyəyi-Şərif". 1873-cü il* [11].**

"Hilyəyi-Şərif", qitə və məşqlər lövhə xarakteri daşıyan əsərlər evlərin, iş yerlərinin, müəssisələrin divarlarını sənət əsəri kimi bəzəməklə yanaşı, Allaha imanı, İslam dəyərlərinə dərin hörmət və ehtiramı əks etdirir. İslam sənət tarixi boyunca lövhələrin hazırlanmasında sənətkarlar böyük və dərin ibadət yolunu keçmişlər. Çünki xəttat üçün yazmaq, xüsusən də gözəl xətlə yazmaq Allaha yaxınlaşmaq, vüsala yetişmək üçün bir "yoldur". Bu arzu və niyyətlə müsəlman sənətkarlar İslam mədəniyyətini inkişaf etdirmiş, bununla yanaşı, möminin əqlinə və qəlbinə xitab edə biləcək şah əsərlər ortaya qoymuşlar.

# ƏDƏBİYYAT


1. Nemətzadə Səbinə. Əlyazmaların bədii tərtibat xüsusiyyətlərində dini-fəlsəfi aspektlər. Bakı: Elm və Təhsil, 2017.
2. Serin Muhittin. Hat Sanatı. İslam Sanatları Tarihi. 6. Baskı. Eskişehir: Anadolu Universitesi Yayınları, 2013.
3. Uzun Mustafa. Hilye. İslam Ansiklopedisi., cilt 18. İstanbul: Türkiye Diyanet Vakfı yayınları, İSAM, 1998.
4. Derman M. Uğur. Hat. İslam Ansiklopedisi, cilt 18. İstanbul: Türkiye Diyanet Vakfı yayınları, İSAM, 1998.
5. Çetin Nihat M. Hat sanatı: İslam kültür mirasında. Editör: Ekmeleddin İhsanoğlu; hazırlayan: Derman M. Uğur. İstanbul: İslam Tarih, Sanat ve Kültür Araştırma Merkezi; Research Centre for Islamic History, Art & Culture (IRCICA), 1992.
6. Kaplan Yıldıray. Hz.Peygamberin yazı ile yapılmış portresi: Hilye-i Nebevi. Lisan-ı hat ile aşk-ı Nebi. Ankara: Diyanet İşleri Başkanlığı, 2012.
7. Özkafa Fatih. Hilye-i Şerifenin dini, edebi ve estetik boyutları // Klasik sanatlar yıllığı: 2013. Ankara: Diyanet İşleri Başkanlığı, 2014.
8. Taşkale Faruk, Gündüz Hüseyn. Hilye-i Şerife. Characteristics of The Prophet Muhammed. Antik A.Ş. İstanbul: Cultural Publications, 2011.
9. Özçimi Ayşe Serap. Mimar Sinan Güzel Sanatlar Üniversitesi Sosyal Bilimleri Enstitüsü Geleneksel Türk Sanatları Anasanat Dalı Tezhip Programı Hilye Tezhibi (Yüksek Lisans Eser Metni), İstanbul: 2012.
10. Duran Gülnur. Tezhip (Sanatının Kullanım Alanları). İslam Ansiklopedisi, cilt 41. İstanbul: Türkiye Diyanet Vakfı yayınları, İSAM, 2012.
11. http://www.kalem-guzeli.org/hatteserleriayrinti.php?KNO=971&HKNO=20

Сабина Нематзаде

# «ХИЛЯИ-ШЕРИФ» В ИСЛАМСКОМ РУКОПИСНОМ ИСКУССТВЕ


## АННОТАЦИЯ

«Хиля» используется как термин, объясняющий физические особенности пророка ислама, которые излагают литературные произведение и вывеска, написанная прекрасным почерком на эту же тему. Согласно отличающимся преданиям в «хилях» были использованы несколько текстов. Однако широко распространенная «хиля», это предания двоюродного брата пророка Мухаммеда Али. Тюркско-Исламское искусство и история литературы очень богата с точки зрения таких произведений. В конце XII (XVIII) века Ясари Мехмет Эсад Эфенди начал писать вывески «хиля» надписью талик. «Хильи» ранее в форме сборника, складывались, было возможно нести их в кармане, впервые были разработаны в виде вывески со стороны Хафиз Осман в XVII веке.

«Хиляи-шариф» занимает важное место в тюркско-исламском искусстве письменности. Данная статья посвящена на важную роль развитию исламского рукописного искусства «Хиляи-шариф», имеющая особое значение в истории исламской культуры.


Sabina Nematzade

# THE HILYAYI-SHARIF IN ISLAMIC MANUSCRIPT ART


## ABSTRACT

Hilya as illuminated calligraphic versions are used for the description of physical characteristics of the Islamic prophet. According to different legends, several texts have been used on Hilyas and the most widely spread legend was the story of Ali, the cousin of Prophet Muhammad. There are lots of similar extraordinary examples in Turkic-Islamic art and history of literature. At the end of the 12th (18th) century, Mehmed Esad Yesari began to write Hilya layout with talig style. The Hilya were previously available in the brochure form but later, exactly in 17th century were designed in a plaque form by Ottoman calligrapher Hafiz Osman.

So, this article is devoted to the research of important role of the Hilya Sharif in Turkic-Islamic culture.


***Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə yerinə yetirilmişdir.***

*Grant № EİF-Mob-5-2014-2(17)-14/09/5*

# УТИЛИТАРНЫЙ ДУХ ЗАПАДА И ДУХОВНОЕ РАЗВИТИЕ ЧЕЛОВЕКА В ИСЛАМЕ

***Фариз АХМЕД,***
*Государственная Нефтяная*
*Компания Азербайджанской Республики*
*Государственный Научно-исследовательский*
*Институт Нефти и Газа, старший научный*
*сотрудник отдела “Борьбы с песко-водо проявлениями”,*
*farizahmed@mail.ru*

***КЛЮЧЕВЫЕ СЛОВА:*** *ислам, материалистическая цивилизация, религия, атеизм, прогресс, капиталистическая система.*
***AÇAR SÖZLƏR:*** *İslam, materialist sivilizasiya, din, ateizm, tərəqqi, kapitalist sistem.*
***KEY WORDS:*** *Islam, materialistic civilization, religion, atheism, progress, capitalist system.*

Несмотря на то, что Ислам является такой мощной системой норм для жизни человека, мусульмане далеко не всегда придерживаются его норм. Причин тому много, среди которых необходимо выделить главные - незнание и отсутствие понимания или правильного понимания законов шариата.

Исламская цивилизация была самой совершенной социально-политической системой, которую только знала история. Духовность ставилась в Исламе превыше всего, а всё остальное ей подчинялось. Если сравним такую позицию с аналогичной позицией Западной цивилизации, то будем поражены их отличием. Ислам и Запад по-разному понимают то, каким образом должно осуществляться движение вперед. Современный Запад верит в возможность морального и социального роста человека посредством новых достижений в материальной сфере и развития научной мысли. Точка зрения Ислама диаметрально противоположна западному материалистично-динамическому подходу к истории человечества. Ислам считает духовный потенциал человечества как коллективного целого постоянной величиной, заложенной уже на стадии формирования человеческой природы. **“Поистине, те, которые не уверовали, тратят свое имущество, чтобы отвратить от пути Аллаха, и они издержат его. Потом это окажется для них огорчением, потом они будут побеждены!”** [“аль-Анфаль”, 36].

Западная цивилизация в наши дни не признает необходимости подчинения человека каким-либо экономическим или социальным нормам. Ее реальное божество не имеет ничего общего с духовностью. Ее бог-Комфорт, а жизненная философия-Стремление к Власти ради власти. И то, и другое берёт свое начало в Древнем Риме и

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

Греции. Западная цивилизация не отрицает Бога, а просто не отводит для Него места в своей нынешней картине мира, не видит в Нём никакой пользы. Современный западный человек предпочитает придавать значение только тем идеям, которые находятся в сфере эмпирических наук или, по крайней мере, явным образом влияют на отношения между людьми. Поскольку существование Бога не доказывается ни тем, ни другим способом, западное сознание склонно в принципе исключить Бога из сферы рассмотрения.

Одним словом, западная цивилизация была чисто материалистической. Чтобы постигнуть Бога, они обязательно должны были придавать Ему физические формы и обличия, делать изображения Его проявлений и помещать их в храмах, чтобы придать своему поклонению зримый характер. У них был бог пропитания, бог милосердия, бог ярости и т.п. Этим богам приписывались все атрибуты физического существования. Даже абстрактные идеи, такие, как красота и любовь, тоже символизировались отдельными божествами.

Мухаммад Асад говорил: “...основной идеей Римской империи было завоевание власти и эксплуатация других народов для блага одной лишь метрополии. Чтобы обеспечить лучшее существование для привилегированной группы, римляне не считали никакое насилие слишком скверным, никакую несправедливость-слишком низкой. Знаменитое “Римское право” было правом лишь для римлян. Ясно, что такое отношение было возможным только на основе полностью материалистической концепции жизни и цивилизации-материализма, чуждого всем духовным ценностям” [1].

Как сказал Лорд Лотиан: “..Падение авторитета религии, незаменимого наставника человека, единственного источника, дающего цель, благородство и смысл жизни человека, объясняет, по крайней мере частично, почему западный мир за последние десятилетия склонялся к новым политическим доктринам, основанным на расах или классах, или смело полагался на какую-либо форму науки, которая, по общему признанию, почти целиком связана с прогрессом в материальной области, с тем, чтобы сделать жизнь более дорогой и сложной. И это объясняет, также отчасти, почему Европе так трудно достичь того единства духа и жизни, какое помогло бы ей подняться над духом ограниченного и воинственного национализма, который сегодня отравляет ее жизнь”. Таким образом, Европа сразу же воздвигла барьер между собой и остальным миром, считая, что те народы, которые находятся по её сторону барьера, составляют элиту человечества. Это полностью соответствует взглядам древних греков и римлян, которые считали цивилизованными людьми только самих себя, а всех остальных, особенно тех, кто жил к востоку от Средиземного моря варварами.

После эпохи Просвещения европейские мыслители инстинктивно отвергли концепцию Бога, представленную в учениях Церкви, но поскольку это была единственная знакомая им концепция, то они начали отрицать само существование Бога, а вместе с ним и религию. Начавшаяся индустриальная эра с её очарованием стремительного материального прогресса, которая привела к появлению у людей новых интересов, а

результатом стал последующий религиозный вакуум на Западе. Находясь в этом вакууме, Западная цивилизация подошла к трагическому повороту в своей истории, трагическому с точки зрения любого, кто видит в религии основу человеческой жизни. Из-за подсознательного страха вновь оказаться во власти духовных авторитетов Европа стала лидером антирелигиозного движения, как в теории, так и на практике, и возвратилась в этом смысле к своему древнеримскому прошлому.

Западный человек - демократ или фашист, капиталист или коммунист, рабочий или интеллигент - знает только одну “религию” - это культ материального прогресса, вера в то, что главная цель жизни-делать её всё проще и проще и, как гласит общепринятое выражение, в результате стать “независимыми от Природы”. Храмы этой “религии” - гигантские фабрики, кинотеатры, химические лаборатории, танц-холлы, гидроэлектростанции, а её жрецы-банкиры, инженеры, кинозвезды, промышленные магнаты, спортсмены. Человеческая мораль стала ограничиваться лишь соображениями практической пользы, а высшим критерием добра и зла стал материальный успех.

В западном обществе все добродетели, которые напрямую способствуют материальному благополучию общества, как, например, высокая производительность, патриотизм, национальное самосознание, высоко ценятся и порой доводятся до абсурда. В то же время качества, которые еще недавно ценились с чисто этической точки зрения, такие, например, как уважение детей к родителям или верность в браке, быстро утрачивают свою значимость, потому что не приносят осязаемой материальной пользы обществу [1; 2].

Двигаясь по пути капиталистической модернизации, мусульманский Восток не мог и не может не приглядываться к примеру промышленно развитого Запада. А этот пример не всегда выглядит вдохновляющим, заставляя искать ответ на многие вопросы: как избежать повторения опыта индустриальных стран в том варианте, когда экономический успех сопровождается серьезными природными катаклизмами, утверждением культа наживы в ущерб духовности, как не растерять собственных ценностей, приобщаясь к благам современной цивилизации? По мнению известного пакистанского экономиста Куршида Ахмада, экономический рост явился тем “божеством, на алтарь которого приносилось все, что можно было принести: культурное достижение, этические ценности, нормативы общественного бытия, религия”. Выход из сложившейся ситуации он видит в том, чтобы под эгидой ислама создать новую нравственную атмосферу и общественный порядок [3; 4].

По мнению некоторых ученых, современную цивилизацию можно охарактеризовать “обществом современного невежества и безрассудства”. В наш век человечество достигло небывалых успехов в области науки и техники. Однако в этой пучине космических ракет, атомных бомб и новейших технологий забывается человеческая душа, разум, вследствие чего человек становится рабом достижений техники. Всё это затуманивает его умственные способности [5].

Навязываемая сегодня Западом система ценностей пропитана символикой потребительства и достижения, лишенных моральных измерений. Не принципы, ценности или законы, а только условия и обстоятельства принимаются во внимание. Все прежде значимое и ценное становится объектом коммерции. Таким образом, утверждаемый в странах классической исламской цивилизации идеал "свободного потребительства" оборачивается к этому миру отнюдь не моделью успешной модернизации, а источником нищеты, коррупции и экологических проблем.

В книге "Конец истории" американского мыслителя Фукуяма появились следующие слова: "Капиталистическая система-это вечное спасение для людей на Земле, а Ислам, несмотря на его слабость и распад, угрожает этой новой победоносной религии, т. е. капитализму". Основной целью, для осуществления которой работают капиталисты, является воспрепятствие возвращению Ислама в жизнь как ситемы, потому что он угрожает существованию их идеологии и культуры и уничтожает их интересы и влияния.

Они устраняют идейные и эмоциональные препятствия, которые угрожают капиталистическому культурному существованию в мусульманских странах, чтобы сохранение своих интересов и влияния стало лёгким, и они могли обеспечить длительность своего пребывания. Здесь основной целью является создание новой религии для мусульман, построенную на доктрине отделения религии от жизни, в которой законодательство принадлежит человеку вместо Всевышнего Аллаха, Создателя человека. Они являются такими, как Аллах говорит о них: **"А они не перестанут сражаться с вами, пока не отвратят вас от вашей религии, если смогут"** ["аль-Багара", 217]; "**И никогда не будут довольны тобой ни иудеи, ни христиане, пока ты не последуешь за их религией"** ["аль-Багара", 120].

Известный мусульманский богослов муфтий Триполи из Ливии Надим-аль-Джисар, анализируя отношение к исламу в мусульманских странах, писал: "Мы стоим перед опасным социальным явлением, на которое жалуется весь исламский мир без исключения, а именно: чем выше образованность у нашей молодежи в области науки, тем ближе она к атеизму, а верующее меньшинство её склонно пренебрегать культами и обрядами" [6]. Причину данного кризиса можно объяснить тем, что наука и техника, оказавшись вне системы духовно-нравственного регулирования, сделала человека заложником научно-технического прогресса.

По утверждению Н.Льюиса события, описанные в Коране, не являются баснями, а были определенными видами расплаты за прегрешения людей и предостережениями о будущих наказаниях. "Истинный верующий знает, что Бог, который посылал прежние катастрофы из-за испорченности человечества, пошлёт в непродолжительном будущем новый решительный катаклизм, в котором все грешники будут уничтожены... Это не аллегория, это предостережение о последнем дне" [7].

Из всего вышесказанного можно заключить, что цивилизация подобного типа является смертельным ядом для любой культуры, основанной на религиозных ценностях.

Выражаясь словами Всевышнего: **“Вы желаете наставить этих лицемеров на прямой путь, а они хотели бы, чтобы и вы не верили и стали бы неверными, как они. Поэтому не берите себе из них друзей и сторонников и не считайте их членами своей общины…”** [“ан-Ниса”, 89]

Первая и самая главная цель Ислама-это духовное развитие человека, а, следовательно, этические соображения в нём преобладают над утилитарными. Нечёткость представления о нравственности, разумеется, не может идти ни в какое сравнение с ясностью религиозной позиции, а, следовательно, современная Западная цивилизация в своём основании не может соперничать с Исламом. Невозможно пойти дальше и начать подражать сути Западной цивилизации, её образу жизни и социальному устройству, не нанеся при этом непоправимого удара самому существованию Ислама как идеологии.

**Выводы**

1.Индустриальная эра привела к появлению у людей новых интересов и создала религиозный вакуум.

2.В западном обществе материальный успех стал высшим критерием добра и зла.

3.Аналогично Западу в исламском обществе экономический рост явился божеством, в жертву которому приносилась религия.

# ЛИТЕРАТУРА


1. Muhhamad Asad. Islam at the crossroads. Pakistan, India: Arafat Publications, 1934, Pp. 105.
2. Ahmad Thomson. Dajjal: the Anti-Christ. UK: Ta-Ha Publishers Ltd., 2008, Pp. 219.
3. Ионова А.И. Исламский взгляд на проблему человека в условиях рыночной экономики // Вопросы экономики, 1993, № 3, с. 137.
4. Ионова А.И. Концепция личности в современном исламе. Вестник РАН, 1993, т. 63, № 1, с. 19.
5. Османов М. - Н. О. Ислам и общество. Махачкала: 1998, с. 26.
6. Надим-аль-Джисар. Ислам в истории народов Востока. М.: “Аль-Азхар”, 1981, с. 183.
7. Lewis N. The witness of planets. Islamic review, 1967, Aug, p.38.

Fariz Əhməd

# QƏRBİN UTİLİTAR RUHU VƏ İSLAMDA İNSANIN MƏNƏVİ İNKİŞAFI

## XÜLASƏ

İslam sivilizasiyası bəşər tarixinin ən kamil sosial-siyasi sistemi olmuşdur. Çünki İslamda mənəviyyat hər şeydən ali sayılır, hər şey ona tabe tutulur. Bu baxımdan Qərb sivilizasiyası ilə İslam dünyagörüşü arasında böyük fərq vardır. İslam və Qərb irəliyə doğru addımlamaq mövzusuna fərqli yanaşırlar. Müasir Qərb insanın mənəvi və sosial inkişafını maddi sahədə yeni nailiyyətlərdə və elmi düşüncənin inkişafında görür. İslam isə Qərbdəki maddi-dinamik inkişafın bəşər tarixinə yanaşmasına tamamilə zidd fikir ortaya qoyur. İslam bəşəriyyətin mənəvi potensialını hələ insan təbiətinin formalaşması mərhələsində yaradılan və sabit dəyəri olan kollektiv bütövlük kimi görür.

Fariz Ahmad

# THE PRACTICAL SPIRIT OF THE WEST AND MORAL DEVELOPMENT OF HUMAN IN ISLAM

## SUMMARY

Islamic civilization was the most perfect socio-political system that history ever knew. Spirituality is placed above all in Islam, and everything else is under its' command. If we compare such a position with a similar position of Western civilization, we will be amazed by their difference. Islam and the West differently understand the onward progress. The modern West believes in the possibility of human moral and social growth through new advances in the material sphere and the development of scientific thought. The point of view of Islam is diametrically opposed to the Western materialistic-dynamic approach to the history of mankind. Islam considers the spiritual potential of the mankind as a collective whole with a constant value that was laid already at the stage of the formation of human nature.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

# TƏFSİR ELMİNİN YARANMASI VƏ YAYILMASINA ÜMUMİ BAXIŞ

**_Fuad NURULLAYEV,_**
_Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini,_
_fəlsəfə üzrə fəlsəfə doktoru_

**_AÇAR SÖZLƏR:_** _Allah, Qurani-Kərim, təfsir, Məkkə mədrəsəsi, Mədinə mədrəsəsi, Kufə mədrəsəsi._
**_КЛЮЧЕВЫЕ СЛОВА:_** _Аллах, Коран, тафсир, медресе Мекка, медресе Медина, медресе Куфа._
**_KEY WORDS:_** _Allah, Quran, interpretation, madrasas of Mecca, madrasas of Medina, madrasas in Kufa._

"Mənası açıq olan ərəb dili ilə" Həzrət Peyğəmbərə (s) nazil olan Qurani-Kərim möminlərin şəxsi və ictimai həyatlarını nizama salan bəzi hökm və ayələri əhatə edir. Ancaq təkcə ərəb dilini bilməklə bu hökmləri tam mənası ilə başa düşmək mümkün deyil. Quran keçmişdəki ümmətlərin, xüsusilə Əhli-kitabın zəlalətə düşdükləri mövzulardan xəbər verir, təhrif etdikləri məsələləri düzəldir və ixtilafa düşdükləri məsələləri həll edir. Həmçinin burada gələcəkdə baş verəcək bəzi hadisələrə və kəşflərə işarə olunur, axirət həyatı haqqında ətraflı məlumat verilir. Quranda mütəşabeh, yəni mənası eynilə deyildiyi kimi olmayan, bənzətmələr və məcazlarla vurğulanan, əsl mənanın dolayı yolla izah olunduğu ayələrə, mübhəm qalmış xüsuslara da rast gəlmək mümkündür. Odur ki, bu Kitabı başa düşmək hamı üçün eyni dərəcədə mümkün deyil [1, s.13]. Bu baxımdan, Qurani-Kərimin təfsirinə ehtiyac vardır.

Hər bir elmin özünəməxsus məqsədi və mövzusu vardır. Təfsir elminin məqsədi isə Quranın əhatə etdiyi zəngin mənaları açıqlamaqdır [2, s.30]. Qurani-Kərimin ilahi qoruma altında olduğu, göndərildiyi andan qiyamətə qədər öz orijinallığını qoruyub saxlayacağı həqiqəti "əl-Hicr" surəsinin 9-cu ayəsində bu şəkildə ifadə olunmuşdur: "**Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu (hər cür təhrif və təbdildən; artırıb-əskiltmədən) qoruyub saxlayacağıq!"** [3]. Bununla belə, Quran ayələri işığında reform hərəkətlərinə baş vurulması və müasir məsələlərin ələ alınması təfsirdə yeni dövrün başlanması və yeni təfsir cərəyanlarının meydana çıxmasına səbəb olmuşdur.

Qeyd etmək lazımdır ki, "təfsir" sözü etimoloji baxımdan "fəsr" kökündən olub, "təfil" babında məsdərdir. "Fəsr" lüğətdə "bir şeyi izah etmək", "ortaya çıxarmaq", "üstüörtülü bir şeyi açmaq" kimi mənalara gəlir [4 s.632]. Eyni zamanda, bu söz çoxluq mənasına dəlalət edən artırılmış bir qəlibdən gəldiyi üçün "fəsr"in ən qüvvətlisidir və "tam açmaq", "açıqlığa çıxarmaq", "izahına qovuşdurmaq" mənalarını da ifadə edir. "Fəsr" sözü Qurani-Kərimdə də

bu mənada işlədilmişdir [5, s.20]. **“(Ya Rəsulum! Müşriklər) sənin yanına gəlib elə bir məsəl çəkməzlər ki, Biz sənə (onun) doğrusunu və (onların gətirdikləri misallardan) izahatca daha yaxşısını gətirməyək”** [3, “Furqan”, 33].

Ancaq ərəb filoloqlarının bir qisminə görə təfsir “səfr” kökündən əmələ gəlmişdir. Buna görə, kəlmədə hərflərin yerdəyişməsi baş vermişdir. “Səfr” məsdəri də ərəblər arasında “bağlı olan bir şeyi açmaq”, “aydınlatmaq”, “ortalığa çıxartmaq” kimi mənalarda işlədilməkdədir. Bu səbəbdəndir ki, qadın üzünü açdıqda ərəblər “səfərətil-məratu” deyirlər.

Emin əl-Xuliyə görə, həm “fəsr”, həm də “səfr” məsdərlərinin ikisində də “kəşf etmək”, “açığa çıxarmaq” mənaları olsa da, “səfr” kəlməsi ilə maddi, “fəsr” kəlməsi ilə isə mənəvi kəşf nəzərdə tutulur. Bu səbəbdən mənəvi olduğuna görə “təfsir” “fəsr” kökündən əmələ gəlmişdir.

Qurani-Kərimin təfsiri dedikdə ağıla ilk olaraq Həzrət Peyğəmbər (s) gəlir. Çünki o, təbliğlə yanaşı, təbyin vəzifəsi ilə də mükəlləf idi. Müqəddəs Kitabımızda Allah Rəsuluna (s) bununla bağlı belə xitab olunur: **“Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni (Quranı) təbliğ et. Əgər (bunu) etməsən, (Allahın) risalətini (sənə həvalə edilən elçilik, peyğəmbərlik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz!”** [3, “Maidə”, 67].

**“Biz onları (peyğəmbərliklərinin doğru olduğunu sübut edən) açıq-aşkar möcüzələr və kitablarla göndərdik. Sənə də Quranı nazil etdik ki, insanlara onlara göndəriləni (hökmləri, halal-haramı) izah edəsən və bəlkə, onlar da düşünüb dərk edələr!”** [3, “Nəhl”, 44].

Həzrət Məhəmmədin (s) Qurana dair bəyanlarının sayı mövzusunda alimlər fərqli fikirlər irəli sürmüşlər. Bir qrup alimə görə, Allah Rəsulu (s) Quranın yalnız bəzi ayələrini təfsir etmişdir. Bu fikri Qəzzali irəli sürmüş, Süyuti isə onu dəstəkləmişdir.

Başqa bir qrupun fikrincə isə Məhəmməd peyğəmbər (s) Quranı bütünlüklə təfsir etmişdir. Bu fikri ilk dəfə İbn Teymiyyə irəli sürmüşdür.

Rəvayət və təfsir kitablarındakı məlumatlara əsasən belə nəticəyə gələ bilərik ki, Həzrət Peyğəmbər (s) Quranı bütünlüklə təfsir etməmişdir.

Allahın Rəsulunun (s) Quranı təfsir etməsi aşağıdakı yollarla baş vermişdir:

- Ayəni oxuyaraq təfsir etməsi: Məhəmməd peyğəmbər (s) əshabını məlumatlandırmaq məqsədi ilə ayəni oxuyur, sonra isə onu təfsir edirdi.
- Suallar soruşaraq təfsir etməsi: Rəsulullah (s) bəzən qulaq asanların diqqətini cəlb etmək üçün ayə haqqında suallar soruşar, sonra onu təfsir edərdi.
- Sözünə dəlil olsun deyə ayə oxuyub təfsir etməsi: Allahın Rəsulu (s) bir hökmü çatdırdıqdan sonra və ya bir nəsihətin ardınca həmin xüsusla əlaqəli bir ayə oxuyar, sonra təfsir edərdi.
- Səhabənin suallarına əsasən ayələri təfsir etməsi: Qaynaqların bildirdiyinə görə, səhabələr bəzi ayələrlə əlaqəli Peyğəmbərə (s) suallar verərdilər, Rəsulullah (s) da cavab olaraq ayəni təfsir edərdi.

Aşağıda Həzrət Məhəmmədin (s) Qurani-Kərimin təfsirinə dair verdiyi bir neçə nümunəni təqdim edirik: **“(Ya Rəsulum!) De: “Gəlin Rəbbinizin sizə nələri haram etdiyini deyim: Ona heç bir şərik qoşmayın; ata-anaya yaxşılıq edin; kasıblıq üzündən uşaqlarınızı öldürmə-**

**yin. Sizin də, onların da ruzisini Biz veririk. Açıq və gizlin pis işlərə yaxın düşməyin. Allahın (qətlini) haram buyurduğu cana qıymayın (müsəlman və ya əhli-zimməni haqsız yerə öldürməyin). (Allah) bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb anlayasınız!"** [3, "Ənam", 151] ayəsi ilə əlaqədar Həzrət Peyğəmbər (s) belə bir izah gətirmişdir: "Allahdan başqa tanrı olmadığına və mənim Allahın rəsulu olduğuma iman edən heç bir müsəlmanın qanı halal olmaz. Ancaq bu üç şeydən birini edərsə xaric: adam öldürmək, evli ikən zina etmək və dindən çıxıb müsəlmanlardan ayrılmaq" [6, "əl-Qəsamə", 6].

**"Yaxşı işlər görənləri Cənnət və daha artıq mükafat (Allah rizası) gözləyir. Onların üzünə nə bir toz (ləkə), nə də bir zillət qonar. Onlar cənnətlikdirlər və orada əbədi qalacaqlar!"** [3, "Yunus", 26] ayəsindəki "artıq"lıq Allah Rəsulunun (s) bildirdiyinə görə, möminlərin Cənnətdə Allahın camalını görmələridir. Rəvayətə görə, peyğəmbər, "cənnətlik olanlar oraya daxil olanda Uca Allah buyurur: "Əlavə bir şey istəyirsinizmi?" Sonra Allah camalını onlara göstərir. Artıq onlar Rəblərinə baxmaqdan daha sevimli bir nemət görməzlər" [1, s.54; 7, s.234] buyurmuş, sonra da həmin ayəni oxumuşdur.

Peyğəmbərdən (s) sonra təfsir işini Səhabeyi-kiram davam etdirmişdir. Onlar Allahın Kitabını bilən, onun sirlərinə vaqif olan və onun hidayəti ilə irşadı tapan insanlar idilər. Onlardan müfəssir olanlar çoxdur. Ancaq aralarından on nəfər fərqlənir: Əli ibn Əbu Talib, Abdullah ibn Məsud, Abdullah ibn Abbas, Ubeyy ibn Kəb, Zeyd ibn Sabit, Əbu Musa əl-Əşəri, Abdullah ibn Zübeyr, Salman Farisi, Hüzeyfə ibn əl-Yəman və Əbu Əyyub Ənsari. Səhabələr arasında Abdullah ibn Abbas təfsir elmindəki xüsusi yeri ilə seçilir. Həzrət Məhəmməd (s) öz əmisi oğlu Abdullah üçün belə dua etmişdir: "Allahım, dində onu fəqih et və ona təvili öyrət". Həmçinin Allah Rəsulu (s) onu "Tərcümanül-Quran" adlandırmışdır.

Daha sonra təfsir işini tabiun davam etdirmişdir. İslam dini daha geniş ərazilərə yayıldıqca səhabənin elmdə seçilib-fərqlənən nümayəndələri tədris halqaları qurmuş, Qurandan başa düşdüklərini və Həzrət Peyğəmbərdən (s) öyrəndikləri təfsiri tədris etmişlər. Bu fəaliyyətlərin nəticəsində onların tələbələri olan tabiunun aşağıdakı məktəbləri yaranmışdır:

1. Mədinə mədrəsəsi: Ubeyy ibn Kəb tərəfindən qurulmuşdur. Nümayəndələri: Əbul-Aliyə, Məhəmməd ibn Kəb əl-Qurazi, Zeyd ibn Əsləm.

2. Kufə mədrəsəsi: Abdullah ibn Məsud tərəfindən qurulmuşdur. Nümayəndələri: Məsruq ibn əl-Əcda, Əsvəd ibn Yezid, Mürrə ibn əl-Həmədani, Amir əş-Şabi, Həsən əl-Bəsri, Qətadə ibn Diamə, İbrahim ən-Nəhai. Qeyd etmək lazımdır ki, Kufə mədrəsəsi rəy mədrəsəsi olaraq tanınır.

3. Məkkə mədrəsəsi: Abdullah ibn Abbas tərəfindən qurulmuşdur. Nümayəndələri: Said ibn Cubeyr, Mücahid ibn Cəbr, İkrimə, Ata ibn Əbi Rabah, Tavus ibn Keysan [1, s.21-22].

Ancaq təfsir elmi ətbaut-tabiun dövründə formalaşmışdır. İlk təfsir kitabı yazanın Fərra (vəfatı: 207/822) olduğu haqqında mülahizələr yayılsa da, bu fikir təsdiqini tapmamışdır. İlk təfsir kitabının müəllifi kimi Müqatil ibn Süleyman (vəfatı: 150/767) tanınır [1, s.24].

Müsəlmanlar ilk dövrlərdə daha çox gündəlik və praktik mövzularla əlaqəli ayələrə yönəlirdilər. Bu mövzular daha çox etiqad, ibadət, əməli hökmlər və əxlaqla əlaqədar idi. Ancaq sonralar inanc və düşüncə ilə əlaqəli ayələr ön plana çıxmış, Quran qissələri, əxlaq və nəfs tərbiyəsinə dair mövzular müzakirə obyektinə çevrilmişdir. Quranın elmi və sosial yönləri ilə

əlaqəli ayələrə yönəlmələr isə daha sonralar baş vermişdir.

Quranın verdiyi məlumatlar heç bir mövzu ayrılığına tabe tutulmamış, əksinə, birlik içərisində təqdim olunmuşdur. Yəni, məsələn, fiqhlə əlaqəli ayələr insanların nəzərinə imanla əlaqəli ayələrdən ayrı çatdırılmamış, bütünlüyə riayət olunmuşdur. Halbuki sonrakı dövrlərdə bu mövzular insanlar tərəfindən ayrılmağa məhkum olunmuş və onlardan biri digərlərinə nisbətən irəli çəkilmişdir. Bu isə Qurana yönəlmədə fərqliliklərə səbəb olmuşdur.

Qurana yönəlmədə fərqliliyin iki əsas səbəbi vardır:

Birincisi: Quranın ləfzindən və üslubundan qaynaqlanan ixtilaf

a) Qiraət ixtilafları;

b) Bəzi ayələrin mütəşabeh olması;

aa) Sözlərdəki mütəşabehlik;

bb) Mənadakı mütəşabehlik;

cc) Həm söz, həm də mənadakı mütəşabehlik;

dd) Həqiqət və məcaz ixtilafları.

İkincisi: Təfsirçilərdən qaynaqlanan ixtilaflar

a) İnsan olması xüsusiyyətindən qaynaqlanan ixtilaflar;

b) Vəzifəsindəki kimliyindən qaynaqlanan ixtilaflar [8, s.39-40].

Təfsir elminin əsas məqsədi Qurani-Kərimdəki müşkül olan sözlərin mənasını kəşf etmək və Quranın mesajını doğru şəkildə insanlara çatdırmaqdır. Yəni təfsirin qayəsi hidayətin yollarını açıq-aşkar şəkildə insanlara göstərməklə onların dünya və axirətdə xoşbəxtliyini təmin etməkdir.

Bütün təfsir cərəyanlarına müəyyən vaxtlarda qarşı çıxanlarla yanaşı, Müqəddəs Kitabımızı təfsirə yönələn hər cərəyanda zənginlik və məntiq tapanlar da olmuşdur. Bu cərəyanlarda görünən fərqliliklər onların çatışmazlığı deyil, əksinə, insanların hər cür ehtiyaclarına cavab verə bilməsi üçün Qurani-Kərimin hərtərəfli kitab olduğunu, məhz elə insanlar üçün nazil olduğunu sübut etməkdədir.

İslamın öz təməlindən yaranıb, lakin kənar müdaxilələrlə formalaşmış Qurani-Kərim təfsirlərinə bütün təfərrüatı ilə zamanlarındakı elmi və mədəni fəaliyyətləri ilə müfəssirin yaşadığı cəmiyyətin vəziyyətlərini əks etdirən bir ayna gözüylə baxılmalıdır.

Bunun üçün təfsirlər sadəcə müqəddəs Kitabın açıqlaması kimi görülməməli, eyni zamanda onların bir cəmiyyətin sosial, mədəni, elmi tarixi üçün ən mühüm qaynaqlardan olduğu nəzərdən qaçırılmamalıdır. Fərqli səbəblərlə cəmiyyətin ehtiyacları artdıqca bu yeni ehtiyaclara cavab verəcək Quran-Kərim təfsir cərəyanlarının da davam edəcəyi inkarolunmaz həqiqətdir.

Qurani-Kərim təfsirləri rəvayət və dirayət təfsirləri olmaqla iki yerə bölünür. Rəvayət təfsiri Quranın özünə, hədislərə, səhabə və tabiun rəvayətlərinə görə müqəddəs Kitabın şərh edilməsidir. Dirayət və ya rəy təfsirlərində isə yuxarıda qeyd olunanlarla yanaşı, müfəssirin öz görüşlərinə də yer verilir. Nəzər saldıqda görürük ki, dirayət təfsirlərinə daha çox müraciət olunur. Bunlarla yanaşı, fiqhi, kəlami, təsəvvüfi, fəlsəfi və lüğəvi təfsir cərəyanları da mövcuddur.

Fiqhi təfsir cərəyanının mənsubları Qurani-Kərimin əhkam ayələrini əsas götürüb dəyərləndirirlər. Kəlami təfsir cərəyanı isə Qurandakı inancla əlaqəli ayələri öyrənir.

Təsəvvüf qəlbdən dünyaya aid hər şeyi atıb, onun yerinə Allah sevgisini yerləşdirənlərin yoludur. Onların Qurani-Kərim ayələrini təfsir edərkən ilham və kəşf yoluna müraciət etmələri təfsirdə yeni cərəyanın meydana gəlməsinə gətirib çıxarmışdır. Bəzi filosofların məsələləri ələ alarkən bir sıra Quran ayələrinə yer verib onları təfsir etməsi isə fəlsəfi təfsir cərəyanının yaranması ilə nəticələnmişdir.

Quranın ərəb dili qayda-qanunlarına görə olan təfsiri isə lüğəvi təfsir cərəyanına aiddir.

Müasir təfsir cərəyanlarından bəhs edərkən yenilikçi, ictimai, ədəbi, mübarizə, elmi və mövzulu təfsir cərəyanlarının adlarını çəkə bilərik. Yenilikçi təfsir cərəyanının qurucusu Əhməd Xan Avropa həyat standartlarını və təhsil metodunu İslam aləminə tətbiq etməyə cəhd göstərən islahatçı olmuşdur. İctimai təfsir cərəyanı isə Qurani-Kərimin hidayət yönünü ön plana çıxaran cərəyandır. Quran ədəbi üslubun zirvəsində endiyi üçün ədəbi təfsir cərəyanı mənsubları ədəbi metodu hər şeydən əvvələ çəkmiş və təfsirdəki başqa şeylərin bundan sonra gəldiyini iddia etmişlər. Mübarizə təfsiri cərəyanının qurucusu Seyyid Qutub cəmiyyətləri müsəlman və cahiliyyə olaraq iki yerə ayırmış, cəmiyyətdə islami prinsipləri hakim mövqeyə gətirmək üçün mübarizə aparmışdır. Bəzi müfəssirlər isə Quranın insanları təfəkkürə, təbiətdəki hadisələrə baxmağa dəvət edən ayələri əsas götürərək bütün elmlərin Qurandan qaynaqlandığını iddia etməkdədirlər. Bu müfəssirlərin yazdıqları əsərlər elmi təfsir cərəyanına aiddir. Mövzulu təfsir təfsir cərəyanı olmamaqla bərabər, Qurani-Kərimin başa düşülməsində mühüm bir metoddur. Burada müəyyən bir mövzu haqqında Quranın müxtəlif ayələrində dağınıq halda olan məlumatlar bir yerə toplanaraq sistemli şəkildə təqdim olunur.

Müqəddəs Quranın müxtəlif yönlərini tədqiq edən təfsir cərəyanları sayca çox görünsə də, əslində, hamısının tək hədəfi Qurani-Kərimi başa salmaqdır. Bir şəhərə müxtəlif istiqamətlərdən çoxlu yol gedə bilər, ancaq sonda hamısının birləşdiyi bir nöqtə var. Təfsir cərəyanları da Qurani-Kərimin müxtəlif yönlərini öyrənməyi məqsəd seçsə də, hamısının istəyi Qurani-Kərimin anlaşılmasına xidmət etmək və insanları Onun hidayəti ilə tanış etməkdir.

# ƏDƏBİYYAT


**1.** Davut Aydüz. Tefsir. Tarihi, Çeşitleri ve Konulu Tefsir. İstanbul: 2000.

**2.** Muhsin Demirci. Tefsir tarihi. İstanbul: 2003.

**3.** Qurani-Kərim (ərəb dilindən tərcümə edənlər: akad. Z.M.Bünyadov və akad. V.M.Məmmədəliyev). Bakı: 2017.

**4.** Rağib əl-İsfəhani. Müfradatul-Quran. Beyrut: tarixsiz.

**5.** Sadreddin Gümüş. Kuran tefsirinin kaynakları. Ankara: 1991.

**6.** Əbu Abdullah Muhamməd ibn İsmail əl-Buxari. Səhihi-Buxari. İstanbul: Çağrı yayınları, 1992.

**7.** Əbu İsa Muhəmməd ibn İsa ət-Tirmizi. Sünəni-Tirmizi. İstanbul: 1992.

**8.** Celal Kırca. İlimler ve yorumlar açısından Kurana yönelişler. İstanbul: 1993.

Фуад Нуруллаев

## ОБЩИЙ ВЗГЛЯД НА СОЗДАНИЕ И РАСПРОСТРАНЕНИЕ НАУКЕ ТАФСИРА В ИСЛАМЕ

РЕЗЮМЕ

С первых дней мусульмане старались правильно понимать Коран. Изначально одной из их обязанностей был Табюн, то есть изучение разъяснений платов божественной книги. Во времена Хазрата Мухаммада он толковал сам, а после него сподвижники, далее их последователи. Затем последовала изучение неразъясненных аятов Корана. Появились еще другие методы изучения тафсира, такие как: словарь, толкование, философия, нахив, фикх, мазха**б**, тасаввуф.  В последующие времена они расширяли свои познания в изучении религиозных доктрин благодаря своим стараниям.

Fuad Nurullayev

## AN OVERVIEW ON THE ESTABLISHMENT AND SPREAD OF THE SCIENCE OF INTERPRETATION

SUMMARY

Since the early days of the emergence of Islam, Muslims endeavored for the true understanding of Quran. Initially one of their tasks was tabyin which refers to the clarification of the divine book.  At the time of the Prophet Muhammad, the prophet himself interpreted the Quranic verses, but afterwards his companions, and then followers continued this process. Later it was followed by the study of uninterpretable verses of Quran. And then different methods of interpretations such as glossary, commentary, philosophy, nahw, fiqh, madhab and tasawwuf were established. During the following years they expanded their knowledge in the study of religious teachings through their efforts.

# QURANİ-KƏRİMDƏ İQTİSADİ PRİNSİPLƏR

***Müzəffər MƏMMƏDOV,***
*ADİU-nun dosenti, i.e.f.d.,*
*Azərbaycan Respublikasının Əməkdar*
*Müəllimi, "Qızıl Qələm" mükafatı Laureatı,*
*muzmam@mail.ru*

***AÇAR SÖZLƏR:*** *İslam, Qurani-Kərim, iqtisadi prinsiplər, təmiz ticarət, ölçü və çəki, sələmçilik, vergi sistemi.*

***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Ислам, Коран, экономические принципы, правильный торг, размер и вес, ростовщичество, налоговая система.*

***KEY WORDS:*** *Islam, Quran al-Kareem, economic principles, proper trade, measure and weight, moneylending, tax system*

İslamın təməl prinsiplərinin dəyişməzliyi və sosial qaydalılıq sonuncu səmavi dinin xarakterik xüsusiyyətlərindəndir. Bu isə öz növbəsində mövcud Qərb iqtisadi modellərinin adekvat istifadəsini imkansız edir. Çünki İslam iqtisadiyyatı modeli Qurani-Kərimdə əsasını tapan prinsiplərdən qaynaqlanır . İslamda iqtisadi və idarəetmə sistemi rəqabətdən daha çox, birgə əməkdaşlığa, kooperativ əməyə üstünlük verir. Bu əməkdaşlığın əsas məqsədi ümumi fayda əldə edilməsi, cəmiyyətin rifahına nail olunması, kasıbçılığın aradan qaldırılması, həmçinin iqtisadi sahədə rəğbət və alicənablığın yaradılmasıdır. İslam iqtisadiyyatını müəyyən münasibətlər sistemi kimi ələ aldıqda, buraya hər şeydən əvvəl, əmlak, mülkiyyət, torpaq, icarə, ticarət, maliyyə-kredit və bank işi ilə bağlı iqtisadi münasibətləri daxil etmək olar.

İqtisadi münasibətlərin dayanıqlı tənzimlənməsi İslam qanunvericiliyinin mühüm cəhətlərindən biridir. Burada insan Allaha məxsus təbii resursların müvəqqəti sahibi, istifadəçisi və istehlakçısı kimi çıxış edir. Sosial-iqtisadi prosesləri nəzarətdə saxlayan dövlət isə təbii sərvətlərin satışından əldə edilən gəlirləri öz vətəndaşları arasında bərabər bölür. İslam iqtisadiyyatının fundamental fərqləndirici cəhətlərindən birini də faizsiz maliyyə sisteminə malik olması təşkil edir. Qurani-Kərimdə buyurulur ki, bütün müsəlmanlar qardaşdırlar. Buna görə də onlar arasında istismar ola bilməz. İslam dininə görə, faiz isə birbaşa istismardır. Onun tətbiqi ilə insanların likvid vəsaitləri əlindən alınır, onların əmlakı mənimsənilir [1, s.3].

İslamda əmlak və mülkiyyət münasibətləri olduqca dərin, səlis və məntiqi-elmi ardıcıllıqla, mənimsənilmə, istifadə olunma və sərəncam vermə ilə bağlı prinsiplərlə müəyyənləşdirilmişdir. Şəriət vasitəsilə tənzimlənən əmlak və mülkiyyət hüquqları həm sahib olma prinsipini, həm sərəncam vermə, həm də istifadə etmə üsulunu əsaslandırır. Halallıq çərçivəsində əmlakın əldə edilməsi və ondan faydalı şəkildə yararlanma mülkiyyətdən istifadə hüququ üçün çox tutarlı əsas yaratmışdır.

Müxtəlif əmlak və mülkə malik olan insanlar onlara verilən nemətlərlə biri-birilə ünsiyyətə girirlər. İslamda əmlak və mülkiyyətə olan münasibət hər şeydən əvvəl müxtəliflik əsasında meydana gəlir. Qurani-Kərimin "Maidə" surəsinin 48-ci, "Səcdə" surəsinin 18-ci, "Zumər" surəsinin 9-cu,

"Fussilət" surəsinin 34-cü ayələrində insan fəaliyyətinin müxtəlifliyi birbaşa göstərilir. Bu fəaliyyət müxtəlifliyi ilə bağlı olan əmlak müxtəlifliyi insanların davranışında da seçmə və ondan faydalanma imkanı verir. Düzdür, "Ali İmran" surəsinin 26-cı ayəsində göstərilir ki, **"(Ya Rəsulum!) De: "Ey mülkün sahibi olan Allah! Sən mülkü istədiyin şəxsə verər, istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan. Xeyir yalnız Sənin əlindədir..."** Lakin əmlak və mülkün səviyyəsindən asılı olmayaraq insanlar öz davranışlarında ədalət prinsipini unutmamalı, sahib olduqlarını düzgün şəkildə istifadə etməklə həm mənəvi, həm də maddi cəhətdən fayda götürməklə yüksəlməlidir.

Qurani-Kərim hazırda 1,7 milyarddan çox insanın müqəddəs kitabı, ərəb ədəbi dilinin ən möhtəşəm abidəsi, səmavi kitabların ən sonuncusu və mükəmməlidir. İslamın birinci və ən başlıca mənbəyi Qurandır. İslam sivilizasiyası, mədəniyyəti, elmləri, əxlaqı, fikri, hüququ, incəsənəti bu müqəddəs kitab əsasında təşəkkül tapmışdır. Qurani-Kərimin əsas iqtisadi prinsiplərinin öyrənilməsi və həmin prinsiplərə riayət edilməsi isə iqtisadi inkişafa və tərəqqiyə aparar. Məqalədə bu prinsiplərin, o cümlədən iqtisadi ideyaların bəzi məqamlarına aydınlıq gətirilməyə çalışılımışdır.

**1. Ölçü və çəkidə dəqiqlik**

Ölçü və çəkidə düzgünlük prinsipinə Qurani-Kərimin bir çox ayəsində toxunulur:

**"...Ölçüdə və çəkidə düz olun..."** [2, "Ənam",152];

**"...Ölçüdə və tərəzidə düz olun. Adamların mallarının dəyərini (və ya onların haqqını) azaltmayın..."** [2, "Əraf", 85];

"Vay halına çəkidə və ölçüdə aldadanların! O kəslər ki, özlərini insanlardan (bir şey) aldıqları zaman onu tam ölçüb alar, Onlar üçün ölçdükdə və ya çəkdikdə isə (onu) əskildərlər" [2, "Mutaffifin", 1-3]. Bunlarla yanaşı, "Hud" surəsinin 86-cı, "İsra" surəsinin 35-ci, "Şuəra" surəsinin 181-ci ayələrində də bu amilə diqqət çəkilir.

Müasir elm sübut edir ki, bütün dünya ölçü üzərində qurulmuşdur. Müqəddəs Kitabımızda göstərilən "ölçü" ilə daha geniş məna nəzərdə tutulur. Təbiətdə, cəmiyyətdə və insan həyatının hər hansı bir sahəsində ölçü pozularsa, hazırkı iqtisadi təfəkkürlə tənzimləmə itərsə, cəmiyyət də pozulacaq, dağılacaq və məhv olacaqdır.

**2. Sələmçiliyin qadağan edilməsi**

Allah-Təalanın Qurani-Kərimdə haram buyurduğu əməllərdən biri sələmçilikdir: **"Sələm (müamilə, faiz) yeyənlər (qiyamət günü) qəbirlərindən ancaq Şeytan toxunmuş (cin vurmuş dəli) kimi qalxarlar. Bunların belə olmaları: "Alış-veriş də sələm kimi bir şeydir!" – dedikləri üzündəndir. Halbuki, Allah alış-verişi halal, sələm (faiz) almağı isə haram (qadağan) etmişdir..."** [2, "Bəqərə", 275]; **"Ey iman gətirənlər! Sələmi (borc üzərinə qoyduğunuz faizi) qat-qat artırıb yeməyin. Allahdan qorxun ki, bəlkə, nicat tapasınız!"** [2, "Ali-İmran", 130].

Dünya iqtisadi təcrübəsi göstərir ki, Quranın əsas prinsiplərindən yayınmaq, bunlara əhəmiyyət verməmək böyük iqtisadi fəsadlar yaradır və iqtisadi böhranlara gətirib çıxarır. 2008-ci il dünya maliyyə böhranı nəticəsində neftin qiyməti kəskin şəkildə aşağı düşmüş, ölkələrin milli valyutaları dəyərini itirmiş, neft ixrac edən ölkələrin qızıl-valyuta ehtiyatları azalmış, inflyasiya artmış və qiymətlər bahalaşmışdır. Bunun əsas səbəblərindən biri kimi banklar tərəfindən verilən

kreditlərin (sələmçiliyin) süni və şişirdilmiş faiz dərəcələri, nəticədə dövriyyədə pul kütləsi artıqlığının yaranması və əhalinin pul ehtiyatlarının dəyərdən düşməsi göstərilir.

Son 60-70 ildə sələmçilikdən imtina etmiş, İslamın sələmçiliyi qadağan edən prinsipinə əməl edən, işgüzar fəaliyyətdə nəzərdə tutulan layihələrdə öz payı və fəaliyyəti ilə iştirak edən İslam banklarının yaranması, sayının artması və əhəmiyyəti bu istiqamətdə mütərəqqi, innovativ, perspektivli addımlardan biridir. "Hal-hazırda müsəlman ölkələrindən olan İranda, Sudanda, Malaziyada, Bəhreyndə, Körfəz ölkələrində və dünyanın müxtəlif yerlərində İslam qaydaları ilə fəaliyyət göstərən banklar mövcuddur. Bəzi iqtisadçılar ilk İslam bankları yaradılanda faizsiz işlədiyi üçün onların tez iflas edəcəyini düşünürdülər. Ancaq dünya maliyyə böhranı vaxtı İslam banklarının iflas əvəzinə depozitlərini artırması sübut edir ki, onların fəaliyyət davamlılığı digər banklarla nisbətdə daha güclüdür. 1990-cı il fevral ayının 26-da Bəhreyndə İslam Maliyyə Təşkilatı təsis edildi. Bu artıq dünya bank sistemində İslam bankçılığının özünü doğrultduğunu göstərirdi. Bundan sonra 1991-ci ildə İndoneziyanın ilk İslam bankı "Muamalat Bank"quruldu. 2000-ci ilə kimi isə təxminən 200-ə yaxın İslam Maliyyə Təşkilatı yaradıldı. Onların 40%-i Şərqdə, 20%-i Afrika ölkələrində, qalan 40%-i isə Amerika və Avropa ölkələrində idi. Bu İslam bankları ənənəvi banklardan fərqlənir. Klassik bankların gəlirlərinin formalaşmasında faizli gəlir gətirən aktivlər üstünlük təşkil etdiyi təqdirdə, İslam bankları əməliyyatları faizsiz aparır və İslam iqtisadiyyatı qarşısında duran vəzifələrin icrasında fəal iştirak edirlər".

**3. İsrafçılığa yol verməmək**

İsrafçılıq Allah verən ruzini dağıtmaqdır. Çəkilən zəhməti bada verməkdir. Ehtiyacı olanları görməmək və nemətə qarşı nankorluqdur. İsrafçılıq yoxluğa gedən yoldur. Uca Yaradan Quranda buyurur ki, **"Sizə verdiyimiz ruzilərin təmizindən (halalından) yeyin, lakin bunda həddi aşmayın (israfçılıq, xəsislik və nankorluq etməyin, ehtiyacı olana şəri qayda üzrə kömək göstərin), yoxsa qəzəbimə düçar olarsınız..."** [2, "Taha", 81]. İsrafçılığın qarşısının alınması yeni dəyərin yaranmasına səbəb olur və nəticədə əlavə məhsul ortaya çıxır. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) 2019-cu ilin əvvəlinə verdiyi məlumata görə, dünyada 56 milyon insan aclıqdan əziyyət çəkir. Təəssüf ki, bunların əksəriyyəti Əfqanıstan, Yəmən, Suriya, Sudan və s. kimi siyasi sabitliyi olmayan və savadsızlıq səviyyəsi yüksək olan müsəlman ölkələridir.

**4. Vergilərin mütləqliyi**

Dünyada ilk vergi sistemi qədim Misirdə tətbiq olunmuşdur. Tövrat və Bibliya kimi müqəddəs kitablarda da vergilər barədə təsvirlər mövcuddur. Fars imperiyası dövründə, e.ə. 500-cü ildə Böyük Dara tərəfindən nizama salınan sabit vergi sistemi həyata keçirilmişdir.

İslam dini də nazil olduğu ilk dövrlərdən etibarən "zəkat", "xüms", "fitrə" kimi vergilər tətbiq etmişdir. Bu barədə Qurani-Kərimdə buyurulur: **"(Ya Rəsulum!) Onların mallarından sədəqə (zəkat) al. Bununla onları (günahlarından) təmizləmiş, pak etmiş (mallarına bərəkət vermiş, əməllərinin savabını artırmış) olarsan..."** [2, "Tövbə", 103].

İslam dininin beş şərtindən biri zəkatdır. Ərəb dilindən tərcümədə zəkat "çoxaltmaq",

"təmizlik" deməkdir. Quran zəkatı vacib buyurmuş, onun yığılma qaydası və həcmi şəriət qanunları ilə müəyyənləşdirilmişdir. Ənənəvi İslam vergi sistemində zəkat və xümsün həddi dəqiq göstərilsə də, dövlət vergilərindən fərqli olaraq, onun ödənilməsinə heç kim və heç bir orqan tərəfindən nəzarət edilmir. Bu məsələ insanın özü ilə Allah arasında baş verir.

**5.Əməksevərlik**

Əmək – fərdin və cəmiyyətin tələbatını ödəmək üçün insanın məqsədyönlü, maddi (fiziki əmək) və qeyri-maddi (əqli əmək) fəaliyyətidir. O, insanı ucaldır və inkişaf etdirir. İnsan öz əməyi, işi və əməli ilə tanınır. Müqəddəs Kitabımızda da buyurulur ki, **"İnsana ancaq öz zəhməti (səyi, çalışması, əməli) qalar!"** [2, "Nəcm", 39]. Digər bir ayədə isə deyilir: **"Gecə və gündüz yatıb dincəlməyiniz (gecə istirahət etməyiniz, gündüz əlləşib çalışmağınız), nemətindən ruzi (qismətinizi) axtarmanız da Onun qüdrət əlamətlərindəndir..."** [2, "Rum", 23].

Odur ki, əgər zəhmət çəksən, əmək sərf etsən, tər töksən, dağın içindən qızıl, dəryanın içindən balıq, torpaqdan buğda, daşdan su çıxar. Çünki Allahın bəxş etdiyi nemətlər hamı üçündür. Hamını Allah yaratmışdır və bu nemətlərdə hamının haqqı var. Ruzini verən də Allahdır. Xaliq buyurur ki, səndən hərəkət – məndən bərəkət. Hərəkət etməyənə, işləməyənə və zəhmət çəkməyənə heç nə göydən düşmür, bu nemətlər qazanılmalıdır. Əsas odur ki, bu nemətləri halal yollarla qazana biləsən.

**6. İnsanlara yardım**

Allah rizası üçün yoxsullara verilən sədəqə və yardım dünya malının bərəkətini artırar və Allah tərəfindən mükafatlandırılar.

Yardım təkcə kiməsə verilən qida və ya pul deyil. Kimlərsə tərəfindən tikilib istifadəyə verilən məktəblər, xəstəxanalar, salınan körpülər, çəkilən yollar, ehtiyacı olana savad vermək, oxutdurmaq, sənət öyrətmək və s. yardımların ən gözəli və ən böyüyüdür.

Hazırda bəzi müsəlman ölkələrində mövcud olan iqtisadi geriliyin əsas səbəbi məhz cəhalətdir. Bu vəziyyətdən yalnız həmin ölkələrdə təhsili inkişaf etdirməklə və elmi istiqamət götürməklə çıxmaq olar.

Elm zəhmətlə, əməklə və savadla əldə edilir. Elm Yaradan tərəfindən seçmə insanlara verilən ən dəyərli xəzinədir ki, ondan bütün bəşəriyyət bəhrələnir, xeyir görür, rahatlıq tapır və inkişaf edir.

Nəticə olaraq qeyd etməliyik ki, Qurani-Kərimin ayrı-ayrı surə və ayələrində haram kateqoriyasına aid edilən məhsullar (narkotik maddələr, spirtli içkilər, donuz və ondan hazırlanmış məhsullar və s.) istehsal etmək və satmaq, oğurlanmış və ya zəbt edilmiş malların (mülkiyyətin) alqı-satqısını aparmaq, alınmış və ya götürülmüş malın pulunu verməmək, bazarı inhisarlaşdırmaq və haqsız rəqabət aparmaq, alıcıları çaşdırmaq, qorxutmaq və ya aldatmaq, süni şəkildə artırılmış qiymətlərlə məhsul satmaq, fırıldaq və yalanla qazanc əldə etmək, rüşvət vermək və ya almaq dinimizdə haram sayılır. Qurani-Kərimdə irəli sürülən bu iqtisadi ideyalar və prinsiplər sivil dövlətin və ali insani münasibətlərin əsas bazalarından biridir.

# ƏDƏBİYYAT


1. Hacı Məhəmməd Meybullayev. İslam iqtisadiyyatı. Bakı: Elm. 2001
2. Qurani-Kərim (ərəb dilindən tərcümə edənlər: Ziya Bünyadov, Vasim Məmmədəliyev). Bakı: Azərnəşr, 1991, 648 səhifə.
3. Наука и человечество. Москва: 1995, с. 118.
4. "Azərbaycan" qəzeti, 13 yanvar 2019-cu il, səh. 5.
5. Капинос Р.В. Экономические идеи Корана и практика современного Ислама // Журнал МЭМО, 2009, № 3, с. 99.

Музаффар Маммадов

## ЭКОНОМИЧЕСКИЕ ПРИНЦИПЫ СВЯТОГО КОРАНА


РЕЗЮМЕ

Коран является священной книгой более 1,7 миллиардов людей на свете, самым великолепным достоянием арабско-литературного языка, а также последний из ниспосланных и очень великолепен. Коран также основной источник – Исламской религии. Исламская культура, наука, мораль, права упомянуты в Коране. Указанные экономические принципы в Коране могут способствовать для экономического прогресса в Исламском мире. В статье рассматривается некоторые экономические принципы для их оценки.


Muzaffar Mammadov

## ECONOMIC PRINCIPLES IN QURAN AL-KAREEM


SUMMARY

Quran is the holy book of more than 1.7 billion people, the most magnificent possession of Arabic literary language, and the last holy book revealed by Allah Almighty. Quran is also the main source of Islamic religion. Islamic culture, science, morality and rights are mentioned in this holy book. The economic principles noted in Quran may contribute to the economic progress in Islamic world. The article reviews some economic principles for their assessment.

# QÖVMLƏRİN HƏLAKINI DOĞURAN AMİLLƏR

***Əlirza QAFAROV,***
*Qafqaz Müsəlmanları İdarəsinin*
*Təşkilat şöbəsinin müdiri,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*

***AÇAR SÖZLƏR:*** *Allah, Quran, qəza, qədər, Cəbriyyə, Qədəriyyə, Mötəzilə.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Аллах, Коран, промысл, судьба, Алжир, Гадария, Мутазила.*
***KEY WORDS:*** *Allah, Qoran, providence, fate, gadaria, jabriyat, mutazila.*

Dünyanı abad və ya bərbad etmək insanın öz əlindədir. Bundan doğacaq şərəf və hörmət, yaxud da bunların ziddi də insana və topluma aiddir. Qurani-Kərim bu mövzuda ən açıq hökmü vermişdir: **"(İnsan üçün) onu öndən və arxadan təqib edənlər (mələklər) vardır. Onu (insanı) Allahın əmri ilə qoruyurlar. Hər hansı bir tayfa öz tövrünü (nəfsində olanları) dəyişmədikcə (pozmadıqca), Allah da onun tövrünü (onda olanları, onun əhvalını) dəyişməz. Əgər Allah hər hansı bir qövmə bir pislik yetirmək istəsə, onun qarşısı heç cür alına bilməz və Ondan başqa onların heç bir hamisi də olmaz"** [1, "Rad", 11].

Məhəmməd Əsədə görə, "nəfsində olanlar" ifadəsinin biri mənfi, digəri müsbət olmaqla, iki mənası vardır: "Yəni insanlar öz nəfslərini fəsad və çirkinliklərə tərk etmədikcə Allah da onlardan Öz köməyini və mərhəmətini əsirgəməz. Həmçinin Allah qəsdən günaha yol verənlərə inayət və mərhəmət göstərməz. Geniş mənada bu ifadə həm fərdi, həm də ictimai həyatı formalaşdıraraq yön verən, daşıyıcılarının əxlaqi xüsusiyyətlərinə və daxili aləmlərindəki ruhi/mənəvi formalaşmaya əsasən sivilizasiyaları yüksəldən və ya alçaldan ilahi səbəb-nəticə prinsipini, yəni sünnətullahı dilə gətirir" [2, II, s.487].

İnsanlar fərdi şəkildə öz davranışlarından məsul olduqları kimi, cəmiyyətlər də bütünlükdə davranışlarına görə məsuliyyət daşıyırlar. Onların gələcəkləri etdikləri davranışlar əsasında müəyyənləşir. Çünki azad iradələrini işlədərək seçimi özləri etmişlər.

İnsanları həlaka aparan əsas səbəblər kin, nifrət, intiqam və düşmənçilik kimi duyğulardır. Bu çirkinlikləri adət halına çevirən hər fərd həm hüquq, həm də Allah qarşısında cavab verməyə məhkumdur. Buna görə də insan Allahın ona bəxş etdiyi nemətlərdən, verdiyi səlahiyyətlərdən sərhədi aşmadan istifadə etməlidir. Uca Yaradanın təyin etdiyi şərtlərdən xaricə çıxan hər bir fərd yaşadığı cəmiyyətin əxlaqi quruluşuna mənfi təsir göstərir. Çünki cəmiyyət fərdlərdən təşkil olunmuşdur [3, s.428].

Qurani-Kərimin məqsədi adil və əxlaqi təməllərə söykənən bir cəmiyyət qurmaqdır. Ancaq Müqəddəs Kitabımızda göstərilir ki, bu əxlaqi təməllərdən imtina edən bütün cəmiyyətlər həlaka məhkum olmuşlar. Odur ki, Qurani-Kərim qövmlərin həlak olma səbəblərini bütünlüyü ilə ələ almışdır. Biz də məqaləmizdə bu səbəbləri ailəvi, etiqadi, əxlaqi və siyasi olmaqla dörd maddədə incələməyə çalışmışıq.

**I. Etiqadi həlak səbəbi**

Etiqad məsələsinin fərdin və cəmiyyətin mənfi və ya müsbət istiqamətdə formalaşmasında böyük rolu vardır. Belə ki, hər hansı fərq və ya cəmiyyət pozulmuş bir inanca sahib olarsa, onun həyat tərzi və davranışları da pozulacaqdır.

Qurani-Kərim inancsızlıqları ucbatından tarixdən silinib getmiş cəmiyyətlərdən nümunələr vermişdir. Göstərmişdir ki, bütün cəmiyyətlərin yox olmasının başlıca səbəbi onların mənfi davranışları və tutduqları əməllərdə israrlı olmalarıdır. Bu barədə Müqəddəs Kitabımızda buyurulur: **“Onlardan əvvəl məhv etdiyimiz heç bir məmləkət (əhli möcüzələrlə gəlmiş peyğəmbərlərinə) iman gətirmədi. Bunlarmı iman gətirəcəklər?”** [1, “Ənbiya”, 6].

Qurani-Kərimin üzərində durduğu əsas mövzulardan biri tövhiddir. Dinimizdə Allaha şərik qoşmaq ən böyük günahlardan sayılır. Allah Ona şərik qoşan qövmlərə peyğəmbərlər göndərərək tutduqlarının pis əməl olduğunu bildirmiş və bundan uzaqlaşmalarını əmr etmişdir. Ancaq peyğəmbərlərin dəvətini diqqətə almayaraq Allaha şərik qoşmağa davam edən qövmlər özlərinə bildirilən müəyyən müddətdən sonra böyük cəza və həlakla qarşılaşmışlar. Belə ki, şərik qoşmaq məsuliyyətsizlik, ədalətsizlik, haqsızlıq, müəyyən əxlaq normalarını heçə saymaq kimi qövmləri həlak etdirəcək bir çox çirkin davranışların yayılmasına rəvac verir.

Zəməxşəri **“Məmləkətlərin əhalisi əməlisaleh olduğu ikən Rəbbin onları haqsız yerə məhv etməz!”** [1, “Hud”, 117] ayəsində keçən “haqsız” kəlməsinin şərik mənasında olduğunu bildirdikdən sonra bir qövm Allaha şərik qoşsa belə, “muslih” şəxslər olduğu müddətcə Allahın onları həlak etməyəcəyini söyləmişdir [4, II, s.239]. Yəni hər hansı qövm Allaha şərik qoşmağa davam etdiyi müddətcə həlak olmağa məhkumdur. Qurani-Kərimin ifadəsi ilə desək, Allah Öz bəndələrinə yollarını azmadıqca zülm etməz. Haqsızlıq Allaha xas deyildir.

Başqa bir görüşə görə, burada zülm Allahın cəzalandırması ilə əlaqəlidir. Yəni Allah-Təala dürüst davranan qövmü zülm ilə (haqsız yerə) həlak etməz. Əksinə, yaxşı insanları həlak etmək zülmdür. Allah bəndələrinə zülm etməz. Ancaq bəndələr öz zülmləri ucbatından həlak olarlar. Rəşid Rızanın fikrincə, ayədə sadəcə Allaha şərik qoşmaq nəzərdə tutulmamışdır. Ona görə, cəmiyyət Həzrət Şüeybin qövmü kimi ticarətdə hiylə və haqsızlıq edərsə, Hudun qövmü kimi xalqı əzərsə, Lutun qövmü kimi əxlaqsızlıqla məşğul olarsa, onlar əlbəttə zülmü haqq edərlər. Əks təqdirdə, Allah təkcə Ona şərik qoşmaları səbəbi ilə onları həlak etməz. Allaha qarşı çıxaraq şərik qoşmaqla yetinməyib, çirkin işlər, zülm, insanların haqqını çeynəmək və s. işlərə görə Allahın əzabına düçar olarlar. Qurani-Kərim yalan danışmağı, fəsad çıxarmağı, irtidadı (dindən dönmək), nifaqı (dedi-qodu) və s. bunlar kimi bir çox səbəbi etiqadi həlakın başqa önəmli faktorları olaraq görməkdədir.

Müqəddəs Kitabımızda qövmlərin etiqadi həlak olma səbəblərindən biri də peyğəmbərləri yalanlamalarıdır. Peyğəmbərlərin gətirdiyi həqiqətlərə arxa çevirib onların doğru olmadığını, Allah qatından gəlmədiyini ittiham edərək ata-babalarının yolunda davam etmələri o qövmün həlaka uğramalarının biridir.

**“Biz hansı bir məmləkətə peyğəmbər göndərdiksə, onun əhalisini (peyğəmbərləri tanımadıqları üçün bir müddət) müsibətə və bəlaya (xəstəlik, yoxsulluq, qıtlıq, aclıq və s.) saldıq ki, bəlkə, (günahlarını başa düşərək Allaha) yalvarıb-yaxarsınlar!”** [1, “Əraf”, 94].

**II. Əxlaqi həlak səbəbi**

Müasir sivilizasiyanın böyük qazancı ilə yanaşı, böyük qurbanları da olmuşdur. Bunun ən nəzərə çarpan nəticəsi əxlaqi pozğunluqların çoxalmasıdır. Halbuki cəmiyyət əxlaqi təməl olmadan varlığını davam etdirə bilməz. İslamın əxlaqa verdiyi əhəmiyyət də məhz cəmiyyəti, dolayısı ilə onu təşkil edən ayrı-ayrı fərdləri qorumaqdan qaynaqlanır.

Qövmlərin həlaklarından bəhs edərkən Quranın dönə-dönə üzərində durduğu məsələ budur: onlar özlərini böyük görən və təqvanı, yəni məhv olmağa qarşı əxlaqi təminatlarını itirən fərdlər və qruplar halına gəldikləri üçün yox olub getdilər.

Məsələn, Mədyən xalqı özünün ticari hiyləgərlikləri və əxlaqsızlıqları ilə məşhurlaşmışdı. Onlar Həzrət Şüeybin (ə) tənqid və xəbərdarlıqlarını saymayaraq ona küfr edir, onu və ona itaət edənləri uğursuzluq gətirən kəslər kimi qələmə verərək özləri üçün təhlükə sayırdılar. Şüeybi və ona inananları sürgün etməyə qərar vermişdilər, ancaq qorxunc bir sarsıntı onlara doğru gəlib olduqları yerdə diz üstə çökdürdü: **“Elə bu zaman onları dəhşətli bir sarsıntı (yerdən zəlzələ, göydən tükürpədici bir səs) bürüdü və onlar öz evlərində diz üstə düşüb qaldılar (bir göz qırpımında həlak oldular)”** [1, “Əraf”, 91].

Əxlaqi mövzularda seksual pozğunluqlar çox əhəmiyyətli yer tutur. İnsan həyatında çox təsirli gücə sahib olan cinsi motivlər əxlaqi idarə altına alınmadığı, başıboş buraxıldığı təqdirdə fitrətə zidd azğınlıqlara yol aça bilər. Odur ki, dinimiz cinsi arzulara təşviq edən davranışlardan uzaq durmağı, cinsi mesaj ötürən sözlərdən çəkinməyi, insanın ruhi dünyasında və cəmiyyətin mənəvi həyatında pis təsirlər buraxan zina və homoseksuallığı qadağan edir. Qurani-Kərim zinanın haram olduğunu bu şəkildə bildirir: **“Zinaya da yaxın düşməyin. Çünki o, çox çirkin bir əməl və pis bir yoldur!”** [1, “İsra”, 32].

Ancaq belə nəticəyə gəlinməməlidir ki, Qurani-Kərim maddiyyata az əhəmiyyət vermiş, mənəviyyatı isə tamamilə maddi və ictimai vasitələrdən uzaqlaşdıraraq yalnız ona həsr olunmuşdur. Quranın bəhs etdiyi mənəviyyat onun səhifələri arasında mühafizə edilən dünyagörüşü və bu görüşün üzərinə qurulmuş ictimai əxlaq sistemindən törəmişdir. Quranın dünyagörüşü, onun ictimai əxlaqı və bunların nəticəsi olan maddi iqtidar bir-biri ilə qaynayıb-qarışdığı təqdirdə insanlıq üçün mükəmməl tarazlıq təmin edilə bilər.

Məşhur İslam müfəssiri Fəxrəddin Razi dünya həyatında qorunmalı beş önəmli prinsipi və bunların pozulmasına səbəb olan fəsad əməlləri beş maddədə bu şəkildə qeyd etmişdir [5, XIV, s.108]:

1. Nəfsin (bədənin) fəsadı: Öldürmə və orqanları kəsmək ilə olur.
2. Malın fəsadı: Qəsb, oğurlama və müxtəlif hiylələrlə olur.
3. Dinin fəsadı: Küfr və bidətlərlə olur.
4. Soyun (nəslin) fəsadı: Zina, homoseksuallıq və zina böhtanı atmaqla olur.
5. Ağılın fəsadı: Sərxoşluq verən şeylərin içilməsiylə olur.

Quran yalnız özümüzü düzəltməyimizi istəmir, eyni zamanda fitnə-fəsada qarşı mübarizə aparmağımızı da buyurur:

**“Barı, sizdən əvvəlki nəsillərin ağıl və fəzilət (hünər) sahibləri yer üzündə fitnə-fəsad**

**törətməyi qadağan edəydilər! Onların xilas etdiyimiz az bir qismi istisnadır. (Onlar keçmiş peyğəmbərlərin əshabələridir ki, insanlara yaxşı işlər görməyi əmr edər, pis işləri yasaq edərdilər.) Zalımlar isə onlara verilmiş nemətə (dünyanın ləzzətinə) uydular və günahkar oldular”** [1, “Hud”, 116].

Allah-Təala burada keçmiş millətlər daxilində çox az qrupun öz qövmlərində fəsada, pisliyə və nizamsızlığa mane olmağa çalışdığını vurğulayır. Qövmün başına müsibət gəldiyi zaman Allah yaxşı insanları yox olmaqdan xilas edir. Çünki Uca Yaradan cəmiyyətdə yaxşılığı əmr edib pisliklərdən uzaqlaşdıran bir qrupun olmasının vacibliyini vurğulayır.

Qurani-Kərimdə “fitnə öldürməkdən betərdir” [1, “Bəqərə”, 217] buyurularaq fitnənin nə qədər təhlükəli olduğu bizə çatdırılmaqdadır. İbn Ərəbiyə görə, bu ayə müşriklərin haram ayında nazil olmuşdur, döyüşlə əlaqəli onların Həzrət Peyğəmbər (s) və müsəlmanları qınamalarını rədd edir. Uca Allah onlara belə xitab edir: “Allah yolundan kimisə uzaqlaşmağa çağırmaq, Allahı inkar etmək, xalqı Məscidül-Haramdan çıxarmaq Allah dərgahında daha böyük günahdır. Haram ayda fitnə çıxarmaq, yəni küfrə bulaşıb aləmi bir-birinə qarışdırmaq, adam öldürməkdən daha ağır günahdır [6, I, s.207].

Qısası, qövmü ictimai həlaka aparan ən əhəmiyyətli faktorlardan biri olması səbəbilə Qurani-Kərim əxlaq mövzusuna geniş yer vermiş və qövmlərin həyat tərzini xoş, firəvan keçirmələri üçün onlara əxlaq meyarları təqdim etmişdir.

**III. Ailə quruluşunda həlak səbəbi**

Ailələrin dağılmasına səbəb olan əsas faktorlardan biri ailədə sevgi və mərhəmətin olmamasıdır: **“Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda (bu yaradılışda) düşünən bir qövm üçün ibrətlər vardır!”** [1, “Rum”, 21].

Bu ayədə keçən “sevgi və mərhəmət” ifadələri ailə fərdləri arasında olması vacib olan mənəvi əlaqələrə işarə edir. Bu sevgi və mərhəmət qanunu nəslin davamı üçün əsas səbəbdir. Bu qanun ailələrdən meydana gələn cəmiyyət üçün də keçərlidir. Toplum fərdləri arasında bu sevgi və şəfqət qanunu tətbiq olunacağı təqdirdə cəmiyyət sağlam olar [7, XVI, s.166].

Ailənin dağılmasına gətirib çıxaran faktorlardan biri imansızlıqdır. Çünki ailə maddi münasibətlərdən daha çox mənəvi ünsürlərin hakim olduğu bir müəssisədir. Bunların başında iman gəlir - Allaha və axirətə iman şəfqət, sevgi, hörmət kimi ailəvi bağlara öz gücünü qatar. İman məfhumunun hakim olmadığı ailədə daim maddi və mənəvi narahatlıq hökm sürər.

Ailə fərdləri bəzi vəzifələrlə mükəlləfdirlər. Ər-arvadın qarşılıqlı vəzifələri olduğu kimi, onların uşaqlara qarşı da vəzifələri vardır. Uşaqların da ana-ataya və özlərinə qarşılıqlı vəzifələri mövcuddur. Bu vəzifələr yerinə yetirilmədikdə ailə quruluşunda qopuqluqlar başlayır. Əgər evdə “mən” və “sən” ikiliyi meydana gələrsə, çox keçmədən ailə fərdləri bir-birindən bezər və tezliklə rahatlıqları üçün boşanma duyğularına qapılarlar. Allahın icazə verdiyi, lakin xoşlamadığı boşanma hadisəsi cəmiyyətdə də birmənalı qarşılanmır [8, s.68-69].

Valideyn və uşaq əlaqələrinin mənfi yöndə getməsi də ailənin çöküşünə, dağılmasına

gətirib çıxara biləcək səbəblərdəndir. Ailə nizamını bütünlüklə ələ alan Qurani-Kərim uşaqların ana-ataya qarşı necə davranmalı olduqlarını belə açıqlayır: "Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə, onlara: "Uf!" belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış! Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına salıb: **"Ey Rəbbim! Onlar məni körpəliyimdən (nəvazişlə) tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!" – de"** [1, "İsra", 23-24].

Nəticə etibarilə, Qurani-Kərim ailədəki dağılmanın cəmiyyətin də dağılmasına rəvac verəcəyini əsas götürərək bu mövzuya böyük əhəmiyyət vermiş, ayələrdə ailə fərdləri və qohumlar, ümumiyyətlə ailə-cəmiyyət əlaqələrinin necə olmalı olduğundan bəhs edilmişdir.

**IV. Siyasi həlak səbəbi**

İslam ümmətindəki ixtilafın səbəblərini araşdırdıqda bu səbəblərin daha çox siyasi olduğunu görərik. "Maidə" surəsinin "...Bu gün kafirlər dininizdən (onu məhv edə bilmədikləri üçün) əllərini üzdülər. Onlardan qorxmayın, Məndən qorxun! Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi (Məkkənin fəthi, islamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyət dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i. a.) tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim..." şəklindəki 3-cü ayəsindən məlum olur ki, Allah dini tamamlamış, İslam ümmətinin gələcəyini zəmanətə almış, din mövzusunda kafirlərdən deyil, Özündən qorxulmasının vacibliyini vurğulamış, bu baxımdan təqva sahibi olmağın önəminə diqqət çəkmişdir. Bu halda bütün ixtilaf və ayrılıqlar nəfsdən və onun arzularından qaynaqlanmaqda, nəfsinə uyan insanlar haqdan ayrılaraq ixtilaf və təfriqəyə zəmin hazırlamaqdadırlar [9, s.409-410].

Beləliklə, Qurani-Kərimə görə, Yer üzünün həqiqi varisləri əxlaqlı olanlardır. Zülm və azğınlıqda öndə olanlar mütləq yerlərini və yurdlarını başqa millətlərə verərlər. Onlar gedər və yerlərinə özləri kimi olmayan yeni cəmiyyətlər gələr.

# ƏDƏBİYYAT

1. Qurani-Kərim (ərəb dilindən tərcümə edənlər: akad. Z.M.Bünyadov və V.M.Məmmədəliyev). Bakı: 2017.
2. Muhammed Esed. Kur`an mesajı (çeviren: Cahit Koytak, Ahmet Ertürk). İstanbul: 1999.
3. Abdullah Emin Çimen. Kur'an-ı Kerimde helak kavramı (Basılmamış doktora tezi). İstanbul: 2001.
4. Əbül-Qasım Mahmud ibn Ömər əz-Zəməxşəri. Əl-Kəşşaf an həqaiqit-tənzih. Beyrut: 1960.
5. Fəxrəddin Razi. Məfatihul-ğeyb.
6. Əbu Bəkr ibn Ərəbi. Əhkamul-Quran. Beyrut: Dərul-fikr.
7. Məhəmmədhüseyn Təbatəbai. Əl-Mizan fi təfsiril-Quran. Beyrut: Müəssəsətul-ələmi lil-matbu, 1973.
8. Ayətullah Hüseyn Zahiri. İslamda ailə.
9. Ali Ünal. Kur`anda temel kavramlar. İstanbul: Beyan, 1986.

Алирза Гафаров

## ПРИЧИНЫ ВОЗРАЖДАЮЩИЕ ГИБЕЛЬ ПЛЕМЕН

### РЕЗЮМЕ

Такие чувства как - ненависть, жажда мести и призрение стали основными причинами способствующие гибели человечества. Каждый индивидиум, для кого эти качества носят характерный признак, обречен на ответы перед человеком, законом и перед Аллахом. Потому что, каждый кто посмел выйти за пределы Божьх законов – наносит ущерб моральным ценностям общества.

В статье говорится, что цель священной книги – Коран – построить общество которое будет иметь основу из права и моральных ценностей. В священной книге так же упомянуется что, вышедшие все общины за рамки этих законов настигли гибель. Священный Коран полностью владеет причинами гибели человечества. В данной статье автор рассуждает об этих причинах с помощью четырех принципов, таких как – семейные ценности, упование, мораль и политика.

Alirza Gafarov

## FACTORS THAT CAUSE PEOPLES' DEATH

### SUMMARY

The main causes of human deaths are feelings of malice, hatred, revenge, and hostility. Everyone who forms these ugly habits is subjected to punishment before law and God. For every individual who breaks Almighty God's commandments has a negative impact on the moral structure of his community.

The article says that the purpose of the Quran is to establish a society based on just and ethical principles. Our Holy Book shows that all societies that refused to accept these moral principles were subjected to death. Therefore, the Qur'an covers the causes of the peoples' death as a whole. The author also sought to clarify these causes in four points including domestic, religious, ethical, and political.

# SÜNİ MAYALANMA: MÜSƏLMAN ETİKASININ İLKİN VƏ SON POSTULATLARI ARASINDA

***Qəmər xanım CAVADLI,***
*filologiya üzrə fəlsəfə doktoru,*
*Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini*

***AÇAR SÖZLƏR:*** *süni mayalanma, hitroloq və homoloq üsullar, əqli və şəri bəraət, fiqh akademiyasının fətvaları.*

***КЛЮЧЕВЫЕ СЛОВА:*** *искусственное оплодотворение, гетерологические и гомологические средства, интеллектуальное и религиозное оправдание, фетвы академии фикх.*

***KEY WORDS:*** *artificial insemination, heterologous and homologous means, intellectual and religious justification, fatwas of the fiqh academy.*

Günlərini yaşadığımız müasir dövr bir-biri ilə sıx bağlı olan təzadlar və elmi nailiyyətlər dönəmidir. Belə ki, elmi nailiyyətlər tərəqqi etdikcə cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, dini sahədə də bir sıra mürəkkəb fiqhi və hüquqi məsələlər meydana gəlir və bu, müəyyən mənada elmlə din arasında təzadın yaranmasına səbəb olur. Belə bir vəziyyətdən yeganə çıxış yolu isə bunlara cavab tapmaqdır.

Tibb elmi sahəsindəki nailiyyətlərin artması nəticəsində meydana gəlmiş yeni mövzulardan biri də süni mayalanmadır. Təbii ki, müsəlmanın hüquqları dini baxımdan şəriət qanunları çərçivəsində tənzimləndiyi üçün heç bir hüquqşünas və mütəfəkkir İslam şəriətinə istinad etmədən qarşıya çıxan belə müasir məsələləri qanuniləşdirə bilməz. Bunun üçün, ilk növbədə, fəqihlər belə məsələləri şəriət baxımından qanuniləşdirməlidirlər ki, hüquqşünaslar da ona hüquqi qiymət verərək lazımi qanunu və ya qanunları təsdiqləsinlər.

Qeyd etmək lazımdır ki, süni mayalanma mövzusu həm sekulyar bioetikanın, həm də müsəlman bioetikasının maraq dairəsində olduğundan, onu bir neçə mərhələdə araşdırmaq lazımdır. Öncə süni mayalanmanın nə demək olduğunu, dünyada ilk dəfə hansı ölkədə və hansı canlının üzərində tətbiq edildiyini öyrənmək, sonra bu məsələnin İslam dini, yəni İslam şəriəti baxımından halal olub-olmadığını və İslam Fiqh Akademiyasının süni mayalanma ilə bağlı verdiyi qərarları nəzərdən keçirmək lazımdır. Təbii ki, şəri baxımdan dedikdə, süni mayalanma prosesinin haram müqəddimələrə əsaslanmadan həyata keçirilməsi nəzərdə tutulur. Daha sonra isə məsələnin hüquqi cəhətini, süni mayalanma nəticəsində dünyaya gəlmiş körpənin hansı hüquqi statusa malik olduğunu, qohumluq münasibətlərinin hansı formada təşəkkül tapdığını dəyərləndirmək lazımdır. Çünki uşağın əsl-nəsəbinin məlum olması nəticəsində himayə, nikah və vərəsəlik kimi məsələlər də öz həllini tapmış olur.

Süni mayalanma prosedurunu qadın və kişiyə aid reproduktiv hüceyrələrin bədəndən

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

xaricdə döllənməsi kimi xülasə edə bilərik. Başqa sözlə, kişi ilə qadın arasında cinsi əlaqə olmadan ana olmağa hazırlaşan qadının yumurtalıqlarından alınan yumurta hüceyrələrlə ata olmağa hazırlaşan kişinin spermatozoidlərinin laboratoriyada birləşdirilərək döllənməsi və əldə edilən embrionların təkrar ana bətninə yerləşdirilməsi əməliyyatına süni mayalanma deyilir.[1]

Hələ uzaq keçmişdə İbn Xaldun məşhur "Müqəddimə" əsərində kimya elmindən, bir maddənin başqa bir maddəyə çevrilməsindən, həmçinin qızılın necə əmələ gəlməsindən bəhs edirdi. O, qiymətsiz mədənlərin qızıla çevirmə nöqtəsində inkişaf etmədiyini vurğulamaq üçün mənidən bir insan yaratmağın mümkün olmadığı fikrini misal göstərirdi. İbn Xalduna görə, bu imkansızlığın səbəbi bəşər elminin hələ insanın yaradılış tərzini qavramaması idi.[2]

Lakin bəşər elmi öz inkişafında ilahi qadağaları, əxlaqi sədləri keçməyə qərarlı idi və süni mayalanma ilk dəfə Rusiyada həyata keçirildi. Bu hadisə XX əsrin birinci yarısında rus alimlərinin qoyun, inək, at və donuzlarda süni dölləməni həyata keçirməsi ilə yaşandı. Alimlər 1950-ci ildə əvvəlcə maye karbondioksid vasitəsilə buğa spermasını 79 dərəcəyə qədər, sonra isə azotdan istifadə etməklə 196 dərəcəyə qədər dondurmağa nail oldular. Dondurulan bu spermaları isidərək maye və normal temperatura çatdırmağa müvəffəq olan alimlər həmin spermaların öz faktorluğunu itirmədiyini müəyyən etdilər. Bununla da, uzun müddət saxlanılan donor sperma ilə heyvanların döllənməsi mümkün oldu. [3]

Dünyada ilk dəfə süni iç dölləməni həyata keçirən və heyvanlarda əvəzləyici anadan istifadə edən ABŞ-ın Boston şəhərində yaşayan Çanq olmuşdur. O, 1959-cu ildə bu təcrübəni dovşanların üzərində etmişdir.[4] İnsanda ilk dəfə 1965-ci ildə süni mayalanma tətbiqinə cəhd edən həkim Robert Edvardsdır.[5] Belə ki, 1978-ci ildə o vaxta qədər edilən müvəffəqiyyətsiz cəhdlərdən sonra Robert Edvards və Patrik Steptoenin süni mayalanma cəhdlərinin müvəffəqiyyətli alınması bu yolla ilk uşağın doğulmasını həyata keçirmiş oldu.[6]

Bu proses qadının yumurta hüceyrəsinin yumurtalıqdan çıxdığı vaxt alınması ilə başlayır. Prosesin bu mərhələsi yumurta hüceyrəsinin qadının yumurtalığından çıxdığı zaman həkimin qadının qarın boşluğuna yeritdiyi xüsusi şlanq vasitəsilə hüceyrəni xaricə çıxarıb "petri qutusu" deyilən bankaya qoyulması forması ilə davam etdirilir. Bu banka içərisində yumurta hüceyrəsinin pozulmaması və inkişafı üçün əlverişli fizioloji maye ilə dolu olur. Sonra kişinin sperma hüceyrəsi alınaraq yumurta hüceyrəsinin olduğu bankaya qoyulur. Burada bir sperma hüceyrəsi ilə mayalanacaq olan yumurta hüceyrəsi yalnız mikroskopla görünə biləcək vəziyyət halını alır. Mayalanmış yumurta hüceyrəsi bir neçə mərhələ bölünməyə məruz qalması üçün bir müddət bankada saxlanılır. Yumurta hüceyrəsi ilə sperma hüceyrələrinin birləşməsindən meydana gələn və ziqot adlanan yeni cisimcik burada qaldığı müddətdə ikiyə, dördə və səkkizə bölünərək

1 Abbas Naibzade. "Bərresiye hoquqiye rəveşhaye novine barvəriye məsnui". Tehran: Məcd, hicri-şəmsi 1380, s. 9.

2 Muhammed Ali el-Barr. Din ve Tıp Açısından Tüp Bebek. İstanbul: "Nesil" Yayınları, 1989, s. 25.

3 Muhammad Ali el-Barr, e.a.ə., s. 26-27.

4 Chang M.C., Bedford J.M. "Fertilization of a rabbit ova in vitro" // Philadelphia: Nature, Nature Publishing Group, USA 8 august 1959, volume 184, s. 466-467.

5 Patric C. Steptoe, Edwards R.G. "Birth after the reimplantation of a human embryo" // London: Lancet, Elsevier Science Ltd Publishing,12 august 1978, volume 312, s. 366.

6 Muhammed Ali el-Barr, e.a.ə., s. 28-29.

"Morula" adlandırılan formaya düşür. Bu mərhələdən sonra "Morula" sürətli bir şəkildə inkişaf edərək "Blastula" deyilən şəkli alır və içərisində topun içindəki kimi boşluq meydana gəlir. Bu mərhələ həyata keçdikdən sonra "Blastula" bankadan alınaraq doğuma qədər bir cəninin (ana bətnində inkişafını tamamlamamış uşaq) qeyd edəcəyi bütün inkişafları yaşayacağı bətnə buraxılır.[7] Mayalanmış yumurta hüceyrəsinin bu mərhələləri keçirdiyi bankada qalma müddəti maksimum iki-üç gündür.

Həkim Patrik Steptoe 10 noyabr 1977-ci ildə ana Lesley Braunun yumurta hüceyrəsini həkim Robert Edvardsın hazırlamış olduğu bankaya qoymuşdu. Boruda mayalanma həyata keçib ziqot lazımi qədər inkişaf etdikdən sonra həkim Stepteo "Blastula"nı 12 noyabr 1977-ci ildə ana Lesley Braunun bətninə yerləşdirdi və 25 iyul 1978-ci ildə bütün dünyada böyük rezonansa səbəb olacaq hadisə - insanlıq tarixində yeni cığır açan ilk süni uşaq Luisa Braun doğuldu.[8]

Qeyd etmək lazımdır ki, süni mayalanma yolu ilə uşağın dünyaya gəlməsi tibb elmində böyük hadisə olsa da, dondurulmuş rüşeymlərin bir sıra problemləri də yarandı. Məsələn, "News Week" qəzetinin nömrələrinin birində süni mayalanma nəticəsində doğulan uşağın, eyni zamanda beş ata və anasının mümkünlüyü söylənilmişdir. [9]

Süni mayalanma qadın orqanizminin daxilində və ya xaricində aparılıb-aparılmaması baxımından iki cürdür: süni inseminasiya və ekstrakorporal üsul. Süni inseminasiya üsulunda kişinin spermatozoidləri ilə qadının yumurta hüceyrələri döllәndirilərək qadının uşaqlığına ötürülür. Ekstrakorporal üsulla (yuxarıda nümunə gətirdiyimiz üsul) həyata keçirilən mayalandırmada isə kişinin spermatozoidləri ilə qadının yumurta hüceyrələri orqanizmdən kənarda, sınaq şüşəsi vasitəsi ilə laboratoriya şəraitində birləşdirilir, döllənmə prosesi baş tutduqdan sonra embrion (rüşeym) qadının uşaqlığına nəql edilir.

Süni mayalanmanın inseminasiya növü də iki cürdür: homoloq və hitroloq mayalanma. Mayalanmanın homoloq növündən o zaman istifadə edilir ki, ərin spermatozoidləri bütün tələblərə cavab verir, lakin ya fiziki, ya da psixoloji səbəblərə görə qadın təbii üsulla hamilə qalmaq iqtidarında olmur. Bu zaman ərin spermatozoidləri qadının uşaqlığına yeridilir.

Süni mayalanma problemi yarandığı gündən bəri İslam fəqihlərinin mübahisə və müzakirə mövzusudur. Əvvəllər bəzi tanınmış şiə fəqihləri[10] bu işin yolverilməz olduğunu bildirmişlər. Hazırkı dövrdə isə şiə fəqihlərinin böyük əksəriyyəti onun caiz (halal) olduğunu bildirirlər.[11] Bu işi halal bildirənlərin sübutu odur ki, burada həm spermatozoid, həm də yumurta hüceyrələri ərlə-arvadın özünə məxsusdur, sadəcə mayalanma prosesi qeyri-təbii üsulla aparılıb. Bunun isə haram olmasına heç bir sübut yoxdur. Əqli və şəri bəraət də (üsuli-fiqh elminin terminlərindəndir)

---

7 Muhammed Ali el-Barr, e.a.ə., s. 31-32.

8 Bahri Dayıoğlu. Yaratılış Mucizesi, İstanbul: Yeni Asya Yayınları, IIII Baskı, 1991, s. 6.

9 "News Week", 18. 03. 1985., s. 45.

10 Mərhum Ayətullah Borucerdi və Ayətullah Milani kimi fəqihlər. Əsədullah İmami, "İran və Fransa qanunvericiliyində qohumluq münasibətləri" monoqrafiyası, s.362.

11 Ayətullah əl-üzma Xoyi. Tozihul-məsail. Qum: Mədinətul-elm, hicri 1412, s. 27; Ayətullah əl-üzma Təbrizi. Siratun-nicat, 6-cı cild. Qum: Darus-siddiqətiş-şəhidə, hicri 1423, s. 461; Ayətullah əl-üzma Sistani. Minhacus-salihin, 1-ci cild. Qum: Məktəbus-seyyid əs-Sistani, hicri 1417, s. 462.

bunun caiz olduğuna dəlalət edir.[12] Zina və ya spermanın başqa qadının uşaqlığına nəql edilməsi kimi haram əməllər isə bu işə aid edilmir.[13]

Homoloq mayalanma ilə bağlı sünni fəqihlərin mövqeyi fərqlidir. Belə ki, sünni fəqihlərin əksəriyyəti müəyyən şərtlərə əməl etmək xüsusunda bu işin halal olduğunu bildirdiyi halda,[14] Şeyx Əhməd əl-Həcci kimi azsaylı fəqihlər onun haram olduğunu bildirmişlər.[15] Bu işi halal hesab edənlərin əsas sübutu odur ki, ərlə-arvad bu yolla uşaq sahibi olur və uşağın dünyaya gəlməsi onların arasındakı bağlılığı, sevgi-məhəbbəti daha da gücləndirir.[16] Əks mövqedə olan fəqihlərin sübutu isə ondan ibarətdir ki, uşaq yalnız cinsi yaxınlıq nəticəsində dünyaya gələ bilər. Əgər cinsi yaxınlıq nəticəsində kiminsə uşağı olmursa, deməli, bu, Allahın istəyidir, başqa sözlə desək, təqdiri-İlahidir, süni mayalanma isə Allahın istəyinə ziddir, bu əməl şirkə aparıb çıxarır, şirk isə böyük günahlar qismindəndir.[17] Onlar öz fikirlərini Qurani-Kərimin bu ayəsi ilə əsaslandırırlar: **"Göylərin və Yerin hökmü Allahın əlindədir. O. istədiyini yaradır, istədiyinə ancaq qız, istədiyinə ancaq oğlan verir. Yaxud hər ikisindən – həm oğlan, həm də qız verir, istədiyini də sonsuz (övladsız) edir. O, (hər şeyi) biləndir, (hər şeyə) qadirdir!"** (Şura, 49-50).

Qadın hamilə qalmaq iqtidarında olduqda, lakin ərin spermatozoidləri qadının hamilə qalması üçün kifayət etmədikdə mayalanmanın hitroloq növü tətbiq edilir. Belə ki, yad bir kişinin (donorun) spermatozoidlərindən lazımi qədər götürülüb qarışıqları təmizləndikdən sonra qadının uşaqlıq borusuna yerləşdirilir. Şiə fəqihlərinin çoxu süni mayalanmanın bu növünün haram, az bir qismi isə halal olduğunu söyləmişdir. Hitroloq mayalanmanın haram hesab edənlər Qurani-Kərimin bəzi ayələrində ("əl-Muminun", 5-7; "ən-Nur", 30-31; "ən-Nisa", 22-23; "əl-Məaric", 29) kişi və qadınlara öz fərclərini haramdan qorumaları barədə verilən ilahi əmrlə əlaqələndirir və bu barədə məsum imamlardan gələn hədisləri əsas gətirirlər. Onların məsələ ilə bağlı göstərdikləri Quran ayələrindən biri belədir: **"(Ya Rəsulum!) Mömin kişilərə de ki, gözlərini haram edilmiş şeylərdən çevirsinlər (naməhrəmə baxmasınlar), ayıb yerlərini (zinadan) qorusunlar (və ya örtülü saxlasınlar) ... Mömin qadınlara de ki, gözlərini haram buyurulmuş şeylərdən çevirsinlər (naməhrəmə baxmasınlar), ayıb yerlərini (zinadan) qorusunlar (və ya örtülü saxlasınlar) ..."**.[18]

Ayələrdəki "baxmaq"dan söhbət gedərkən "min" ön qoşması qeyd edilməklə tamın hissəyə olan nisbəti nəzərdə tutulmuşdur. Bu isə baxışların hamısının deyil, yalnız bir qisminin (naməhrəmə baxmaq) haram olması deməkdir. Lakin ayıb yerlərin qorunmasından söhbət getdikdə "min" ön qoşması qeyd edilməmişdir. Bu da o deməkdir ki, istər kişi, istərsə də qadın mütləq ayıb yerini haramdan qoruyub saxlamalıdır. Bu şərt, həmçinin zina və ya tibbi avadanlıq

---

12 Məhəmməd əl-Mumin. Kəlimatun-sədidəh fi məsailə cədidəh. Qum: Muəssisətun nəşril-İslami, hicri 1415, s. 80.

13 Məhəmməd əl-Yəzdi. Sələsu rəsiləh fiqhiyyəh. Qum: Pəyame Məhdi, hicri-şəmsi 1377, s.12.

14 Mahmud əş-Şəltut. əl-Fətava. Qahirə: Daruş-şuruq, hicri 1395, s. 327-328; Yusif əl-Qərdavi. əl-Həlalu vəl-haram fil-İslam. Qahirə: Məktəbətu Vəhbəh, hicri 1418, s. 218.

15 Məhəmməd Xalid Mənsur. əl-Əhkam ət-tibbiyyə. Beyrut: Darun-nəfais, hicri 1420, s. 83-84.

16 Məhəmməd Bəkr İsmayıl. Beynəs-saili vəl-fəqih. Beyrut: Darul-Mənar, hicri 1419, s. 354; Məhmud əş-Şəltut. əl-Fətava. Qahirə: Daruş-şuruq, hicri 1395, s. 327-328.

17 Şəhabəddin əl-Hüseyni. ət-Təlqih əs-sənayi beynəl-elmi vəş-şəriə. Beyrut: Darul-İslamiyyə, hicri 1420, s. 84-104.

18 "ən-Nur", 30-31.

vasitəsilə yad qadının fərcinə müdaxiləni də istisna etmir.[19] Qeyd etmək lazımdır ki, fərcin haram spermadan qorunması dedikdə yad kişinin sperması nəzərdə tutulur.

Süni mayalanmanın hitroloq üsulunun haram olduğunu bildirən şiə alimləri bu barədə olan bir sıra hədislərə əsaslanır ki, onlardan da ikisini diqqətinizə təqdim edirik:

1. Əli ibn Salim İmam Sadiqdən (ə) belə nəql etmişdir: "Qiyamət günündə ən ağır cəza o kişiyə veriləcək ki, öz nütfəsini (spermanın rüşeym halına gəlmiş formasını) başqa qadının (namərhəm qadının) uşaqlığına ötürüb".[20] Hədisdən belə məlum olur ki, kişinin öz nütfəsini ona naməhrəm olan qadının uşaqlığına ötürməsi böyük günah hesab edilir. Hədisdə "nütfə" sözünün işlədilməsi kişinin spermatozoidləri ilə qadının yumurta hüceyrələrinin birləşərək rüşeym halına gəlməsini bildirir. [21]

2. İmam Sadiq (ə) Həzrət Peyğəmbərdən (s) belə buyurmuşdur: "Allah dərgahında peyğəmbər və ya imam öldürməkdən, Allahın bəndələr üçün qiblə seçdiyi Kəbəni sökməkdən, bir də kişinin öz nütfəsini yad qadının uşaqlığına ötürməsindən böyük günah yoxdur".[22] Bu hədisdən də aydın olur ki, mübah olmayan hər hansı yolla spermanın yad qadının uşaqlığına ötürülməsi haram və böyük günahdır.[23] Müasir şiə fəqihlərindən bəziləri süni mayalanmanın haram olması haqqında başqa sübutlar da göstərmişlər.

Qeyd etmək lazımdır ki, sünni fəqihləri ümumən hitroloq mayalanmanın haram olduğu qənaətindədirlər. Aşağıda bununla bağlı onların iki əsas dəlilini qeyd edirik:

1. Bu iş insanı insanlıq səviyyəsindən çıxarıb heyvanat və bitkilər çərçivəsinə sürükləyir, eyni zamanda, böyük günah, bəyənilməz iş sayılıb zina ilə eyni mahiyyət daşıyır. Çünki hər ikisinin nəticəsi kişinin spermasının bilərəkdən qadının uşaqlığına ötürülməsidir.[24] Bu növ mayalanma İslamda qadağan edilmiş oğulluq mövqeyindən də bəyənilməzdir. Çünki oğulluğa götürülmüş şəxsin ən azından başqasının uşağı olduğu bilinir, burada isə ata dəqiq deyil və yad bir şəxs nəslə qoşulmuş olur.[25]

2. **"Onları (əsil-nəsəbləri bilinsin deyə) öz atalarının adları ilə çağırın. Bu, Allah yanında daha düzgündür (daha ədalətlidir)...".**[26] ayəsinə istinad edərək sünni fəqihləri bildirmişlər ki, bu ayədə övladlar öz atalarına aid edilmişdir. Hitroloq mayalanmada isə başqa kişinin spermasından dünyaya gələcək uşaq qadının öz ərinə aid edilir. Halbuki, qadının əri uşağın onun övladı olmadığını bilir. Buna görə də onu öz övladı kimi qəbul edə bilməz.[27]

Süni mayalanma ilə əlaqədar İslam Fiqh Akademiyası bir neçə qərar vermişdir. İslam

---

19 Məhəmməd Ruhani Əliabadi. Yad insanın spermatozoid və rüşeyminin süni mayalandırılmasının şəri hökmü, s. 288-291; Şəhabəddin əl-Huseyni. ət-Təlqih əs-sənayi beynəl-elmi vəş-şəriə. Beyrut: Darul-İslamiyyə, hicri 1420, s. 111.

20 Siqətul-İslam Koleyni. Üsuli-Kafi, 5-ci cild. Beyrut: Darul-əzva, hicri 1413, s. 539.

21 Şəhabəddin əl-Huseyni. ət-Təlqih əs-sənayi beynəl-elmi vəş-şəriə. Beyrut: Darul-İslamiyyə, hicri 1420, s. 111.

22 Şeyx Səduq. Mən la yəhzuruhul-fəqih, 3-cü cild. Qum: Mənşurate Cameətul-mudərrisin, hicri 1404, s. 559.

23 Məhəmməd Ruhani Əliabadi. Yad insanın spermatozoid və rüşeyminin süni mayalandırılmasının şəri hökmü, s. 307.

24 Mahmud əş-Şəltut. əl-Fətava. Qahirə: Daruş-şuruq, hicri 1395, s. 328; Yusif əl-Qərdavi. əl-Həlalu vəl-haram fil-İslam. Qahirə: Məktəbətu Vəhbəh, hicri 1418, s. 200.

25 Məhəmməd Xalid Mənsur. əl-Əhkam ət-tibbiyyə. Beyrut: Darun-nəfais, hicri 1420, s. 90-91.

26 "əl-Əhzab", 5.

27 Məhəmməd Xalid Mənsur. əl-Əhkam ət-tibbiyyə. Beyrut: Darun-nəfais, hicri 1420, s. 90-91.

Konfransı Təşkilatına (indiki İslam Əməkdaşlıq Təşkilatı) bağlı olan İslam Fiqh Akademiyası 25-28 yanvar 1981-ci ildə Səudiyyə Ərəbistanında toplanan III İslam ölkələrinin dövlət və hökumət başçılarının Zirvə toplantısında verilmiş qərar əsasında qurulmuşdur. Mərkəzi Ciddə şəhərində olan bu qurumun məqsədi İslam hüququ sahəsində işlərə yardım etmək və müasir dövrdə ortaya çıxan problemlərə İslam qanunvericiliyinə uyğun həll tapmaqdır.

İslam Fiqh Akademiyasının rəyasəti başda İslam hüququ olmaqla, iqtisadiyyat, tibb və digər sahələr üzrə mütəxəssis olan şəxslərdən və elm adamlarından ibarətdir. Qurum bu günə qədər beynəlxalq səviyyədə müxtəlif yığıncaqlar təşkil etmiş, İslam hüququnun müxtəlif məsələləri mütəxəssislər arasında müzakirə edilmişdir. Bunlardan biri də süni mayalanma məsələsidir. Belə ki, Məkkədəki Dünya İslam Birliyi Mərkəzində (28 Rəbiul-axır 1405-7 Cəmadiyəl-əvvəl 1405/19-28 yanvar 1985) keçirilən VIII iclasda süni mayalanma mövzusu ilə əlaqədar aşağıdakı qərarlar verilmişdir:

Müasir dövrdə məlum olan süni mayalanma yolları bunlardır:

1. Ərin spermasının başqa bir qadından götürülmüş yumurta hüceyrə ilə mayalandırılması və meydana gələn embrionun öz yoldaşının bətninə yerləşdirilməsi.

2. Bir qadının yumurta hüceyrəsinin başqa bir kişinin sperması ilə mayalandırılması nəticəsində meydana gələn embrionun həmin qadının bətninə yerləşdirilməsi.

3. Ər-arvaddan götürülən yumurta və sperma hüceyrələrinin bətndən xaricdə mayalanması nəticəsində meydana gələn embrionun hamilə qalmaq istəyən başqa bir qadının bətninə yerləşdirilməsi – surroqat analıq.

4. Başqa bir kişinin sperması ilə başqa bir qadının yumurta hüceyrəsinin bətndən xaricdə mayalandırılması nəticəsində meydana gələn embrionun həyat yoldaşının bətninə yerləşdirilməsi.

5. Ərin sperması ilə yoldaşının yumurta hüceyrəsinin bətndən xaricdə mayalandırılması nəticəsində meydana gələn embrionun ərin digər həyat yoldaşının bətninə yerləşdirilməsi.

6. Ərin sperması ilə yoldaşının yumurta hüceyrəsinin bətndən xaricdə mayalandırılması, meydana gələn embrionun həmin qadının bətninə yerləşdirilməsi.

7. Ərin spermasının öz yoldaşının uşaqlıq yoluna, ya da bətninə münasib qoyularaq daxili mayalanmanın təmin edilməsi.

Yuxarıdakı halları da nəzərdə tutaraq Məclis bunları qərara almışdır:

İlk beş qayda əsas etibarı ilə dini prinsiplərə zidliyinə, nəsəb qarışmasına, ananın kimliyinin müəyyən edilə bilinməməsinə və s. halların baş verməsinə görə qəti olaraq haramdır. Bununla yanaşı, İslam Fiqh Akademiyası lazım olan bütün tədbirlərin görülməsi şərtini diqqətlə vurğulayaraq ehtiyac olduğu hallarda yalnız altıncı və yeddinci metodlardan istifadə etməyin problem olmadığı fikrindədir.[28]

Süni mayalanmaya dair son müddəalar Türkiyə Cümhuriyyəti Diyanət İşləri Başqanlığının koordinatorluğu ilə 2017-ci ildə İstanbulda Avrasiya Fətva Məclisinin 2-ci toplantısında qəbul edilmişdir. Məclisin qərarına əsasən, "... tibbi məcburiyyət səbəbilə yumurta sahibinin nigahlı

28 İslam Fiqh Akademiyası, 16 saylı qərar (4/3), 1985-ci il.

ərinin sperması ilə mayalandırılmasında dini baxımdan bir maneə yoxdur" [3, s. 6]. Qadının yumurta hüceyrəsini ərindən başqa kişinin sperması ilə birləşdirərək süni şəkildə mayalandırmaq və beləliklə də, qadının hamilə qalmasını təmin etmək zinanın ünsürlərini ehtiva və insani hissləri təhqir etdiyi üçün caiz görülməyib.[29] Bu əməliyyat yalnız heyvan nəslini çoxaltmaq üçün istifadə edilərkən caizdir.

Hazırda süni mayalanmada bəzi inkişafa nail olunub, normal yolla uşaq sahibi ola bilməyən ər-arvadın övlad sahibi ola bilmələri üçün yeni üsul və metodlar tapılmışdır. Bunların arasında ən çox tətbiq olunan üsul kişinin sperması ilə qadının yumurta hüceyrəsini süni uşaqlıq borusunda birləşdirmək, sonra mayalanmış yumurta hüceyrəni uşaqlığa yerləşdirməkdir. Bu yolla hamilə qala bilmək üçün üç ünsür bir yerdə olmalıdır: sperma, yumurta hüceyrəsi və uşaqlıq. Əgər bunların hər üçü ər-arvada aid olarsa, xaricdə mayalanma yolu ilə hamilə qalmaqda dini baxımdan heç bir problem yoxdur. Bu, normal mayalanma yolu ilə hamilə ola bilməyən qadına tətbiq edilən müalicə mahiyyətindədir. Ərin spermasını qadının yumurta hüceyrəsi normal halda ikən mayalamaqla yumurta hüceyrəni də götürüb uşaqlıq borusunda mayalamaq, sonra uşaqlıq yoluna yerləşdirmək arasında heç bir fərq yoxdur. Bu şərtlə ki, bütün bu əməliyyatlar başqa yolla hamilə qalmaq mümkün olmadığı təqdirdə tətbiq edilsin.

Süni mayalanmanın tətbiq edilməsi yuxarıdakı halların xaricində və ortaya yad bir ünsür daxil olduğu zaman, yəni sperma, yumurta hüceyrəsi və uşaqlıq yolundan hər hansı biri ər-arvad xaricində başqa bir şəxsə aid olduğu təqdirdə caiz deyil. İslam dini və əxlaqı baxımından, qanuni bir uşağın istər sperma və yumurta hüceyrəsi, istərsə də uşaqlıq yolu baxımından məhz ər-arvada aid olmasında zərurət vardır.[30]

29 Hamdi Döndüren. Kuran ve Sünnete Göre Güncel Fikhi Meseleler. İzmir: Işık Yayınları, 2011, s. 210.

30 Hayreddin Karaman. Aile İlmihalı. İstanbul: Timaş Yayınları, 2011, s. 276-277.

# ƏDƏBİYYAT


1. Qurani-Kərim (ərəb dilindən tərcümə edənlər: Z.Bünyadov, V.Məmmədəliyev). Bakı: 2008.
2. Abdullayev A. Bəzi müasir tibbi əməliyyatlara İslamın baxışı. BİU Zaqatala şöbəsi, 2010.
3. Avrasiya Fetva Meclisi 2. Toplantısı sonuc bildirgesi // İstanbul 20.02.2018, TC Din hizmetleri Müşavirliyinin 040/12 saylı məktubu.
4. Bioetika, tibbi hüquq və yeni texnologiyalar // AMEA İnsan Hüquqları İnstitutunun nəşrləri, Məqalələr toplusu, 2011.
5. Karaman H. Halallar və haramlar. Bakı: "İpəkyolu", 2011.
6. Quliyev M. İslam Fiqh Akademiyasının müasir məsələlərlə bağlı qərarları və onların təhlili. BİU Zaqatala şöbəsi, 2013.
7. Reproduktiv sağlamlıq: Etik şərhlərlə misallar. UNESCO-nun Bioetika kafedrası. AMEA İnsan Hüquqları İnstitutunun nəşrləri, 2012.
8. Дайри Ахмед. Новая эра в биомедицине: какова позиция мусульман? / www.islamonline.net
9. Мамедов В., Мамедов Р., Мустафаева А. Религиозные учения и морально-правовые критерии биоэтики / 29.11.2011. www.ihr-az.org
10. Факхер Бен Хамида. Мусульманская мораль, медицина и биотехнологии // Сайт Российского Комитета по биоэтике при UNESCO. 2009.
11. Энциклопедия норм и правил Ислама. Основы фикха согласно мазхабу Имама Азама Абу Ханифы. Стамбул: Эркам, 1-е изд., 2013.

Гамар ханум Джавадлы

## ИСКУССТВЕННОЕ ОПЛОДОТВОРЕНИЕ: МЕЖДУ НАЧАЛЬНЫМИ И КОНЕЧНЫМИ ПОСТУЛАТАМИ МУСУЛЬМАНСКОЙ ЭТИКИ

### РЕЗЮМЕ

В процессе развития медицинской науки возникли новые проблемы, связанные с искусственным оплодотворением. Искусственное оплодотворение, как предмет и секулярной и мусульманской биоэтики, должен быть исследован с разных контекстов. Важно рассмотреть вопрос о том, является ли искусственное оплодотворение халал с точки зрения исламской религиозной этики, и сопоставить решения, принятые Исламской академией фикха в отношении искусственного оплодотворения с первоначальными источниками Ислама.

Gamarkhanim Javadli

## ARTIFICIAL INSEMINATION: BETWEEN THE INITIAL AND FINAL POSTULATES OF MUSLIM ETHICS

### SUMMARY

In the process of developing medical science, new problems have arisen related to artificial insemination. Artificial insemination, as a subject of both secular and Muslim bioethics, should be investigated from different contexts. It is important to consider whether artificial fertilization is halal from the point of view of Islamic religious ethics, and to compare the decisions made by the Islamic Academy of Fiqh regarding artificial insemination with the original sources of Islam.

# SƏBİNƏ NEMƏTZADƏNİN "ƏLYAZMALARIN BƏDİİ TƏRTİBAT XÜSUSİYYƏTLƏRİNDƏ DİNİ-FƏLSƏFİ ASPEKTLƏR" ƏSƏRİ

***Aqil ƏHMƏDOV,***
*AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun dosenti, tarix üzrə fəlsəfə doktoru*

***AÇAR SÖZLƏR:*** *türk-İslam mədəniyyəti, İslam əlyazmaları, miniatür əsərlər, xətt sənəti, İslam tarixi.*

***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Тюркско-Исламская культура, исламские рукописи, миниатюрные произведения, каллиграфия, история ислама.*

***KEY WORDS:*** *Turkic-Islamic culture, Islamic manuscripts, miniature works, calligraphy, history of Islam.*

Müsəlman alimlər bəşər mədəniyyətinin on dörd əsrlik dövrü ərzində dəyərli əsərlər qələmə almaqla dünya elminə töhfələr vermişlər. Bu baxımdan İslam sivilizasiyasının əhatə etdiyi dövlətlərin tarixində yazılı abidələrin, əlyazma əsərlərin əhəmiyyəti olduqca böyükdür. Xüsusilə əlyazmaların bədii tərtibat xüsusiyyətlərindən bəhs edərkən İslam əlyazma əsərlərində rast gəlinən miniatürlər və ya əbru nümunələri bu dinin fəlsəfəsinin nə qədər dərin olduğunun göstəricilərindəndir. Əlyazma əsərlərdə tətbiq olunan xəttatlığın isə zahiri olduğu qədər batini mənalarının da öyrənilməsi İslam əlyazma kitab sənətinin daha yaxından anlaşılması və tarixinin araşdırılmasında böyük əhəmiyyət kəsb edir.

İslamın yayıldığı ölkələrdə tədricən müsəlman mədəniyyəti adlanan ümumi ortaq mədəniyyət təşəkkül tapmışdır. Bu ortaq mədəniyyətin yaranmasında İslamı qəbul etmiş bütün xalqların, o cümlədən Azərbaycan xalqının da böyük əməyi olmuşdur. Daha doğrusu, İslamaqədərki Azərbaycan mədəniyyəti tədricən İslam məzmunu kəsb etməyə başlamış, mənəvi dəyərlər sahəsində olduğu kimi, maddi mədəniyyət sahəsində də İslam rəmzləri (ələm, ay-ulduz, günbəz, ərəb hürufatı və s.) zamanla üstünlük qazanmışdır [1, s.12]. Beləliklə, ölkələrarası siyasi, iqtisadi və mədəni əlaqələrin genişlənməsi sayəsində Yaxın və Orta Şərq, Şimali Afrika, Cənub-Qərbi Avropa xalqlarının yaradıcılığı ilə dəyişib zənginləşmiş Azərbaycan əlyazma kitabı da X-XII əsrlərin əvvəllərindən başlayaraq daha da təkmilləşmiş, düzxətli kufi və əyrixətli nəsx xətləri əsasında yeni xətt növləri meydana gəlmişdir [2, s.17]. Burada həmçinin türk-İslam mədəniyyətinin bir-biri ilə vəhdətdə olduğunu görmək üçün ilk orta əsrlər və sonrakı dövrlərdə qələmə alınan əlyazmaların xətt növlərinə diqqət yetirilməli, bədii cəhətdən, obraz və miniatürlər vasitəsilə oxucuya aydınlıq gətirən tərtibat xüsusiyyətləri nəzərdən keçirilməlidir.

Qeyd etmək lazımdır ki, türkdilli əlyazma kitabı çox mürəkkəb və spesifik hadisədir. O, öz ifadəsini tarixən bir neçə növ yazıda tapmışdır. Onlardan axırıncı on üç əsrdə (VII-

XX əsrin başlanğıcı) ərəb yazısı olmuşdur. İslamın təşəkkül tapmağa başladığı ilk əsrlərdə türk xalqları ərəb əlifbası ilə yanaşı, məskunlaşdıqları coğrafi arealdan asılı olaraq müxtəlif yazı sistemlərindən də istifadə etmişlər [3, s.3]. Bu baxımdan Quranın tam mətninin türkcəyə sətiraltı tərcüməli əlyazmaları da günümüzə qədər gəlib çatmışdır. İstanbuldakı Türk və İslam Əsərləri Muzeyində saxlanılan 1333-cü il (h/734) tarixli əlyazma (N73) onlar arasında xüsusilə dəyərlidir [4, s.31].

V.V.Bartold yazırdı ki, İbn ən-Nədiminin əlyazma əsəri "İslamın ilk dörd əsrinin ədəbiyyatı və elmi haqqında daim başlıca məlumat mənbəyi olaraq qalacaqdır" [5, s.24]. Bu səbəbdən, mövzu üzrə çoxsaylı və dəyərli əsərlərin müəllifi, əlyazmaşünas-alim, ilahiyyat elmləri üzrə fəlsəfə doktoru, dosent Səbinə Nemətzadənin ictimaiyyətin elmi mühakiməsinə təqdim olunan "Əlyazmaların bədii tərtibat xüsusiyyətlərində dini-fəlsəfi aspektlər" mövzulu monoqrafiyası İslam mədəniyyətinin, əlyazma kitab tarixinin öyrənilməsinə işıq tutacaq sanballı əsərlərdəndir. Onu Azərbaycan elmi üçün maraqlı edən cəhətlər İslam tarixi və onun zəngin mədəniyyəti ilə sıx bağlılığıdır. Eyni zamanda, monoqrafiya uzun əsrlər Azərbaycan torpaqlarında intişar tapmış İslam mədəniyyətinin təsiri ilə yetişən azərbaycanlı alimlər tərəfindən ərsəyə gətirilmiş əlyazma əsərlər haqqında məlumatlarla zəngindir.

Müəllif haqlı olaraq vurğulayır ki, əlyazmaların bədii tərtibat xüsusiyyətlərinin araşdırılması, nəinki tarixşünaslıq, mənbəşünaslıq, sənətşünaslıq, həmçinin dinin tarixi və fəlsəfəsi müstəvisində tədqiq olunması Azərbaycan əlyazmaçılığının İslam tarixində və müsəlman fəlsəfi fikrinin formalaşmasındakı rolunu təsbit edəcək [6, s.5]. Azərbaycanda əlyazma kitabları geniş yayılmış, qədim dövrlərdən XIX əsrə qədər əsas yazılı mənbə kimi istifadə edilmiş, cəmiyyətin mədəni inkişafına xidmət göstərmişdir [7, s.47]. Müəllif kitabın giriş hissəsində İslam tarixində əlyazmaların yayılmasını şərh edərkən azərbaycanlı müəlliflər haqqında yeni elmi faktları geniş əks etdirmiş, miniatür sənətinin Azərbaycan daxil olmaqla, İslam dünyasında əlyazma kitabının bədii tərtibatının inkişafında oynadığı rolunu müəyyən etmişdir.

Əlyazmaşünas alim burada dövrümüzün məşhur xəttatı, türkiyəli alim Prof. Dr. Muhittin Serinə istinad edərək, gözəl ilahi söz və mənaların xəttin qələm, eşq və imanıyla şəkilləndiyini, müzəhhibin incə fırçasıyla qızıla boyandığını, rəngləndiyini, mücəllidin hünərli əllərində işlənərək iki qapaq arasında şahəsər olaraq kitab halına gəldiyini söyləyir [6, s.4].

Qeyd etmək lazımdır ki, Azərbaycan əlyazma kitabı ilə bağlı Ə.Mirəhmədovun, C.Qəhrəmanov, A.Musayeva, Q.Kəndli, A.Xəlilov, İ.Zəkiyev, S.Cabbarlı, A.Əliyev və başqalarının qiymətli tədqiqat əsərləri vardır. Həmin əsərlərdə əsas diqqət ya ayrı-ayrı əlyazma kitablarının öyrənilməsinə, ya dünyanın müxtəlif kitab xəzinələrində saxlanan Azərbaycan abidələrinin qeydə alınmasına, ya da Azərbaycan əlyazma kitabı ilə bağlı ümumi ədəbiyyatşünaslıq məsələlərinin araşdırılmasına yönəldilmişdir [8, s.6].

Kitabın birinci fəsli İslam kalliqrafiyasının yaranma tarixi və inkişaf mərhələlərindən bəhs edir. S.Nemətzadə bu bölmədə islamaqədərki dövrdə və onun meydana gəlməsindən sonra ərəb yazısının dünya incəsənətinə təsirini və geniş yayılmasını göstərərək kufi, əqləmi sittə,

təliq, nəstəliq, qübari, cəli kimi İslam coğrafiyasında tanınan yazı nümunələri haqqında elmi əhəmiyyəti ilə seçilən məlumatlar vermiş, kalliqram və yazı rəsmlərindən ibarət, dərin məzmun əks etdirən nümunələr təqdim etmişdir. Ardınca müəllif ərəb hərflərinin fəlsəfi düşüncədəki yerini şərh edərək hərf və insan arasında olan bağlılığı izah etmişdir. XV yüzilliyin dahi filosof şairi Ə.Cami bu bağlılığın davamı olaraq insan həyatının əsas məqsədinin ilahi qüvvənin yer üzündə, həyatda canlanmasından ibarət olduğunu yazır [9, s.4]. Bölmədə həmçinin diqqət çəkən məqamlardan biri İslam xətt sənətində estetik dəyərlərin varlığın mütləq və obyektiv formasında anlaşılması ilə bağlıdır. İslam kalliqrafiyasında fiziki və mənəvi ahəngi ilahi biliklər işığında araşdıran müəllif İslam xətt sənətinin elm və hikmətin təsiri ilə sözlərə dönüşərək hüsnü-xəttə çevrildiyini yüksək erudisiya ilə şərh etmişdir. Daha sonra İslam kalliqrafiyasının dini əlyazmalardakı tətbiq sahələrinə yer verilmişdir. Müəllif burada akademik Vasim Məmmədəliyevdən sitat gətirərək, səmavi dinlərin sonuncu kitabı Qurani-Kərimin ərəb ədəbi dilinin möhtəşəm abidəsi olduğunu qeyd etmiş, İslam sənətindəki etik davranışların bu dinin yaşam tərzi olduğunu bildirmişdir. Bölmənin sonunda S.Nemətzadə İslam əlyazma əsərləri haqqında fikirlərini ümumiləşdirərək, qələm, kağız və mürəkkəb kimi mühüm detallara aydınlıq gətirmiş, bunların cismani alətlər, əşyalarla meydana gətirilən ilahi həndəsənin bir parçası olduğunu şərh etmişdir.

Əlyazma əsərlərin təzhibi kimi mühüm problemə həsr olunmuş əsərin ikinci fəslində İslamın intişarı ilə bütün müsəlman coğrafiyasına yayılan təzhib sənətinin (bəzəmənin) xətt sənəti ilə paralel inkişaf etdiyi göstərilmişdir. Quranda istifadə olunan motivlərin və rənglərin ilahi varlığın sonsuzluğuna bir işarə olduğu aydınlaşdırılmışdır. Burada İslam əlyazma kitablarında əsasən həndəsi, çərxi-fələk, çarx kimi naxışlara daha çox rast gəlindiyi bildirilmişdir. Daha sonra müəllif bölmədə təzhib, naturalist, besitar, mücərrəd, simvolik motivlərdən, təzhibin müxtəlif növlərindən bəhs etmişdir. Burada həmçinin əlyazmalarda təzhibin icra olunduğu yerlər paraqrafında müəllif Quranın təzhiblənməsini izah edərkən dayanacaqlı, kürsü, kənar suyu, zəhriyyə, dibacə, bölüm başı təzhibləri, müshəf gülləri, xatimə, hilyə, məsnəvi, fərman, bərat, mənşur, nikah sənədinin təzhiblərinə geniş yer vermiş və oxucunun diqqətini problemin elmi əhəmiyyətinə çəkə bilmişdir.

Əlyazmalarda miniatür rəsmləri geniş şərhinə həsr olunmuş üçüncü fəsildə isə İslam miniatür sənətində dini-fəlsəfi məqamlarla bağlı mətnlərin açıqlanmasında dərin məna kəsb edən miniatür rəsmlər göstərilmişdir. Burada mifologiyanın əsas qollarından biri olan esxatologiyanın özünəməxsus ifadə tərzi olduğu bildirilmişdir. Miniatürlərdə peyğəmbər mövzusu illüstrasiyalar şəklində və nadir hallarda rast gəlinən mövzular sırasında qeyd olunur. Müəllif burada türk-İslam sənətində tanınmış qadın obrazının miniatürlərdə geniş işləndiyini izah edir.

Qeyd etmək lazımdır ki, hər bir əlyazma ayrılıqda bir sənət nümunəsi, maddi-mənəvi irsimizin yadigarıdır və bu baxımdan xüsusi diqqət və qayğı tələb edir [3, s.6]. Bu səbəbdən əlyazma kitabların cildlənməsindən bəhs edən dördüncü fəsildə cild əlyazma kitabların əsas atributu kimi önə çıxır. Kitabın bu bölməsində müəllif kitab məhfəzləri – cildbəndlərdən,

kitabın cildlənmə üsulundan, klassik cildin hissələrindən bəhs etmiş, kitab qablarının təzyinatı kimi xüsusilə orta əsrlər əlyazma kitablarının müxtəlif cild üsullarını tədqiq etmişdir.

Müəllif İslam əlyazma əsərlərində geniş istifadə olunan əbru haqqında kitabın sonuncu - beşinci fəslində geniş məlumat vermiş və onun ən tez VIII əsrdən yayılmağa başladığını qeyd etmişdir. Burada əbru sənətində istifadə olunan materiallar və tətbiq üsulu, əbrunun kağıza köçürülməsi, battal əbru, darama, get-gəl, şal, bülbül, səpməli battal, səpməli gəl-get, səpməli şal, daraqlı, tərs daraqlı, xəfif, qumlu, xətib, çiçəkli, nəcməddin, zəmin, akkasəli, yazılı və zərəfşahı əbru növlərini sadalayaraq anlamları haqqında ətraflı şərh vermişdir. Burada diqqət çəkən məqamlardan biri əbrunun fəlsəfəsi ilə bağlıdır. Kiçik kainatda gizlənən dərin mənalı mövzulara əbru sənətində geniş yer verilmişdir. Həqiqətin su və boya ilə əks olunması arif insanlar tərəfindən anlaşılan və batini məna daşıyan məsələlərdəndir. Burada əbrunun Şərqdən Qərbə gəlməsi və yayılması, Mustafa Düzgürmanın "Əbrunamə" əsərində maraqlı məlumatların əks olunduğu bildirilir.

Müəllif əsərin nəticə hissəsində əlyazmaların İslam və Azərbaycanın çoxəsrlik tarixində mühüm yer tutduğunu geniş şərh edərək müsbət nəticə əldə etmişdir. Həmçinin qeyd olunmuşdur ki, əlyazmaların bədii tərtibat xüsusiyyətləri müxtəlif elm sahələrini əhatə edən mütəxəssislər – tarixçi, sənətşünas, rəssam, ilahiyyatçı, filosof, şərqşünas və s. tərəfindən yüksək qiymətləndirilmiş və dolğun təsəvvür yaranmışdır. Sonda İslam əlyazma kitabları tarixinin öyrənilməsində S.Nemətzadənin "Əlyazmaların bədii tərtibat xüsusiyyətlərində dini-fəlsəfi aspektlər" mövzusunda ictimaiyyətə təqdim olunan kitabının elmi əhəmiyyəti ilə bağlı məqalədə öz əksini tapmış mülahizələrimizi aşağıda göstərildiyi şəkildə ümumiləşdirmək mümkündür:

- Dünyanın əksər bölgələrini əhatə edən İslam tarixi və mədəniyyətinin öyrənilməsi aktual olaraq qalır;
- Orta əsrlər İslam Şərqində geniş yayılmış İslam əlyazmaları dövrün hadisələrinin, mədəni və elmi həyatının öyrənilməsində əvəzsiz mənbələrdəndir;
- Burada diqqət yetirilməsi vacib olan məsələlərdən biri əlyazma kitabların bədii tərtibatı ilə bağlıdır;
- Əlyazmalarda istifadə olunan miniatürlər, əbru motivləri və rəngarəng xətt növləri zəngin İslam mədəniyyətinin, müsəlman irsinin, din tarixi və ideologiyasının tədqiq olunması baxımından əvəzsiz rola malikdirlər;
- Bu səbəbdən S.Nemətzadənin oxuculara təqdim olunan elmi-tədqiqat işi İslam əlyazmalarının, onların fəlsəfəsinin, dini aspektlərinin öyrənilməsinə işıq tutan dəyərli mənbələrdəndir;
- Əsərin elmi əhəmiyyətini artıran digər məsələ müəllifin İslamaqədərki və onun meydana gəlməsindən sonrakı dövrlərdə əlyazma əsərlərdə istifadə olunan xətt növlərini şərh etməsi, miniatür, əbru və mifologiya kimi İslam incəsənəti nümunələrinin dərin fəlsəfi mahiyyətini açıqlaması ilə sıx bağlıdır;
- S.Nemətzadə təkcə kufi xəttinin 6 növü haqqında maraqlı məqamları qeyd etmişdir;

• Əsəri maraqlı edən cəhətlərdən biri də İslam coğrafiyasına daxil olan Azərbaycanla bağlı əlyazma kitabların araşdırılmasına yer verilməsidir. Müəllif orta əsr Azərbaycanının İslam sivilizasiyasının inkişafına verdiyi töhfələrini, azərbaycanlı alimlərin əsərlərini xüsusilə qeyd etmişdir.

Monoqrafiyanın sonunda verilmiş termin və izahlar, illüstrativ materiallar Səbinə Nemətzadənin əlyazma sənətlərinə dair tədqiqatının elmi dəyərinin daha da artmasını təmin etmişdir.

Beləliklə, qeyd etmək lazımdır ki, əlyazmaşünas alim Səbinə Nemətzadənin "Əlyazmaların bədii tərtibat xüsusiyyətlərində dini-fəlsəfi aspektlər" adlı monoqrafiyası bu sahədə aparılan ilk fundamental tədqiqat əsəridir.

## ƏDƏBİYYAT


1. Mustafayev A.H. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı: 2009, 420 s.
2. Ələsgərova İ. Azərbaycan kitabının bədii və texniki tərtibat tarixi. Bakı: Təhsil, 2015, 280 s.
3. Kazımi P.F. Səfəvilər dövründə Azərbaycanda kitabxana işi. Bakı: 2008, 176 s.
4. Nağısoylu M. Ortaçağ Azərbaycan-türk tərcümə əsərlərinin əlyazmaları: özəllikləri və elmi dəyərləri // AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, "Əlyazmalar yanmır" (elmi məqalələr toplusu), № 1, 2015, s. 31-35.
5. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Şərq-Qərb, 2007, 424 s.
6. Nemətzadə S.Ə. Əlyazmaların bədii tərtibat xüsusiyyətlərində dini-fəlsəfi aspektlər. Bakı: Elm və Təhsil, 2017, 208 s.
7. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. 2 hissədə. 1-ci hissə. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2004, 328 s.
8. Adilov M. Azərbaycan paleoqrafiyası. Bakı: Elm, 2009, 224 s.
9. Nağıyeva C. Əbdürrəhman Cami əsərlərinin Bakı nüsxələri. 2 cilddə. 1-ci cild. Bakı: Nurlan, 2009, 327 s.
10. Əliyeva A. Maddi-mənəvi xəzinəmizin Naxçıvanla bağlı yazı abidələri // AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Elmi əsərlər, № 1(6), 2018, s. 76-79.
11. Kazımi P.F. Türk xalqlarının kitab və kitabxana mədəniyyəti. Bakı: "ABC" nəşriyyatı, 2012, 316 s.
12. Musalı-Səmədova V.A. Mətnlərin nəşrə hazırlanması problemləri. Bakı: Elm və təhsil, 2012, 261 s.
13. Вклад мусульман в мировую цивилизацию / А.Абусулейман, Л.М.Сафи, С.А.Ахсани, Д.А.Сиддикуи, М.Б.Ахмед, М.Шариф, П.М.Райт. Баку: Общественное объединение «Идрак», 2008, 180 с.

Агиль Ахмедов

# ПРОИЗВЕДЕНИЕ САБИНЫ НЕМАТЗАДЕ «РЕЛИГИОЗНО-ФИЛОСОФСКИЕ АСПЕКТЫ В ОСОБЕННОСТЯХ ХУДОЖЕСТВЕННОГО ОФОРМЛЕНИЯ РУКОПИСЕЙ»

## РЕЗЮМЕ

Монография является одним из внушительных трудов, имеет научное значение с точки зрения изучения исламской культуры и истории рукописных книг. Исследования особенностей оформления рукописей не только представляет интерес с точки зрения историографии, источниковедении, искусствоведении, также расследования произведения в направлении истории религии и философии, определит роль в формировании мусульманской философской мысли и в истории ислама азербайджанской рукописной культуры.

В статье анализируются научные результаты произведении «Религиозно-философские аспекты в особенностях художественного оформления рукописей» доцента Сабины Нематзаде. Перечисляются религиозно-философские аспекты в изучении культуры исламских народов и тюркско-исламской цивилизации.

Agil Ahmadov

# SABİNA NEMATZADEH'S WORK ON "RELİGİOUS-PHİLOSOPHİCAL ASPECTS İN THE ARTİSTİC DESİGN FEATURES OF MANUSCRİPTS"

## SUMMARY

The monograph is one of the impressive works and has scientific significance from the point of view of studying Islamic culture and the history of manuscript books. Studies of the design of manuscripts are not only of interest from the point of view of historiography, source study, art criticism, but investigating the work in the direction of the history of religion and philosophy, will also determine the role of Azerbaijani manuscript culture in the formation of Muslim philosophical thought and in the history of Islam.

The article analyzes the scientific results of the Associate Professor Sabina Nematzadeh's work on "Religious and philosophical aspects in the artistic design features of manuscripts". Religious and philosophical aspects in the study of the culture of Islamic peoples and the Turkic-Islamic civilization are noted in the article.

# AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNDƏ DÜNYƏVİLİK

***Azadə BAĞIROVA,***
*AMEA-nın akademik Z.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun dissertantı*

***AÇAR SÖZLƏR:*** *dünyəvilik, din-dövlət münasibətləri, dövlətçilik, konstitusiya, İslam.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *секуляризм, государственно-религиозные отношения, государственность, конституция, ислам.*
***KEY WORDS:*** *secularism, religion-state relations, statehood, constitution, Islam.*

Milli dövlətçiliyin yaranmasında xüsusi rolu olan sosial-fəlsəfi kateqoriya kimi ilk dəfə Qərbi Avropada meydana gəlmiş “dünyəvilik” baş verən inqilablardan sonra dövlətçilikdə aparıcı prinsiplərdən biri olmuşdur. 1923-cü ildə Osmanlı imperiyasının dağılmasından sonra Türkiyə Cümhuriyyətinin qurucusu olan Mustafa Kamal Atatürk həyata keçirmək istədiyi altı prinsipin içərisində dünyəviliyi xüsusi vurğulamış və dövlət quruculuğunda onun rolunu dəyərləndirmişdir.

Dünyəvilik Qərbi Avropa ölkələrində daha çox din ilə dövlətin ayrılması mənasında qəbul olunmuş, bu şəkildə də həyata keçirilməyə başlanmışdır. Türkiyədə isə dünyəvilik sadəcə din ilə dövlətin ayrılması deyil, dindən sui-istifadə edilməsinə qarşı idi.

Azərbaycan xalqı da çox qədim dövlətçilik ənənələrinə, zəngin tarixi qaynaqlara malikdir. Uzaq minilliklərdən bizə miras qalmış maddi-mənəvi sərvətimiz xalqın minilliklərdən xəbər verən qayda-qanunlar, ibtidai dini təsəvvürlər, müvafiq düşüncə tərzi və dövlətçilik mədəniyyətini özündə əks etdirir.

Azərbaycanda ilk dəfə konstitusiya quruluşunun əsası 1918-ci il may ayının 28-də Azərbaycan Demokratik Respublikasının yarandığını elan edən “İstiqlaliyyət Bəyannaməsi” və 1919-cu ildə “Müstəqillik haqqında akt” adlı hüquqi sənədlərin qəbulu ilə qoyulmuşdur. Azərbaycanın ilk konstitusiyası sovet hakimiyyəti dövründə, yəni 1920-ci ildə qəbul olunmuşdur. 1937-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının ikinci Konstitusiyası qəbul edilmişdir. 1977-ci ildə SSRİ-nin yeni, üçüncü konstitusiyasının qəbulu ənənəvi olaraq müttəfiq respublikaların, o cümlədən Azərbaycan SSR-in 1978-ci il konstitusiyasının yaranması ilə nəticələnmişdir. İttifaqın dağılması və ölkəmizin müstəqillik əldə etməsindən sonra 1991-ci ildə qəbul edilmiş Azərbaycan Ali Sovetinin müstəqillik haqqında bəyanatı və “Konstitusiya aktı” yeni konstitusiyanın bünövrəsini qoymuşdur. Nəhayət, 1995-ci il noyabr ayının 12-də keçirilən referendumda Azərbaycan Respublikasının ilk konstitusiyası qəbul edilmişdir. 2002-ci ilin avqustunda, 2009-cu ilin martında və 2016-cı ilin sentyabrında referendum yolu ilə Konstitusiyaya əlavə və dəyişikliklər olunmuşdur.

Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
- Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
- Vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
- Xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
- Ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;
- Ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək [1].

Qeyd edək ki, Konstitusiyada irəli sürülən müddəaların şərhi Azərbaycan dövlətçiliyində dünyəviliyin əsas yer tutduğunu bir daha özündə əks etdirir. Dövlətin dünyəvilik səciyyəsi özündə onu ehtiva edir ki, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Konstitusiyanın 7-ci maddəsinə əsasən, Azərbaycan dünyəvi dövlətdir. Bu, özünü aşağıdakı amillərdə göstərir:

- Rəsmi, qanuniləşdirilmiş dinin mövcud olmaması;
- Heç bir dinin məcburi müəyyən edilməməsi;
- Dinin dövlətdən ayrılması;
- Bütün dini etiqadların qanun qarşısında bərabərliyi.

Qeyd etmək lazımdır ki, dünyəvilik prinsipinin əsas məqsədi vicdan azadlığını təmin etməkdir. Dünyəvilik prinsipi dövlətimizin vətəndaşlarını hər hansı bir dini mənimsəmək, bu dinin tələblərini yerinə yetirib-yetirməmək məsələsində öz vicdanları ilə baş-başa buraxır və onlara azad seçim imkanı verir. Dövlət müəyyən bir dinə və ya məzhəbə üstünlük vermədiyi üçün hər kəs sahib olduğu inanca uyğun olaraq yaşamaq imkanı əldə edir. Əslində, dövlətimizin sahib olduğu bu dünyəvilik modeli İslam dininin “dində məcburiyyət yoxdur” prinsipi ilə üst-üstə düşür. Çünki İslam dini azad iradəni əsas şərt olaraq müəyyən edir. Bir insanın İslamı mənimsəməsi tamamilə öz azad iradəsinin seçimidir. Bunun səbəbi, İslama görə, məcburi və ya mənfəət qarşılığında qəbul edilən dini inancın, yaxud yerinə yetirilən ibadətin heç bir dəyərinin olmamasıdır. Çünki inanc və ibadət yalnız Allah üçün olduqda dəyərlidir.

Tarixi mənbələr və islamşünas alimlər İslamın zorakılıqla yayılmadığını təsdiqləmişlər. İslam dininin Azərbaycanda və bütövlükdə Qafqazda yayılması prosesində zorakılığın olmaması və bu prosesin siyasi yollar ilə həyata keçirilməsi faktı bir çox elmi ədəbiyyatda öz ifadəsini tapmışdır [2; 3; 4; 5; 6].

Azərbaycan tarixən qonşu xalqlarla və başqa din mənsubları ilə dostluq münasibətlərində və sülh şəraitində yaşamış, heç bir dini ayrı-seçkiliyə yol verməmişdir. Bu gün də dünyada

sivilizasiyalararası, konfessiyalararası dialoqun, tolerantlığın ictimai həyatda obyektiv əks olunduğu ölkə kimi tanınır.

Azərbaycanda müxtəlif etnik qrupların, xalqların tarixən tolerant şəkildə, əmin-amanlıq şəraitində yaşadıqlarını söyləyən Ümummilli Lider Heydər Əliyev İslamın tolerant din, Azərbaycan xalqının isə multikultural keyfiyyətlərə sahib olduğunu vurğulamışdır: "Dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar İslam dini ilə fəxr edirik, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik... Hesab edirik ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar" [7].

Həmçinin Ulu Öndər dövlət ilə dini qurumlar arasındakı münasibətlərin hüquqi əsaslarını aşağıdakı kimi qeyd etmişdir: "Dövlət ilə dini qurumlar arasındakı münasibətlər, bir sıra qanunvericilik aktları, Azərbaycan Respublikası Konstitusiyasının müvafiq müddəaları, "Dini etiqad azadlığı haqqında" Qanunla və digər qanunvercilik aktları ilə tənzimlənir. Biz dini ilk növbədə mədəniyyətin, tarixi irsin, milli mentalitetimizin bir fenomeni və ayrılmaz hissəsi kimi qəbul edirik" [8].

Konstitusiyanın 7-ci maddəsinin 1-ci bəndində göstərilmişdir: "Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır" [1, s.5]. Dövlət-din münasibətlərinin hüquqi tənzimlənməsi isə Konstitusiyanın 18-ci maddəsində aşağıdakı şəkildə öz əksini tapmışdır:

"I. Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir.

II. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliği qadağandır.

III. Dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır" [2, s.9].

Vətəndaşların dini etiqad və vicdan azadlığı məsələsi isə Konstitusiyanın 48-ci maddəsi ilə təsbit olunmuşdur:

I. Hər kəsin vicdan azadlığı vardır.

II. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.

III. Dini mərasimlərin yerinə yetirilməsi, ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir.

IV. Dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır [1, s.16].

Professor Sakit Hüseynov Ulu Öndər Heydər Əliyevin respublikamızda dövlət-din münasibətlərində hüquqi-təşkilati məsələlərin həllinə diqqət yetirdiyini qeyd edərək bildirir ki, "Azərbaycanda dövlətin din siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ilin iyununda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. Bu Komitə ölkəmizdə mövcud olan dini strukturların fəaliyyətinin tənzimlənməsi

və dövlətin din siyasəti sahəsində müxtəlif funksiyaları yerinə yetirir. Dövlət Komitəsi öz fəaliyyətində hüquqi cəhətdən Azərbaycan Respublikasının Konstitusiyasına, “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununa və digər müvafiq qanun və normativ-hüquqi aktlara əsaslanır. Dövlətin din siyasətinə aid olan məsələlərdə, dinlə bağlı qanunvericilik aktlarında dini icmaların və dini təşkilatların dövlət siyasətinə müdaxilə etməsinə hüquqi cəhətdən imkan verilmir. Bu vəziyyət bir daha onu göstərir ki, Azərbaycan Respublikasında həm nəzəri, həm də əməli cəhətdən din dövlətdən, dövlət dindən ayrıdır [9, s.44-45].

AMEA-nın müxbir üzvü, professor Səlahəddin Xəlilov “Mənəviyyat fəlsəfəsi” əsərində qeyd edir ki, insanın mənəviyyatının kamilləşməsində onun maddi-genetik xüsusiyyətləri ilə yanaşı, ictimai mühitin də güclü təsiri vardır. İctimai mühitin təsiri ilə insan cəmiyyətdə daha kamil və faydalı fərd kimi formalaşır [10]. İnsanların multikultural cəmiyyətdə yaşaması onlarda dini tolerantlığın formalaşmasında mühüm rol oynayır.

2009-cu ilin noyabrın 6-7-də Bakı şəhərində “Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru” mövzusunda keçirilmiş Beynəlxalq konfransda çıxış edən Prezident İlham Əliyev bu haqda demişdir: “Azərbaycanda din ilə dövlət ayrıdır. Azərbaycan dünyəvi dövlətdir. Ancaq bununla bərabər, din ilə dövlət birdir. Bu birlik bizi qarşımızda duran amallar ətrafında birləşdirir. O da Azərbaycanın dövlət müstəqilliyini daha da möhkəmləndirmək, Azərbaycanda sabitliyi daim yüksək səviyyədə saxlamaq, Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması üçün əməli tədbirlər görmək, Azərbaycanda dinlərarası münasibətlərin həmişə müsbət istiqamətdə inkişaf etməsini təmin etmək, Azərbaycanda yaşayan bütün xalqların hüquqlarını qorumaq amallarıdır” [11].

Dövlət başçısının bu fikirləri bir daha onu göstərir ki, Azərbaycan dünyəvi dövlətdir və dövlət-din münasibətlərində dünyəvilik prinsiplərinin qorunub saxlanılmasını təmin etmək qarşımızda duran vacib məsələlərdən biridir.

Bir sözlə, Azərbaycan Respublikasının Konstitusiyasında və digər qanunvericilik sənədlərində irəli sürülən əsas müddəaları əldə rəhbər tutaraq dinlərarası münasibətlərin inkişaf etdirilməsi, respublikamızda yaşayan bütün xalqların hüquqlarının qorunması, bütövlükdə dövlət-din siyasətinin uğurla davam etdirilməsi dövlətimizin bu istiqamətdə apardığı işlərin əsasını təşkil etməklə dinlərarası dialoq və qarşılıqlı anlaşmaya şərait yaradır.

Tolerantlıq, dini, milli-irqi dözümlülük milli mentalitetimizin ayrılmaz xüsusiyyətidir. Tarixdən məlumdur ki, əsrlər boyu Azərbaycanda xalqlar tolerant və çoxmədəniyyətli cəmiyyətdə yaşamış, etnik və dini icmalar arasında dözümlülük əlaqələri formalaşmış, milli, irqi, dini ayrı-seçkiliyə yol verilməmişdir. Azərbaycan dünyada müxtəlif dinlərin ibadət ocaqlarının dinc, yanaşı fəaliyyət göstərdiyi ölkələr sırasındadır. Ölkəmizdə dini tolerantlıq mühiti Ümummilli Lider Heydər Əliyevin dövlət-din konsepsiyasına uyğun olaraq inkişaf etdirilmiş, dövlət siyasətinin prioritet istiqamətinə çevrilmişdir. Bu siyasətin uğurla davam etdirilməsi nəticəsində Azərbaycan Respublikasında dini etiqad azadlığı təmin olunmuşdur. Milli iradə və insanlığa məxsus dəyərlərin ən alisi olan din azadlığı ancaq dünyəvilik prinsipinin doğru tətbiqi ilə qoruna bilər.

# ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası / http://www.e-qanun.az/framework/897
2. Bünyadzadə K. İslam fəlsəfəsi: tarix və müasirlik. Bakı: Çaşıoğlu, 2010, 154 s.
3. Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər. Bakı: Əbilov, Zeynalov və oğulları NPE, 2007, s. 3-4.
4. İdris Abbasov. 525-ci qəzet. 2013, 30 oktyabr.-S.6.
5. Paşazadə A. Qafqazda İslam. Bakı; Azərnəşr, 1991, 224 s.
6. Rüstəmov Y. Tarix lokal sivilizasiyaların qarşılıqlı münasibəti kimi. Bakı: Səda, 2008.
7. Heydər Əliyev. "İslam sivilizasiyası Qafqazda" mövzusunda Beynəlxalq simpoziumda nitqi. "Azərbaycan" qəzeti, 10 dekabr, 1998-ci il.
8. Xalq qəzeti, 11 noyabr. 2002-ci il.
9. Hüseynov Sakit. Azərbaycanda dini tolerantlıq mədəniyyəti: Tarix və müasirlik. Bakı: Təknur nəşriyyatı, 2012, 176 s.
10. Xəlilov S.S. Mənəviyyat fəlsəfəsi. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2007, 520 s.
11. İslam: Tarix. Fəlsəfə. İbadətlər. Bakı: Elm, 1994, səh.147- 148, 336 s.

Азада Багирова

# СЕКУЛЯРИЗМ В ГОСУДАРСТВЕННОСТИ АЗЕРБАЙДЖАНА


## АННОТАЦИЯ

В статье излагаются конституционные основы секуляризма, государственно-религиозных отношений, моральных ценностей в Азербайджане. В статьях Азербайджанской Конституции обеспечивается правовые основы свободы и совести.

В контексте «Государство и религия» Азербайджана подчеркивается важность развития религиозной толерантности как приоритета государственной политики, а также анализируются социально-философские аспекты религиозных вопросов.


Azada Baghirova

# SECULARISM IN THE STATEHOOD OF AZERBAIJAN


## ABSTRACT

The article reviews constitutional framework of secularism, state-religion relations and moral values in Azerbaijan. The articles of the Azerbaijani Constitution provides for freedom of religion and conscience.

Within the Azerbaijani “State and Religion” context, the article outlines development of religious tolerance as a priority of state policy and analyses social and philosophical aspects of religious issues.

# HÜRUFİLİYİN TARİXİNDƏN

***Əli FƏRHADOV,***
*AMEA Milli Azərbaycan Tarixi Muzeyinin*
*böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru,*
*ali_farhadov@yahoo.com*

***AÇAR SÖZLƏR:*** *Hürufilik, Fəzlullah, Nəsimi, Rəfii, türk dili.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Хуруфизм, Фазлуллах, Насими, Рафии, турецкий язык.*
***KEY WORDS:*** *Hurufism, Fazlullah, Nasimi, Rafii, Turkish language.*

Panteizm və sufizim elementlərini özündə ehtiva edən hürufilik və yaxud da hürufiyyə XIV əsrin sonlarında Qərbi İranda, Azərbaycan və Anadolu ərazisində meydana gəlmişdir. XV əsrin əvvəllərindən geniş yayılmağa başlayan bu sufi təliminin adı ərəbcə "hüruf" yəni, hərflər sözündən götürülmüşdür və təriqətin əsas mahiyyəti ərəb hərflərinə mistik çalarlar əxz etməkdi.

Hürufiliyin fəlsəfi-dini təlim kimi yaranması əslən Azərbaycan türklərindən olan Fəzlullah Nəiminin adı ilə bağlıdır. Gənclik illərində ilahiyyata maraq göstərən Fəzlullah Nəimi on səkkiz yaşında təsəvvüfə yönələrək həccə getmişdir. Həccdən qayıdarkən bir müddət Xarəzmdə qalmış sonra Təbrizə getmişdir. Dini söhbətləri ilə Təbrizdə böyük hörmət qazanmış Nəimi 1386-cı ildə təlimini burada elan etmiş, daha sonra bu fəlsəfi cərəyanı İsfahanda yaymağa başlamışdır.

Yeni təlimin qısa müddətdə sürətlə yayılması və Nəiminin şəxsi nüfuzunun artması hakim dairələrdə narahatlıq yaratmışdır. Nəticədə Fəzlullah Nəimi Miranşahın əmri ilə həbs edilmiş və 1394-cü ildə Əlincə qalasında edam edilmişdir. Bundan sonra da Fəzlullahın müridləri də təqiblərə məruz qalmışdır. "Ərşnamə", "Cavidannamə", "Növmnamə", "Məhəbbətnamə" Fəzlullah Nəiminin ən məşhur əsərlərindəndir.

## Hürufiliyin yayılması

Fəzlullah Nəiminin ölümündən sonra onun təlimi müridləri tərəfindən təbliğ olunurdu. Lakin əvvəlcə Teymuri hökmdarı Şahruxa, daha sonra isə Qaraqoyunlu hökmdarı Cahanşaha qarşı olan üsyanlar yatırıldı və üsyana rəhbərlik edən Fəzlullah Nəiminin qızı beş yüzə qədər tərəfdarı ilə birlikdə edam edildi.

Bundan sonra hürufilərin böyük əksəriyyəti Anadoluya sığındı. Hürufiliyin Anadoluda yayılmasında Nəsimi və Rəfii kimi azərbaycanlı mütəfəkkirlərin böyük rolu olmuşdur. Fəzlullah Nəiminin əsərlərinin türk dilinə tərcüməsi də bura daxildir. İran və Azərbaycanda təzyiqlərə və təqiblərə məruz qalan hürufilər Anadoluda və Suriyada öz fəaliyyətlərini davam etdirməyə çalışdılar, lakin müvəffəq ola bilmədilər. Ancaq hürufiliyin təsirləri bəktaşilik və s. təriqətlərin içində yaşaya bildi.

Ümumilikdə hürufiliyi iki dövr etibarilə dəyərləndirə bilərik. Birincisi – bu dini cərəyanının XIV əsrdə Fəzlullah Nəimi tərəfindən qurulub, xələfləri vasitəsilə yarım əsr içində

İran və Azərbaycanda yayılması, ikinci dövr isə Fəzlullahın kürəkəni olan Əliyyül-Əla, Mir (Seyyid) Şərif, Nəsimi və onun davamçısı Rəfii kimi hürufi mütəfəkkirlərinin Anadoluya və Suriyaya keçib bu təlimi yaymalarıdır [1, s.9].

Hürufiliyin əsas şüarı olan “ənəlhəq” ifadəsi IX-X əsrlərdə Həllac Mənsur tərəfindən ortaya qoyulmuş və buna əsaslanan “vəhdəti-vücud” (varlığın birliyi) fəlsəfəsi hürufilik kimi qeyri-ənənəvi islami cərəyanların ilham qaynağı olmuşdur. Həllac Mənsurun faciəvi aqibətinə baxmayaraq, o, öz davamçıları tərəfindən bir peyğəmbər səviyyəsinə qaldırılmışdır. Fəzlullah Nəimi, İmadəddin Nəsimi, Şeyx Bədrəddin, Pir Sultan Abdal kimi sufilər özlərini Həllacın davamçısı saymışlar [2, s.152-158]. Allahın insanda təzahürü inamı Osmanlıda bəktaşi, qələndəri, qızılbaş, bayramiyyə məlamiliyi kimi sufi mühitlərində də öz tərəfdarlarına sahib olmuşdur [2, s.152-158]. Osmanlı sufiliyinə hürufiliyin də böyük təsiri olmuş, bunun formalaşmasında Anadoluda hürufiliyi yayan Nəsimi və onun xələfi Rəfii öz türkcə əsərləri ilə xüsusi rol oynamışdır. Osmanlıda hürufiliyin bəktaşiliyə böyük təsiri Fəzlullahın xələfi Əliyyül-Əla ilə başlayır. Fəzlullahın edamından sonra Anadoluya gələn Əliyyül-Əla bəktaşi təriqətinə üzv olur və bəktaşiliyin “İşıq” qolunu quraraq gizli şəkildə hürufiliyi yayır [3, s.179]. Lakin daha sonra Naxçıvana gəlir və 1412-ci ildə öldürülür [4, s.281]. Mir Şərif isə əsasən Şimali Anadolu və Qara dəniz bölgəsində hürufiliyi yaymış [5], bəktaşilərin içində gizli olaraq fəaliyyət göstərmişdir [6, s.408-412].

Hürufiliyin Anadoluda yayılmasında böyük rolu olan İmadəddin Nəsiminin türkcə Divanından başqa türk dilində yazdığı “Müqəddimətül-həqayiq” (“Həqiqətlərə giriş”) adlı nəsr əsəri də təlimin sadə xalq dili ilə Osmanlı ərazisində yayılmasına şərait yaratmışdır. Həmçinin, Nəsimi tərəfindən hürufiliyi Anadoluda yaymaqla vəzifələndirilən Rəfiinin 1409-cu ildə yazdığı “Bəşarətnamə” əsərinin türkcə yazıldığını qeyd etmək lazımdır. Bu baxımdan Rəfiinin hürufiliyi Anadoluda türkcə yayan ilk şəxslərdən olduğunu deyə bilərik [1, s.9].

Fəzlullah Nəiminin Səmərqənd və Şirvan fəqihlərinin fətvası ilə [7, s.245-246] 1401-ci ildə Teymurun oğlu Miranşah tərəfindən edam edilməsindən sonra Azərbaycandan Anadoluya gələn Nəsimi Osmanlı hökmdarı Sultan I Muradın (1360-1389) hakimiyyəti dövründə paytaxt Bursaya getdi, lakin burada yaxşı qarşılanmadı. O, bayramiyyə təriqətinin qurucusu, məşhur sufi Hacı Bayram Vəli ilə görüşmək üçün Ankaraya da getsə də, hürufiliklə əlaqəli fikirlərinə görə onun tərəfindən qəbul edilmədi [8, s.269-273; 9, s.3-5]. Qeyd edək ki, Hacı Bayram Vəli Səfəvi şeyxlərindən Sədrəddin Ərdəbili (ö.1391) və Əlaəddin Ərdəbilinin (ö.1429) xəlifəsi olan Somuncu Baba ləqəbli Şeyx Həmidüddin Aksarayinin müridi olmuşdur və Osmanlının rəsmi məzhəbi olan sünniliyə sıx bağlı idi [8, s.269-273; 10, s.377-378]. Hacı Bayram Vəlinin müridi Germiyanlı Yusif Sinanəddin isə Nəsimi ilə görüşmüş, onun təsiri ilə “Şeyxi” təxəllüsü ilə əsərlər yazmışdır [11, s.80-82; 12, s.112 ].

Anadoluda fikirlərini yaymağa imkan tapmayan Nəsimi Hələbə getdi və İbn Həcər əl-Əsqəlani qeyd edir ki, burada onun tərəfdarları çoxaldı. Hətta Fəzlullahın tələbəsi Mövlana Feyzullahın Konyadakı dərslərində iştirak edən məşhur türk sufisi Şeyx Bədrəddin Simavinin də onunla görüşmək üçün Hələbə gəldiyi ehtimal edilir [2, s.211, 214].

Nəsiminin "Müqəddimətül-həqayiq" əsəri hürufiliyin əsas prinsiplərini Anadolu türkcəsi ilə izah üçün yazılmış əsərdir. Əsərin bir çox əlyazmasında müəllifin Seyyid Nəsimi olduğu qeyd edilmişdir. "Müqəddimətül-həqayiq" "Cavidannamə"nin ağır fəlsəfi üslubundan fərqli olaraq, axıcı, anlaşıqlı dildə yazılmış, cümlələr bir-birini tamamlamaqla məntiqi ardıcıllıqla düzülmüşdür. Nəsimi orada hürufiliyi təbliğ etmək üçün, həqiqətən, çox əlverişli zəmin hazırlamışdır. Fəzlullahın "Cavidannamə"sini isə ancaq intellektuallar anlaya bilər [13].

"Müqəddimətül-həqayiq"də IV xəlifə Əli ibn Əbu Talibə xüsusi məhəbbət vurğulanır. Əsərin girişində Allahın sirlərinin Quranda və "Fatihə" surəsində, onların sirrinin isə "Bismillah"dakı "b" hərfinin altındakı nöqtədə olduğu, xəlifə Əlinin bu nöqtə olduğu, yəni Allahın bütün sirlərinə agah olduğu ifadə edilir [14, s.3]. Təbii ki, bu ifadə İslam tarixindəki xəlifə Əli şəxsiyyəti ilə həmahəng deyil və burada biz xəlifə Əlinin ilahiləşdirildiyini müşahidə edirik. Bənzər ifadəni "Cavidannamə"də də görürük. Fəzlullah qeyd edir ki, "kəlami-natiq vəchi-Adəmdir", yəni Adəm danışan kəlamdır. O, buna nümunə kimi xəlifə Əlinin "Ənə kəlamullahi-natiq" ("Mən danışan ilahi kəlamam, yəni Quranam") dediyini nəql edir. Fəzlullaha görə, onun özü də xəlifə Əlinin təzahürüdür [15].

"Cavidannamə"də Allahın kəlamının 32 hərfdən ibarət olduğu, bu kəlamın Allahın Zatından ayrı olmadığı da deyilir [1, s.18]. Təbii ki, burada əsas vurğulanmaq istəyən Fəzlullahın timsalında kamil insanın Allahın kəlam sifətinin daşıyıcısı, yəni ilahiliyini vurğulamaq idi. Nəsiminin Fəzlullaha xitabən yazdığı -

"Ayəti-səbül-məsanidir yüzün,
Otuz ikinin nişanidir yüzün" [16, s.174].

beyti buna nümunədir, yəni "Ey Fəzlullah, sənin üzün "Fatihə" surəsinin, otuz iki hərfdən ibarət ilahi kəlamın güzgüsüdür, təzahürüdür".

"Cavidannamə"də də insanın ilahiləşdirildiyini görürük.

"Adəmin yüzündə yazdı aşikar
Surəti ayineyi-Həqdür təmam" [17, s.34]

və "Otuz iki xətti-ilahi olur" [17, s.31] - deyən Fəzlullah Allahın və Quranın təzahürünü Adəmin timsalında insanda, otuz iki hərfdə isə ilahiliyi görür.

Qeyd edək ki, Allahın Adəmə öz ruhundan üfləməsini bildirən Quran ayəsi [18] və "Səhihi-Buxari" və "Səhihi-Müslim" kimi mötəbər hədis kitablarında da "Allah insanı öz surətində yaratdı" [19] ifadəsinin yer alması sufilik və hürufilikdə insanın ilahiləşdirilməsinin qaynağını təşkil etmişdir. Hürufilər bir qədər də irəli gedir, insanın zahirində də ilahiliyin əlamətini görürdülər. Nəsimi də -

"Şeytandur ol kim surətinə qılmadı sücud, (səcdə)
Şeytana münkir olmuşam, inkara düşmüşəm".

deyərək buna işarə edirdi [20].

Anadoluda hürufiliyin türkcə yayılmasında xüsusi rol oynayan Rəfii Nəsiminin xəlifəsi olub, onun vasitəsilə hürufiliyi qəbul edib. Əslən Şirvandan [21, s.526-527] olan Rəfii Nəsiminin ona xitabən dediyi -

“Sən dəxi Rum əhlin agah eyləgil,

Onlara bu gizli razı (sirri) söyləgil” [21, s.526-527].

beytilə Anadoluda fəaliyyətə başlamışdır. Əsas türkcə əsəri olan “Bəşarətnamə” Fəzlullahın “Cavidannamə”, “Ərşnamə” və “Məhəbbətnamə” əsərlərinin, bir növ, tərcümə və xülasəsidir. Əsərdə sözün 32 hərfdən meydana gəldiyi, bunun insanın üzündə də təzahür etdiyi bildirilir. Müəllif bu mənzum əsərini türklər anlasın deyə türkcə yazdığını göstərir. Şairin mənzum “Gəncnamə” əsəri də vardır. Burada da hürufilik təlimi izah edilir.

“Özündür iki cahana sərvər,

Sənsün otuz iki nutqa məzhər” [22].

deyilərkən Fəzlullah və Nəsiminin timsalında insan ilahiləşdirilir.

Təbii ki, İslam tarixində “ənəlhəq” ifadəsini ilk dəfə deyən Həllac Mənsurun faciəvi aqibətinə onun yolunu davam etdirən digər sufi və hürufilər də məruz qaldılar. Nəsiminin müasiri olan ilahiyyatçı ərəb alimi İbn Həcər əl-Əsqəlani “İnbaul-ğumr” əsərində yazır: “820-ci (1417) ildə Hələbdə yaşayan Şeyx Nəsiməddin Təbrizi öldürülmüşdür. O, Hələbdə hürufiyyə məzhəbinin şeyxi idi. Orada onun məsləkdaşlarının sayı artır, küfrü intişar edir və şöhrət qazanır. Onun başını kəsib, dərisini soydular və cəsədini çarmıxa çəkdilər” [23, s.3-5]. Qeyd edək ki, onun edamına səbəb “Çün Nəsimi aləmin sultanıdır” deyən şairin azad fikirliliyi və hürufiliyi geniş təbliğ etməsi, sadə xalq və siyasətçilər arasında tərəfdarlarının çoxalması, bunun da dövrün dini və siyasi hakimiyyətini narahat etməsi idi. Nəticədə hənbəli və hənəfi məzhəbi qazıları tərəfindən küfrdə ittiham olunur və öldürülməsinə fətva verilir. Nəsimi məmlük sultanı əl-Müəyyədin əmri ilə Əmir Yaşbəy tərəfindən Hələbdə öldürülür, dərisi soyulur və yeddi gün bu hadisə Hələbdə car çəkilib əyan edilir, sonra da cəsədi parça-parça edilir [9, s.3-5; 24; 25]. Rəfiinin “Bəşarətnamə”sində isə Nəsimi haqqında “şəhidi eşqi-fəzli-zülcəlal” deyilməsi onun bu əsərin yazıldığı 1408-ci ildən əvvəl qətl edildiyini göstərir [26]. Nəsiminin qətl edildikdən sonra parçalanmış bədən üzvlərinin Məmlüklərin rəqibi olan Dülqədiroğulları bəylərinə və Ağqoyunlu Qarayuluq Osman bəyə göndərilməsi də onların Nəsiminin, hürufiliyin tərəfdarı olduğunun işarəsidir [9, s.3-5]. Nəsiminin müasiri olan ərəb alimi Sibt ibn əl-Əcəmi əl-Hələbinin “Kunuz əz-Zəhəb” əsərində bildirdiyinə görə, Əmir Yaşbəy Nəsiminin qətlindən bir müddət sonra naməlum şəxslər tərəfindən öldürülür. Onun Nəsiminin saxlanıldığı qalanın qapısından asılaraq baş dərisinin soyulması da hürufilərin Nəsiminin intiqamını Yaşbəydən aldıqlarına işarədir [27].

XVI əsr Osmanlı tarixçisi Taşköprüzadənin “Şəqaiqi-Numaniyyə” əsərinə görə, Fəzlullahın xəlifələri Osmanlı sarayına da girmiş, Fateh Sultan Mehmedi öz təsiri altına almağa cəhd etmişdi. Hürufilərin saraydakı fəaliyyəti, sultana yaxınlığı Osmanlının baş vəziri Mahmud Paşanı narahat etmiş və o, müfti Molla Fəxrəddin Əcəminin yardımı ilə sarayda sultanın hüzurunda təşkil edilən bir müzakirədə hürufilərin kafirliyini, hülula (reankarnasiya) inandıqlarını sübut etmiş, saraydakı hürufilər yandırılaraq qətlə yetirilmişdi. Müəllif hürufilərin diri-diri yandırılmasını əsərində belə ifadə edir: “Zəlalətə düşənlər layiq olduqları atəşə belə qovuşdular” [28]. 1450-ci illərin sonunda baş verən bu faciəvi hadisə ilə hürufiliyə böyük zərbə

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

dəydi və onun ardıcılları öz fəaliyyətlərini digər sufi təriqətlərinin adı altında davam etdirməyə məcbur oldular. Lakin Osmanlıda hürufilik hələ uzun müddət yaşadı. Bunda Fəzlullahın "Cavidannamə" əsərini müxtəsər şəkildə "Eşqnamə", "Məhəbbətnamə"ni isə "Hidayətnamə" adı ilə türk dilinə tərcümə edən XV əsr Osmanlı hürufisi Əbdülməcid Firiştəoğlu [29, s.83] və Seyyid Nəsiminin davamçısı, öz şeirlərilə hürufiliyi yayan XVII əsr şairi Qul Nəsimi də böyük rol oynadı. "Eşqnamə" 1871-ci ildə İstanbulda da nəşr edildi. Bu, 1844/45-ci ildə İstanbulda nəşr edilən "Divani-Nəsimi"dən sonra hürufiliyə aid Osmanlıda çap olunan ilk əsər idi [30, s. 134-135].

Nəticə olaraq bunu deyə bilərik ki, əsası İran və Azərbaycanda qoyulan hürufilik təlimi Osmanlıda da yayılmış, sufiliyin inkişafına böyük təsir göstərmişdir. Osmanlı türk ədəbiyyatında Həllac və Nəsimi "söz şəhidlərinin rəhbəri" kimi daim hörmətlə zikr edilmişdir. Türkiyəli ilahiyyatçı, təsəvvüf tədqiqatçısı Mahmud Erol Kılıç yazır: "Həllacı dar ağacından asanlar, Nəsiminin canlı-canlı dərisinin soyulmasına fətva verənlər İslam hüquqçuları idi. İlahi həqiqətdən, mərifətullahdan məhrum hüquqçular. İrfan yox, hikmət yox. İslam dünyası hikmətini itirdi" [31]. Nəsiminin tədqiqi itirilmiş bu hikməti bizə geri qaytarır. Qeyd edək ki, Azərbaycanın qazı əl-Bakuvi kimi din xadimləri də "ənəlhəq" deyən sufi mütəfəkkirlərin qətl edilməsinin günahını dövrün nadan və cahil din xadimlərində, zalım idarəçilərdə görmüş, bunu qınamışdılar. Osmanlıda hətta erməni şairləri arasında da hürufilik, Nəsimi sevgisi geniş yayılmışdı. XVI-XVII əsrə aid erməni hərfləri ilə yazılmış əlyazmalarda Nəsiminin şeirləri ilə də qarşılaşırıq. Bu, erməni, yaxud erməniləşmiş şair və aşıqların Nəsimiyə, həmçinin hürufiliyə nə qədər böyük rəğbət bəslədiyinin sübutudur [32, s.18-21]. Onların içində Nəsimini özünə mürşid sayan Sayat-Nova və "Məni Nəsimi kimi soysanız da, inamımdan dönmərəm" deyən və ölüm ayağında da Nəsimidən şeirlər deyən XVI-XVII əsr şairi Tiqranaqertsi kimi şairlər də olmuşdur [32, s.18-21]. Bütün bunlar göstərir ki, Nəsimi yaradıcılığı bütün dünyanı qucaqlayır və dinindən, millətindən asılı olmayaraq, hər kəsə insanın ülviliyini, ilahiliyini təbliğ edir. Bu da multikulturalizm, İslam həmrəyliyi kimi dövrümüzün mütərəqqi ideyaları ilə həmahəngdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu ili "Nəsimi İli" elan etməsi də gənc tədqiqatçıların qarşısında Nəsimi irsinin bu istiqamətdə tədqiqi və təbliği üçün mühüm vəzifələr qoyur.

## ƏDƏBİYYAT


1. Usluer F. Hurufilik: İlk Elden Kaynaklarla Doğuşundan İtibaren. İstanbul: Kabalcı yay., 2009.
2. Ocak A.Y. Zındıklar ve Mülhidler (15. – 17. Yüzyıllar). İstanbul: 2013.
3. Melikoff İ. Efsaneden Gerçeğe-Hacı Bektaşi (terc: Turan Alptekin). İstanbul: 2010.
4. Aksu H. Ali el-A`la. TDV İslâm Ansiklopedisi, 2-ci cild. İstanbul: 1989.
5. Karahüseyin S. Bektaşîlik Geleneğine Hurufî Bir Dokunuş: Nesîmî Örneği / https://scholar.google.com.tr/citations?user=5dqeWLsAAAAJ&hl=tr
6. Aksu H. Hurufilik. TDV İslâm Ansiklopedisi, 18-ci cild. İstanbul: 1998.

7. Meral H. Mirza Miranşah ve Askeri Faaliyetleri // History Studies, Journal of History Studies, Volume 9, Issue 1, March 2017, p.245-246.
8. Bayramoğlu F., Azamat N. Bayramiyye. TDV İslâm Ansiklopedisi, 5-ci cild. İstanbul: 1992.
9. Bilgin A. Nesimi. TDV İslâm Ansiklopedisi, 33-cü cild. İstanbul: 2007.
10. Şahin H. Somuncu Baba. TDV İslâm Ansiklopedisi, 37-ci cild. 2009.
11. Biltekin H. Şeyhi. TDV İslam Ansiklopedisi, 39-cu cild. İstanbul: 2010.
12. Kılıç M.E. Sufi ve şiir: osmanlı tasavvuf şiirinin poetikası. İstanbul: İnsan yay., 2004.
13. Şıxıyeva S. O əsəri alimə götürəndə dedim, Nəsiminin deyil... / https://teleqraf.com/news/toplum/202062.html?fbclid=IwAR0icV_8d4L_-rWm3ZtcCu7hL399XKgt86pwq3R3dDEHeqVQrotqyyAJgCs
14. Bayramoğlu F., Azamat N. Bayramiyye. TDV İslâm Ansiklopedisi, 5-ci cild. İstanbul: 1992.
15. Fazlullah Esterabadi "Cavidanname" (haz: Kemal Kemaloğlu) / kitabxana.net/files/books/file/1252526386.doc
16. Şıxıyeva S. "Otuzikisayınınbədii-fəlsəfimənatutumu(Nəsimişeiriəsasında)/https://www.academia.edu/31275325/_OTUZ_%C4%B0K%C4%B0_SAYININ_B%C6%8FD%C4%B0%C4%B0-F%C6%8FLS%C6%8FF%C4%B0_M%C6%8FNA_TUTUMU_N%C9%99simi_%C5%9Feiri_%C9%99sas%C4%B1nda_
17. Arıkoğlu İ. Ferişteoğlu`nun Cavidan-name tercümesi: Işkname (İnceleme-Metin). Van: 2006.
18. Qurani-Kərim, "Hicr" surəsi, 29 / https://quran.az/15/t2
19. http://kuranikerim.com/kutubi-sitte/3460.html
20. Şenödeyici Ö. Hurufiliği ön yargıdan arındırmak bağlamında Ferişteoğlu`nun Hidayetname`sinin tetkiki ve neşri / http://fatihusluer.com/archive/SENODEYICI%20Feristeoglunun%20Hidayetnamesinin%20Tetkiki%20ve%20Nesri.pdf
21. Kut G. Refii. TDV İslâm Ansiklopedisi, 34-cü cild. İstanbul: 2007.
22. Usluer F. Refii / http://fatihusluer.com/
23. Bilgin A. Nesimi. TDV İslâm Ansiklopedisi, 33-cü cild. İstanbul: 2007.
24. Nesimi Divanı //
25. https://ru.scribd.com/doc/92870836/NES%C4%B0M%C4%B0-D%C4%B0VANI
26. Nuri E. "Akademik Ziya Bünyadovun fərziyyəsi: "Nəsimini diri-diri soymayıblar" // https://modern.az/az/news/45856#gsc.tab=0
27. Usluer F. Refii / http://fatihusluer.com/
28. Qasımova A. Bu qisas Nəsimiyə görə olmasın? / http://ilkxeber.org/bu-qisas-n%c9%99simiy%c9%99-gor%c9%99-olmasin-2/
29. Bardakçı M. Fatih'in yaktığı Matrix Tarikatı // Sabah gaz., 31 Mart 2007.
30. Babayev Y. Təriqət ədəbiyyatı: sufizm, hürufizm. Bakı: 2007, 128 s.
31. Aksu H. Firişteoğlu. Abdülmecid. TDV İslâm Ansiklopedisi, 13-cü cild. İstanbul: 1996.
32. Kılıç M.E. Osmanlı'nın mânevî babası İbn Arabi'ydi // http://www.cins.com.tr/soylesi/mahmud-erol-kilic-osmanlinin-manevi-babasi-ibn-arabiydi/
33. Seyidov M. Sayat Nova. Bakı: 1954.

Али Фархадов

## ИЗ ИСТОРИИ ХУРУФИЗМА

РЕЗЮМЕ

Большую роль в распространении хуруфизма на турецком языке сыграли такие азербайджанские мыслители, как Насими и Рафии. Это касается в том числе и перевода трудов Фазлуллаха на турецкий язык. Хуруфиты, подвергавшиеся гонениям и преследованиям в Иране и Азербайджане, пытались продолжить свою деятельность в Анатолии и Сирии, но безуспешно. Однако влиянию хуруфизма удалось сохранится в религиозном течении бекташи и других сектах.

Ali Farhadov

## ON THE HISTORY OF HURUFISM

SUMMARY

Azerbaijani thinkers such as Nasimi and Rafi have played a great role in spreading of Hurufism in Turkish language. This includes the translation of Fazlullah’s works into Turkish. Hurufists who were subjected to persecution and harassment In Iran and Azerbaijan, sought to continue their activities in Anatolia and Syria, but failed to succeed. However, the influence of hurufism could persist in the sects of Bektashi and other sects.

# YƏHUDİLİKDƏ PEYĞƏMBƏRLİK VƏ PEYĞƏMBƏRLƏR

***Şükür ƏNDƏLİFOV,***
*Bakı İslam Universitetinin*
*Dinlər tarixi üzrə magistri,*
*s.andalifov@gmail.com*

***AÇAR SÖZLƏR:*** *Yəhudilik, peyğəmbər, inanc, müqəddəs.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *иудаизм, пророк, вера, святость.*
***KEY WORDS:*** *Judaism, Prophet, faith, holy.*

## Giriş

Peyğəmbərlik əksər dinlərdə qəbul edilən təməl inanclardan biridir. Qiyamət günü Allah-Təala "Nə üçün Mənə inanmadın? Mənə ibadət etmədin?" və s. suallar soruşduqda insanlar "Ey Rəbbimiz! Biz bundan xəbərsiz idik" deməsinlər deyə peyğəmbərlər göndərmiş, istədiklərini onlar vasitəsilə bəndələrinə bildirmişdir. Bu baxımdan peyğəmbərlər insanlara qarşı höccət təşkil edirlər. Biz də bu məqaləmizdə Yəhudilikdə peyğəmbərlik inancının hansı şəkildə olduğunu və kimləri peyğəmbər olaraq qəbul etdiklərini göstərməyə çalışmışıq.

İlk növbədə qeyd etməliyik ki, peyğəmbər də insandır və bəşəri xüsusiyyətlərə sahibdir. Digər tərəfdən, onlar Tanrının yer üzündəki elçiləridir. Peyğəmbərliyin isbatı onların göstərdiyi möcüzələrlə mümkündür. Bu möcüzələrə peyğəmbərlərin dövründə yaşayanlar şəxsən şahid olmuşlar. Daha sonrakı dövrlərdə isə insanlar onların varlığından dəqiqlik ifadə edən mütəvatir xəbərlərlə xəbərdar olmuşlar.

## Peyğəmbərlik inancı

İnsan şüura sahib olduğuna görə mükəlləf varlıqdır. Uca Yaradan **"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!"** [1, "Zəriyət", 56] buyurur. Deməli, insan Yaradanını tanımaq, Ona inanmaq və qulluq etməklə mükəlləfdir. İnsan Allahın ona verdiyi ağılla Yaradanını tapa bilər. Lakin Ona necə qulluq edəcəyini, Allah-Təalanın bəndələrindən nələr istədiyini, əmr və qadağalarını yalnız öz ağlı ilə bilə bilməz. Bütün bunları öyrədəcək elçiyə ehtiyac vardır. Mənəvi sağlamlığın qorunması peyğəmbərlərin öyrətdiklərinə və onların nə qədər hissəsinin həyatımıza tətbiq etməyimizə bağlıdır. Həzrət Peyğəmbər (s) də *"Mən gözəl əxlaqı tamamlamaq üçün göndərildim"* (Müvətta, Hüsnül-Xülq, 8; Əhməd ibn Hənbəl, 2/381) buyurur.

İnsanların mənəvi kirlərdən təmizlənməsinə və kamil insan kimi yetişməsinə kömək etmək məqsədilə göndərilmiş peyğəmbərlərin vəzifələrinə inanıb gözəl əməl işləyənləri Cənnətlə müjdələmək, kafir və asiləri Cəhənnəmlə qorxutmaq, insanların ixtilafa düşdükləri mövzularda hökm vermək daxildir [2, s.135].

Allah-Təala insanlara aralarından seçdiyi şəxsləri peyğəmbər olaraq göndərmişdir. İnsanlar ağıl, zəka, düşüncə, baxış, fikir, dəyərləndirmə və s. baxımından fərqli olduqlarından, peyğəmbərliyin təsdiqi üçün bir sübut istəyə bilərlər. Onların peyğəmbərlərdən istədikləri insanların normal olaraq edə bilməyəcəyi, lakin Allahın qüdrəti ilə ola biləcək şeylərdir ki, buna möcüzə deyilir. Deməli, möcüzə peyğəmbərin Allah-Təala tərəfindən vəzifələndirildiyini təsdiq edən dəlildir. Qurani-Kərimdən bununla əlaqəli bir neçə misal gətirə bilərik.

Babil hökmdarı Nəmrud böyük bir tonqal yandırmağı və Həzrət İbrahimi (ə) həmin tonqala atmağı əmr edir. Lakin Uca Yaradan oda "İbrahimi yandırmamasını" buyurur və od onu yandırmır: **"(Nəmrud və ətrafındakılar öz camaatına) belə dedilər: "Əgər (tapındıqlarınıza yardım göstərmək, onları xilas etmək üçün) bir iş görəcəksinizsə, onu (İbrahimi) yandırın və tanrılarınıza kömək edin!" Biz də: "Ey atəş! İbrahimə qarşı sərin və zərərsiz ol! (Hətta soyuğun belə ona zərər yetirməsin!)" – deyə buyurduq"** [1, "Ənbiya", 68-69].

Həzrət Musanın (ə) əsası bəzən ilan, bəzən isə əjdaha olmuş [1, "Taha", 17-21], əlindəki əsası ilana çevrilib sehrbazların dəyənəklərini udmuş [1, "Taha" 67-70], əsası ilə dənizə vurduqda dəniz iki yerə ayrılmış və qövmü oradan keçib qurtulmuşdur [1, "Nəml", 16-19].

Həzrət Süleyman isə (ə) heyvanlarla danışar, küləyə və cinlərə hökm edərmiş [1, "Nəml", 39].

Həzrət Saleh (ə) Səmud qövmünə peyğəmbər olaraq göndərilmişdi. Qövmü onun peyğəmbərliyini qəbul etmədi. "Dağdan bir dəvə çıxarsan, peyğəmbər olduğuna inanarıq" - dedilər. Həzrət Salehin (ə) duasından sonra Allah-Təala dağdan bir dəvə çıxartdı. İnanmaq niyyəti olanlar inandı. İnanmayanlar isə "Sən sehrbazsan və bu etdiyin də sehrdir" - dedilər [1, "Şüəra", 143-158].

Yuxarıda möcüzə ilə əlaqəli verilən misalların sayını artırmaq mümkündür.

## Yəhudilikdə peyğəmbərlik inancı və Musa peyğəmbər

Səmavi dinlər deyildikdə vəhy yolu ilə nazil olan dinlər nəzərdə tutulur. Həmin dinlər Yəhudilik, Xristianlıq və İslamdır.

Nübüvvət Yəhudilikdə təməl inanclardan biridir. Müsəlmanlar kimi yəhudilər də Həzrət İbrahimi (ə) bütün peyğəmbərlərin atası olaraq qəbul edirlər. Musa ibn Meymun (1135-1204) tərəfindən sistemləşdirilən 13 maddəli inanc əsaslarından 6 və 7-ci əsasları nübüvvət təşkil edir. "Tam iman ilə inanıram ki, peyğəmbərlərin sözləri haqdır. Tam iman ilə inanıram ki, ustadımız (müəllimimiz) Musanın nübüvvəti mütləq ki qalır. O, peyğəmbərlərin hamısından, özündən əvvəl və sonra gələn peyğəmbərlərdən üstün olmuşdur". Yəhudi peyğəmbərləri içərisində ən yüksək məqam Həzrət Musaya (ə) aiddir. Bu da onun Tanrı ilə münasibətlərinin ən yüksək mərtəbədə olmasından və Onunla əlaqə qurmasında heç bir vasitəyə ehtiyac duymamasından irəli gəlir [2, s.33].

Qurani- Kərimdə adı ən çox çəkilən Musa peyğəmbər (ə) Həzrət Yusifdən (ə) sonra Allahın İsrailoğullarına göndərdiyi "ulul-əzm" peyğəmbərlərdən biridir. İmranın oğlu olan Həzrət Musanın (ə) soyu Həzrət Yaqub (ə) və Həzrət İshaq (ə) yolu ilə Həzrət İbrahimə (ə) qədər çatır. Harun Musanın qardaşıdır.

Bəni-İsrail xalqının Misirdə sayı diqqət çəkəcək qədər artmışdı. Bundan narahat olan

Firon xalqın bütün mallarını əllərindən aldı, özlərini isə əsir götürdü. Həmçinin artımın qarşısını almaq üçün yeni doğulan oğlan uşaqlarını öldürməyi əmr etdi. Bu zaman Bəni-İsraildə Musa adında bir oğlan uşağı doğuldu. Anası uşağı qurtarmaq üçün çarə axtardı. Allahın əmri ilə bir sandıq düzəltdi, ağzını bağladı və qızına: "Al bu sandığı suya burax və suyun sandığı hansı istiqamətə apardığına bax" - dedi.

Qız anasının dediyi kimi etdi və sandıq Nil çayında suyun axarı istiqamətində üzərək Fironun sarayına çatdı. Anası ona dedi: "Sən sarayda işləyirsən, get, bax gör, sarayda sandığı nə etdilər və gəl mənə xəbər ver".

Sandıq sarayın yanındakı sahilə çatanda ilişib qaldı və cariyələrdən biri onu götürüb sarayın xanımına gətirdi. Xanım çox sevindi və Firona "Bizim övladımız olmadı, bu uşağı övladlığa götürək, həyatımız onunla daha firavan keçər" dedi. Firon xanımının fikrini bəyəndi və onun qədər məmnun oldu.

Bu hadisə ilə bağlı Qurani-Kərimdə buyurulur: **"Fironun qadını (Asiyə) dedi: "Bu uşaq mənim də, sənin də göz bəbəyimiz (gözaydınlığımız, gözümüzə sevinc olsun). Onu öldürməyin. Ola bilsin ki, (o böyüyəndə) bizə bir fayda verər, yaxud da onu oğulluğa götürərik!" Onlar (işin nə yerdə olduğunu, bu uşağın əlində həlak olacaqlarını) bilmirdilər"** [1, "Qasas", 9].

Musanın sarayda qalması dəqiqləşdikdən sonra ona süd anası axtarıldı. Bir çox qadın çağırıldı. Ancaq uşaq heç bir ananı əmmədi. Sarayda işləyən bacısı süd anası olaraq öz anasını tövsiyə etdi. Anası gəldi və övladına süd verdi. Anası hər gün Musanı Fironun sarayında əmizdirməyə başladı. Vəzir Haman bu vəziyyətdən şübhələndi və Musanın anasına: "Yoxsa bu uşaq sənindir? Səndən başqa heç bir qadının südünü qəbul etmir, yalnız sənin südünü əmir!" - dedi. Qadın onu: "Bütün uşaqlar məni sevir, mən də onları sevirəm, çünki mənim südüm dadlıdır" – cavabı ilə qane etməyə çalışdı.

Bir gün Musa (ə) bir yəhudi ilə misirlinin dalaşdığını gördü. Yəhudi Musadan (ə) ona kömək etməsini istədi. Musa (ə) onları ayırmaq üçün araya girdi və misirlini vuraraq itələdi. Misirli yerə uzanaraq can verdi. Ölüm xəbəri bütün Misir xalqına bəlli oldu. Bir nəfər Musanın yanına gələrək dedi: "Ey Musa, misirlini öldürdüyün eşidildi. Səni öldürmək üçün indi bir araya gəlirlər. Dərhal buradan qaç" [3, s.218]. Beləliklə, Musa Misiri tərk etdi və Mədyən torpaqlarına doğru hərəkət etməyə başladı. Heç vaxt şəhər xaricinə çıxmadığı üçün Mədyənin hansı istiqamətdə olduğunu bilmirdi. Hətta özü ilə yemək də götürməmişdi. Allah-Təala Həzrət Cəbraili (ə) göndərdi və ona Mədyən yolunu göstərdi. O dövrün şəraitinə görə, Mədyən Misirdən 8 günlük məsafədə yerləşirdi.

**"O, Mədyən tərəfə yönəldiyi zaman dedi: "Ola bilsin ki, Rəbbim mənə (Mədyənə aparıb çıxaran) doğru yolu göstərsin!"** [1, "Qasas", 22].

Mədyən torpaqlarına çatan Musa bir su quyusunun yanında dayandı. Həmin əsnada camaat Mədyən qalasından sürüləri çıxarırdı. Qaladan çıxan sürülər birbaşa oradakı quyuya tərəf gəldilər. Bir az sonra bütün çobanlar qoyunları sulamaq üçün quyunun ətrafına toplaşdılar. O, quyunun başında heyvanları sulamaq üçün dayanan çobanlardan başqa iki gənc qız gördü və onlardan soruşdu: "Siz nə üçün qoyunlarınızı sulamırsınız?" Onlar: "Çobanlar getməsələr,

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

heyvanlarımızı sulaya bilmirik!" - dedilər. "Qoyunları niyə siz otarırsınız? Sizin heç kiminiz yoxdur?", - deyə Musa (ə) maraqlandı. Onlar da "Çox yaşlı və taqətsiz atamız var" - dedilər. "Buna görə də qoyunları biz sulayıb, otarırıq. Eyni zamanda kişilərin arasına girmək istəmirik. Ancaq onlar çəkilib gedəndən sonra sürülərimizi sulayırıq. Sürüləri əvvəlcə onlar suladığı üçün bəzən quyuda su qurtarır. Bu səbəbdən biz heyvanlarımızı sulaya bilmirik".

Bunlar Həzrət Şüeybin (ə) qızları Səfurə və Süfeyra idi. Musa (ə) 8 gündür ac olmasına baxmayaraq, quyudan su çəkdi və bacıların heyvanlarını suladı. Qızlar ona təşəkkür edərək oradan ayrıldılar.

Şüeyb (ə) qızlarının heyvanları sulamaqdan erkən qayıtdıqlarını gördükdə məəttəl qaldı və onlardan bunun səbəbini soruşdu. Qızlar saleh bir insanın onlara kömək etdiyini, ancaq bu ölkədə belə birinin olmadığını söylədilər. Bu adamın kim olduğu Şüeybin (ə) diqqətini çəkdi və qızına onu gedib çağırmasını söylədi. Bir az sonra qızlardan biri utanaraq gəldi və atasının Musanı (ə) çağırdığını söylədi. Birlikdə Şüeybin (ə) yanına getdilər. Ondan kimliyini soruşan Şüeybə (ə) Musa (ə): "Mən Həzrət Yaqubun nəslindən İmranın oğlu Musayam" - dedi və başına gələnləri danışdı. "Qorxma, burada Fironun hökmü keçməz", - deyə Şüeyb cavab verdi.

Şüeyb (ə) Həzrət Musanı çox bəyənmişdi. Onu yanında saxlamaq istədi. Bir çarə düşündü və qızı Səfurə ilə evlənməsini təklif etdi. Musa (ə): "Mənim malım yoxdur, necə evlənə bilərəm?" - dedi. Şüeyb isə bildirdi ki, ondan heç bir mal istəmir, sadəcə bir şərti var: "8 il müddətinə qoyunlarımızı otarıb, bizə çobanlıq edəsən. Əgər sən bu müddəti 10 ilə qədər uzatsan, bu da sənin yaxşılığın olar. Artıq iş yükləyərək səni yormaram, bundan narahat olma". Onun qayəsi Musanı (ə) yanında bir qədər də saxlamaq idi.

Nəhayət, 8 il bitdikdə Şüeyb (ə) qoyunları kürəkəninə və qızına hədiyyə etdi. Lakin Musa (ə) xidmətinə davam edərək 10 ilə tamamladı. Sonuncu il heyvanlar əkiz doğdu. Şüeyb (ə): "Bu, Allahın Musanın ailəsinə ikramıdır" - dedi.

10 il sonra Musa (ə) xanımı ilə birlikdə Mədyəndən ayrıldı. Şiddətli yağış yağırdı. Hər yer qapqaranlıq idi. Onlar gecəni keçirmək üçün mübarək Tur dağında bir mağaraya sığındılar. Onların od və işığa ehtiyacı vardı. Uzaqda parlaq bir işıq göründü. Xanımına "Sən dayan mən gedib od gətirim" - dedi. Getdi, ancaq nə od, nə də oda bənzər bir şey tapdı. Əslində isə gördüyü od onu peyğəmbərliyə hazırlamaq üçün ilahi işarə idi. Bir müddət sonra onu çağıran səs eşitdi: "Ey Musa! Mən sənin Rəbbinəm, ayaqqabılarını çıxar. Çünki sən müqəddəs Tuva vadisindəsən. Mən səni peyğəmbər seçdim. Sənə vəhy etdiyimə qulaq as. Şübhəsiz, mən Allaham, məndən başqa Tanrı yoxdur. Mənə ibadət et və məni anlamaq üçün namaz qıl".

Həmin səs əsasını yerə vurmasını və əlini cibinə qoymasını söylədi. Allah-Təala beləcə möcüzəsini göstərdi - əsa ilan oldu, əli isə qaranlıqda işıq saçdı.

Musaya Fironu və xalqını haqq dinə dəvət etmək vəzifəsi verildi. Lakin Musa (ə) çox narahat idi. Həm əvvəllər etdiyi günahdan qorxur, həm də Allahın vəzifəsini yerinə yetirə bilməyəcəyini düşünürdü. Allahdan qardaşı Harunu köməkçi verməsini istədi. Uca Yaradan qardaşı ilə birlikdə Fironun yanına getməsini və ondan Allahın adına İsrail xalqını sərbəst buraxmasını, onlara əziyyət verməməsini istəməsini söylədi.

Musa (ə) Tur dağında gördüklərini ailəsinə danışdı. Sonra Misirə Harunun evinə getdilər

və Musa (ə) ilahi vəzifəsindən qardaşını xəbərdar etdi. Harun: "Əgər söylədiklərin doğrudursa, indi gedək", - dedi. İki qardaş Fironun sarayına getdilər və Musa (ə) sözə başladı.

- Mən Aləmlərin rəbbi olan Allahın peyğəmbəriyəm. İsrailoğullarını sərbəst buraxmaq üçün Allah məni sənə göndərdi.

- Balaca ikən tərbiyə edib böyütdüyümüz uşaq sən deyilsən? Daha sonra bir adam öldürüb qaçmışdın.

- Bəli, o adamı istəmədən, qəza nəticəsində mən öldürmüşdüm. Lakin Allah tövbəmi qəbul etdi.

- Sənin bəhs etdiyin və məni peyğəmbər olaraq göndərdi dediyin Allah kimdir ki?

- Allah aləmlərin və bütün bu varlığın rəbbidir. O, sizin də, sizdən əvvəl gələn atalarınızın da Rəbbidir.

Firon dəlil istədi. Musa (ə) əsasını yerə atdı və o, böyük bir ilan oldu. Ətrafındakılar Musanın (ə) sehrbaz olduğunu dedilər. Onda Firon Musaya (ə) onun ölkəsindəki sehrbazlarla qarşılaşmaq təklifi etdi. Musa (ə) təklifi qəbul etdi. Tamaşa üçün sarayın qarşısında böyük bir izdiham yarandı. Firon sehrbazlara böyük vədlər verdi.

Əvvəlcə sehrbazlar iplərnii yerə atdılar və iplər hərəkət etməyə başladı. Sonra Musa (ə) əsasını yerə atdı. Əsası böyük bir ilana çevrilərək sehrbazların iplərini uddu. Bunu görən sehrbazlar iman gətirib səcdə etdilər və Musanın (ə) peyğəmbərliyini qəbul etdilər. Fironun təhdidlərinə qulaq asmadılar. Bu əsnada Nil çayı daşaraq ortalığı su basdı. Xalq bunun səbəbini Fironun Musaya (ə) iman etməməsində gördü. Firon Musaya (ə) bunun qarşını alarsa və sular çəkilərsə, iman edəcəyini bildirdi. Musa (ə) selin qarşısını alsa da, Firon sözündə durmadı [1, "Qasas", 1-32].

**"Musa dedi: "Ey Rəbbimiz! Sən Firona və əyan-əşrafına dünyada zinət və mal-dövlət ehsan etdin! Ey Rəbbimiz! (Bu sərvəti onlara bəndələrini) Sənin (haqq) yolundan azdırmaq üçün verdin? Ey Rəbbimiz! Onların mal-dövlətini məhv et və ürəklərini möhürlə (sərtləşdir) ki, şiddətli əzabı görməyincə iman gətirməsinlər!"** [1, "Yunus", 88].

Bundan sonra hər bir ailəyə ayrı-ayrılıqda müsibətlər gəlməyə başladı. Quraqlıq yaşandı. Xalq arasında xəstəlik yayıldı. Buna görə də Firon məcbur qalaraq Bəni-İsrailin Misirdən çıxmasına icazə verdi. Ancaq təhlükə keçdikdə hər zaman olduğu kimi yenə icazəsindən geri addım atacaqdı... Həzrət Musanın (ə) önündə Qırmızı dəniz, arxasında isə Firon ordusu var idi [4, s.291]. Qurani-Kərimdə bu barədə deyilir: **"Onda Musaya belə vəhy etdik: "Əsanla dənizə vur!" (Musa əsasını dənizə vuran kimi) o dərhal yarıldı (İsrail oğullarının soyuna müvafiq olaraq on iki hissəyə bölündü) və hər hissə böyük (uca) bir dağ kimi oldu"** [1, "Şüəra", 63].

Həzrət Musa (ə) və qövmünün arxasınca Firon və ordusu dənizdə açılan yolla irəlilədilər. Lakin suların altında qalaraq həlak oldular. Bəni-İsrail isə xilas oldu. Həmin gün Məhərrəmin 10-cu günü idi və şükür orucu tutuldu.

## Peyğəmbərliklə əlaqəli terminlər

a. Yəhudilərin müqəddəs mətnlərində peyğəmbəri ifadə etmək üçün əvvəlcə "nabi"[1] olmaq üzrə "hozeh", "roeh" və "iş ha–elohim" kimi terminlərdən istifadə olunmuşdur. İslam dinində də peyğəmbər mənasısa gələn "nəbi" sözündən istifadə edilir. Çağırmaq mənasında olan "nabu" feilindən törəmiş "nabi" kəlməsi Tanahda ilk dəfə "Çünki o bir peyğəmbərdir" şəklində Həzrət İbrahim üçün istifadə olunmuşdur [5, "Təsniyə", 18]. "Hozeh" (əvvəlcədən görən) və "roeh" (görən) kəlmələrinin hər ikisi digər insanlardan fərqli olaraq, peyğəmbərin bir öndər, rəhbər olduğu mənasını ifadə edir [6, s.316]. Yəhudilər qadın peyğəmbərlərin də olduğuna inanırlar və onları *"nəbiah"* adlandırırlar. Tanahda da onların adlarının çəkildiyi bildirilir. Buna misal olaraq Həzrət İbrahimin xanımı Saranı və Həzrət Musanın bacısı Məryəmi göstərə bilərik [5, "Çıxış", 20-21].

b. Əhdi-Ətiqdə peyğəmbərləri ifadə etmək üçün eyni mənaya gələn bir neçə fərqli sözdən istifadə olunmuşdur. Məsələn:

"Allah adamı" – bu terminlə sadəcə peyğəmbər nəzərdə tutulub, heç bir kahin və ya rahibə aid edilməyib [5, "Təsniyə", 1, "Yeşua", 6].

"Allahın qulu və ya qul" – bu termin də bir neçə peyğəmbər üçün istifadə olunub ki, onlardan biri Musa peyğəmbərdir [5, "Çıxış", 31, "Saylar", 7-8].

"Qullarım peyğəmbərdirlər" – bu termin bir neçə yerdə keçir və rəbbin öz şəriətini İsrailoğullarına bu peyğəmbərlər vasitəsi ilə göndərdiyini ifadə edir [5, "Yeremya", 4].

İslam dinindən fərqli olaraq, Yəhudilikdə nəbi və rəsul ayrılığı yoxdur. Yəhudi inancında sadəcə nəbilik vardır və bütün peyğəmbərlər nəbi qəbul edilir.

## Peyğəmbərlik üçün şərtlər

Yəhudilərə görə, bir şəxsin peyğəmbər olması üçün aşağıdakı 2 şərt olmalıdır. Əgər bu 2 xüsusiyyət yoxdursa, o, yalançıdır.

a) İnsanları Allaha qulluq etməyə çağırmalı və Allahdan başqa ilahların arxasınca getməməlidir [5, "Yeremya", 14].

b) Söylədiyi sözlər "On Əmr"ə uyğun olmalı və gələcəyə dair verdikləri xəbərlər reallaşmalıdır [5, "Təsniyə", 20-22].

## Peyğəmbərlərin vəzifələri

Yəhudilərə görə, peyğəmbərlərin məsul olduğu vəzifələr aşağıdakılardır.

a) Tanrıdan vəhy alırlar;

b) Üstün qüdrətin nəzarəti altındadırlar [5, "Yeşaya", 11];

c) Əmanət verildikdə onu olduğu kimi geri qaytarırlar [5, "Yeremya", 8];

d) Sözlərini Tanrının sözlərinə uyğun olaraq söyləyirlər və onların doğruluğu heç kimdə şübhə yaratmır [5, "Yeşaya", 5].

1 Ərəb dilindəki qarşılığı "nəbi" kəlməsidir

## Peyğəmbərlərin sayı və peyğəmbərlik yaşı

Yəhudilərin peyğəmbərlik anlayışı məzhəbə görə dəyişir. Bu da öz növbəsində peyğəmbərlərin göndərilmə ardıcıllığına və sayına təsir göstərir. Belə ki, Həzrət Davud, Həzrət Süleyman və Daniel kimi şəxslər ümumilikdə peyğəmbər sayılmırlar. Ancaq bir neçə yəhudi alimi onların da peyğəmbər olduğunu demişdir. Bəzi yəhudi alimlərinə görə, bir peyğəmbərin adı müqəddəs mətnlərdə atasının adı birlikdə çəkilirsə, həmin şəxs peyğəmbərdir və onun atası da peyğəmbər olaraq qəbul edilir. Məsələn, Odedin oğlu Azariya, Hananinin oğlu Yehu, Yehuyadanın oğlu Zəkəriyyə bu yolla peyğəmbər sayılır.

Talmudda qeyd olunur ki, İsrailoğullarına 55 peyğəmbər göndərilmişdir. Bunlardan 48 nəfəri kişi, 7 nəfəri isə qadın peyğəmbərlərdir.

Yəhudilərə görə, Tanrı istədiyi şəxsə istədiyi vaxt peyğəmbərlik verir, lakin peyğəmbər olacaq şəxs təhsilli və kamil insan olmalıdır [7, s.122].

Hesab olunur ki, Tanahda adları keçən peyğəmbərlərə müxtəlif yaşlarda peyğəmbərlik verilib. Belə ki, onların arasında uşaqlıq, gənclik və qocalıq dövrlərində peyğəmbər olanlar var. Rəvayətə görə, Həzrət Musaya 80, Həzrət Haruna isə 83 yaşında peyğəmbərlik verilmişdir [5, “Çıxış”, 7]. Aşağıda adları qeyd olunan peyğəmbərlərin adları Tanahda da keçir:

**Yəhudi peyğəmbərlər**

| *№* | *Adı* | *№* | *Adı* | *№* | *Adı* |
|---|---|---|---|---|---|
| 1 | İbrahim | 15 | Süleyman | 29 | Yeşeya |
| 2 | İshaq | 16 | İddo | 30 | Yoel |
| 3 | Yaqub | 17 | Mihayihu | 31 | Nahum |
| 4 | Musa | 18 | Ahiya | 32 | Hababkum |
| 5 | Harun | 19 | Yehu b. Hanani | 33 | Tzefenya |
| 6 | Yuşa | 20 | Hiziel | 34 | Uriya |
| 7 | Pinhas | 21 | Eliezer b. Dedo | 35 | Yeremya |
| 8 | Yael | 22 | Hosea | 36 | Hezekiel |
| 9 | Elkanah | 23 | Amos | 37 | Daniel |
| 10 | Eli | 24 | Mika | 38 | Baruh. Neriya |
| 11 | Samuel | 25 | Amoz | 39 | Sereya b. Mahseya |
| 12 | Gad | 26 | Eliya | 40 | Haggay |
| 13 | Natan | 27 | Elişa | 41 | Zekeriya |
| 14 | David | 28 | Yona | 42 | Malaki |

**Nəticə**

Beləliklə, bir dini digərindən fərqləndirən xüsus onun fərqli tarix, inanc və ibadət şəklinə malik olmasıdır. Yəhudilər özlərini Tanrı tərəfindən seçilmiş ümmət kimi görürlər. Hər bir peyğəmbərin möcüzəsi olduğu kimi, Həzrət Musanın (ə) da möcüzələri olmuşdur. Bu möcüzələrə Uca Yaradanın qüdrəti olmadan insan oğlunun gücü çatmadığını Firon hamıdan yaxşı bilirdi, bununla belə, yenə də onun gətirdiyi dinə inanmadı. Həzrət Musa (ə) Allahın köməyi ilə əsasını dənizə vuraq dənizi yarıya böldü və Fironun əsarətindən həm özü, həm də xalqı xilas oldu. Buna görə Musa (ə) İsrail xalqının xilaskarı hesab olunur.

## ƏDƏBİYYAT


1. Qurani-Kərim (ərəb dilindən tərcümə edənlər: Bünyadov Z.M., Məmmədəliyev V.M.).Ankara: Türkiyə Diyanət Vəqfi, 2018.
2. Mehmet Bayrakdar. Üç Dinin Tarihi. Ankara: Say yayınları, 2016.
3. Ahmet Karaman. Mukayeseli Dinler Tarihi. İstanbul: M.U. İlahiyyat Fakültesi Yayınevi, 2016.
4. Mahmut Aydın. Ana Hatlarıyla Dinler Tarihi. İstanbul: Ensar, 2015.
5. Müqəddəs Kitab / http://kitabxana.net/files/books/file/1447926392.pdf
6. Abdurahman Küçük, Günay Tümer, Mehmet Alparslan. Dinler Tarihi. İstanbul: Berikan Yayınevi, 2016.
7. Bekir Karlığa. Delaletul Hairin. DİA, cild IX. İstanbul: 1994.
8. Salime Leyla Gürkan. Anahatlarıyla Yahudilik. Ankara: İSAM Yayınları, 2016
9. Mehmet Bulut. Müsəlmanın İman Əsasları. Bakı: İpəkyolu nəşriyyatı, 2018.
10. Eldar Hasanov. Yahudilikde Peygamberlik ve Peygamberler // "İslam ve Toplum" araştırma dergisi, c.3, 2014.
11. Osman Nuri Topbaş. Nəbilər Silsiləsi-2. Bakı: Erkam Yayınları, 2006.

Шукюр Андалифов

## ПРОРОЧЕСТВА И ПРОРОКИ В ИУДАИЗМЕ

### РЕЗЮМЕ

Иудаизм - это посланная Богом и имеющая священную книгу божественная религия. Основы веры в зависимости от религии могут меняться. Каждая посланная Богом религия имеет своего путеводителя, старейшину, который проповедует и обучает религию людям. Все религии имеют присуще себе свои собственные веры и ценности. Пророчество также является одним из основных убеждений в иудаизме. Они верят, что так как эта религия является Божественной, есть один или несколько посланников Бога. Человек - совершенное существо, но для раскрытия религии ему требуется учитель, чтобы научить его. Пророки - это образцовые люди, которые посланы Богом, чтобы учить людей отличать правду от лжи, запретов от разрешений. Защита нравственного здоровья зависит от учений Пророков и от того, сколько из них мы используем в нашей жизни. Пророки были посланы для того, чтобы учить людей Божьим заповедям и запретам, очищать людей от духовной грязи и делать их совершенными.

Shukur Andalifov

## PROPHECY AND PROPHETS IN JUDAISM

### SUMMARY

Judaism is a divine religion with a holy book, revealed by God. The basis of faith may vary from religion to religion. Every religion revealed by God has its guide and elder who preaches and teaches religion for people. All religions have their own beliefs and values. Prophecy is also one of the basic beliefs in Judaism. They believe that this religion is divine and there is one or more messengers of God. Man is a perfect being, but for revelation of religion he needs a teacher. The Prophets are exemplary individuals sent to teach people to distinguish truth from falsehood and bans from allowances. The protection of moral health and virtue depends on the teachings of the prophets and degree of our usage of them in our lives. Prophets were sent to teach people God's commands and prohibitions, to purify people from spiritual dirt and to make them perfect.

# AZƏRBAYCANDA ŞƏHƏR MƏDƏNİYYƏTİNİN FORMALAŞMASINDA İSLAMIN ROLU

***Tarix DOSTİYEV,***
*Bakı Dövlət Universiteti,*
*tarix üzrə elmlər doktoru,*
*dostiyev.tarikh@ mail.ru*

***AÇAR SÖZLƏR:*** *Azərbaycan, müsəlman şəhəri, müsəlman sivilizasiyası, müsəlman memarlığı, urbanizasiya prosesləri.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Азербайджан, мусульманский город, мусульманская цивилизация, мусульманская архитектура, процессы урбанизации.*
***KEY WORDS:*** *Azerbaijan, muslim city, muslim civilization, muslim architecture, urbanization process.*

Ərəb fəthləri nəticəsində İslam dininin Şimali Afrikadan Böyük Qafqaz dağlarına, Pireney yarımadasından Yeddisu vilayətinə (Semireçiye), Çinə qədər geniş ərazidə yayılması ilə bu torpaqlarda yaşayan xalqların, tayfaların, o cümlədən Azərbaycan xalqının taleyində tarixi və əsaslı dəyişikliklər baş vermişdir.

İslam dininin yayıldığı areal qədim sivilizasiyaların, oturaq həyat tərzinin, şəhər ənənələrinin güclü olduğu bölgələr idi. Bu isə İslam mədəniyyətinin şəhər mədəniyyəti kimi formalaşmasına böyük təsir göstərmişdir. Digər tərəfdən, İslamı ilk yayanların özlərinə də şəhər mədəniyyəti yad deyildi. Bu din Hicazın başlıca mədəniyyət ocaqları sayılan – Məkkə və Mədinə şəhərlərində zühur və inkişaf etmişdi.

Hər bir sosial-iqtisadi prosesdə olduğu kimi, urbanizasiya prosesinin də əsasında ictimai istehsaldakı dəyişiklər durur. İctimai əmək bölgüsü baxımından kəndin əksinə olaraq, şəhər sənətkarlıq, ticarət ilə bağlı əməyin və intellektual potensialın cəmləşdiyi məkan idi. İslam dininin bu fəaliyyət sahələrinə müsbət münasibəti onların üstün sahələrə çevrilməsini təmin etmişdi. Onun ortaya qoyduğu cəmiyyət üzvlərinin hüquqi bərabərliyi, insanın hərəkət azadlığı, həmçinin fərdin ümumi qanunlara, şəxsi maraqların ümumi rifaha tabeçiliyi ideyası da şəhər həyatının tərəqqisinə təkan vermişdi.

Odur ki, geniş müsəlman məmləkətində qədim gələnəklərdən bəhrələnmiş, İslam dəyərlərinə əsaslanan parlaq mədəniyyət formalaşa bildi. Artıq IX-X əsrlərdə müsəlman Şərqində şəhər mədəniyyəti özünün yüksək inkişaf səviyyəsinə çatmışdı [1, s.328-333; 2, s.173]. Mədəni nailiyyətlərin və innovasiyaların İslam dünyasının bir bölgəsindən digərinə sürətlə ötürülməsi, mədəni inteqrasiya mütərəqqi hal olub, ümumi inkişafa təkan verdi.

Sosial-iqtisadi inkişaf, ümummüsəlman mədəniyyətinə qovuşmaq, İslam dininin

hakim ideologiyaya çevrilməsi, yerli ənənələrin transformasiya olunaraq yeni ideologiyaya uyğunlaşması, ərəb-xəzər qarşıdurmasının şimal ölkələri ilə intensiv ticarət əlaqələri ilə əvəzlənməsi, yerli, müstəqil dövlətlərin yaranması və digər ictimai-siyasi proseslər əsasında IX-X əsrlərdə Azərbaycanda da şəhər həyatının canlanması, sonra isə sıçrayışlı inkişafı baş verdi. Təbii ki, müsəlman Şərqinin bir parçası olan Azərbaycan İslam sivilizasiyasının fenomeni hesab olunan urbanizasiya prosesindən kənarda qala bilməzdi.

IV-VII əsrlərdə əsasən şəhər-qala olan Azərbaycan şəhərləri artıq erkən İslam dövründə iri siyasi-inzibati, ticarət-sənətkarlıq və mədəni mərkəzə çevrilmişdi. Bu da erkən İslam dövrü (VIII-X əsrlər) şəhər mədəniyyətinin bütün sahələrində innovasiyaların artması və şəhərin statusunun dəyişməsi ilə əlaqədar idi. Zəruri sosial-psixoloji şəraitin bərqərar olması və şəhər həyat tərzinin möhkəmlənməsi müxtəlif şəhərlərdə əhalinin fəallığının və təşəbbüskarlığının güclənməsini şərtləndirdi, cəmiyyətin istehsal, demoqrafik və inkişafına müsbət təsir göstərdi. Şəhərlər istehsal, mədəni və intellektual potensialın cəmləşdiyi məkana, tərəqqi ocağına çevrildilər. Əgər erkən İslam dövrünü (VIII-X əsrlər) Azərbaycanda müsəlman şəhərinin formalaşması dövrü hesab etmək mümkündürsə, klassik İslam dövrünü (XI-XII əsrlər) şəhər həyatının yüksəliş, çiçəklənmə dövrü adlandırmaq olar [3; 4].

Şamaxı, Dərbənd, Bərdə, Gəncə, Beyləqan, Şəmkir, Naxçıvan, Kiran, Təbriz, Ərdəbil və digər Azərbaycan şəhərləri Yaxın və Orta Şərqin müsəlman şəhərlərinin keçdiyi inkişaf yolunu keçmiş, oxşar səciyyəvi topoqrafik hissələrə malik olmuşdur. Şəhərlərdə monumental tikililərin yeni tipləri: şəhər sakinlərinin elliklə namaz qılmasına imkan verən came məscidləri, məhəllə sakinlərinin başlıca ibadət yeri olan məhəllə məscidləri, göylərə ucalan minarələr, təhsil ocaqları olan mədrəsələr, zəngin kitabxanalar, örtülü bazarlar, ictimai hamamlar və s. inşa edilirdi. Dini binalar – məscidlər, mədrəsələr, türbələr şəhər landşaftında hakim mövqeyə malik idilər. Məhz bu binalar müsəlman şəhərinin simasını müəyyənləşdirirdi. Müsəlman Şərqinin digər ölkələrində olduğu kimi, Azərbaycanda da şəhər topoqrafiyası üçün üçpilləli – narınqala, şəhristan və rabaddan ibarət quruluş səciyyəvi idi və qaynar iqtisadi həyat şəhristandan rabada keçmişdi [5, s.55-56]. Şəhristandan bayırda sənətkar məhəllələrinin cəmləşdiyi rabadın formalaşması prosesinin ərəb istilasından sonra - VII əsrin ikinci yarısından başlanıldığı və IX əsrə qədər davam etdiyi bildirilir. Artıq X əsrdə Azərbaycan şəhərləri üçün rabad xarakterik topoqrafik hissə idi.

Müsəlman şəhərinin səciyyəvi əlamətlərdən biri onda idi ki, əgər iqtisadi həyatın nəbzi bazarda vururdusa, ideoloji mərkəz came məscidi idi. İslama görə, yaşayış məntəqəsinin şəhər statusunun almasının vacib şərtlərindən biri burada came məscidinin olması idi. Təsadüfi deyildir ki, IX-XII əsrlərin ərəbdilli müəllifləri yaşayış məntəqəsinin tipinin müəyyənləşdirilməsində came məscidinin mövcudluğunu başlıca meyar seçmişdilər.

Yazılı mənbələrin təhlili və arxeoloji qazıntıların nəticələri orta əsr Azərbaycan şəhərlərini üç tipə ayırmağa imkan verir. İstehkamlı sahəsi 100 hektara yaxın və daha artıq olan iri şəhərlər ayrı-ayrı dövrlərdə Azərbaycan dövlətlərinin paytaxtı və ya mühüm mərkəzi olmuşdur. Onların iqtisadiyyatı sənətkarlıq və ticarətə əsaslanırdı. Bu şəhərlər ölkənin istehsal

və intellektual potensialının cəmləşdiyi başlıca mərkəzlər idi. Bərdə, Gəncə, Naxçıvan, Təbriz, Ərdəbil, Marağa, Şamaxı, Dərbənd belə şəhərlərdən idi. Həmin şəhərlərin əhalisinin sayı 100 minə yaxın və ya daha çox idi. İstehkamlı sahəsi 20-60 hektara qədər ərazini əhatə edən, əsasən vilayət mərkəzləri olmuş orta dərəcəli şəhərlər sırasına Beyləqan, Zəncan, Bakı, Qəbələ, Şabran, Şəmkir və başqalarını aid edilirdi. Ümumi sahəsi 20 hektardan çox olmayan şəhərlər isə yerli əhəmiyyətə malik mahal mərkəzləri idi [4, s.9-10].

Azərbaycanın orta əsr şəhərləri müsəlman sivilizasiyasının daha bir səciyyəvi xüsusiyyətini – şəhərlərin, xüsusilə böyük şəhərlərin inkişafının siyasi hakimiyyətlə sıx bağlılığını özündə qabarıq əks etdirir. Belə ki, dövlətin yüksəlişi, qüdrəti şəhərlərin sürətlə genişlənməsində, böyüməsində, şəhər həyatının yüksəlişində, paytaxt şəhərlərin misli görünməmiş inkişafında öz təcəssümünü tapırdı. VIII-IX əsrlərdə xilafət canişinin mərkəzi olmuş Ərdəbil, Bərdə inkişaf sürətinə görə digər Azərbaycan şəhərlərini geridə qoymuşdu. “Arranın anası” adlandırılan Bərdə şəhərinin X əsrin ortalarından tənəzzül edərək əvvəlki əhəmiyyətini itirməsi və ikinci dərəcəli şəhər sırasına enməsi yalnız slavyanların qarətçi yürüşləri ilə deyil, həm də onun paytaxt statusunu itirməsi, yaxınlıqdakı Gəncə şəhərinin Şəddadilər dövlətinin paytaxtına çevrilməsi ilə bağlı idi. Bunu biz Təbriz şəhərinin timsalında da aydın görürük. Şəhər Elxanilər dövlətinin paytaxtı olduqdan sonra sürətlə böyüyərək XIII əsrin sonu – XIV əsrin əvvəllərində Şərqin nəhəng şəhərinə çevrilmiş, bu mərhələni çiçəklənmə çağı kimi keçirmişdir [6, s.53-57]. Oxşar proseslər müsəlman Şərqinin digər bölgələrində də qeydə alınmışdır. Məsələn, IX əsrdə Abbasi xəlifələrinin Bağdaddan 120 km aralıda, Dəclə çayı sahilində saldırdıqları Samirə qısa müddətdə nəhəng şəhərə çevrilmişdi. Lakin paytaxt statusunu itirdikdən sonra şəhərin əhəmiyyəti sürətlə azalmış və tənəzzülə uğramışdır [2, s.177-178].

Yazılı mənbələr, zamanəmizədək salamat qalmış memarlıq abidələri və arxeoloji qazıntıların nəticələri Azərbaycan şəhərlərində ictimai-dini və yaşayış binalarının çoxluğunu və onların tikintisində müsəlman memarlığı üçün səciyyəvi konstruktiv elementlərin: tağ tavanların, günbəzlərin, çatma tağlı portalların, şəbəkəli daş pəncərələrin, stalaktit karnizlərin geniş tətbiqini təsdiqləyir. Binaların memarlıq bəzəyində müsəlman incəsənəti üçün səciyyəvi olan oyma gəc lövhələrdən, terrakotlardan, şirli kərpiclərdən, kaşılardan geniş istifadə olunurdu [7, s.183-190; 4, s.178-181]. İstər dini, istərsə də mülki binaların, tikililərin bədii tərtibatında xəttatlıq geniş tətbiq edilir, Qurandan və hədislərdən nümunələr həkk olunurdu. Müqəddəs kitabın sehrkar gücünə inam bəzi ayə və surələrin xüsusilə məşhurlaşmasını şərtləndirmişdi [8, s.6].

Müsəlman Şərqində monumental memarlığın yaşayış, ictimai və dini binalarının interyerinin bədii tərtibatında gəc üzrə bədii oyma geniş yayılmışdı. Mövcud İslam bədii ənənələri Azərbaycan gəctəraşları tərəfindən mənimsənilərək şəhərlərin mülki və dini binalarının bədii tərtibatında geniş tətbiq olunmuş və daha da inkişaf etdirilmişdi. Dərbənd, Şəmkir, Xaraba-Gilan, Dəbil və Ərdəbildə arxeoloji qazıntılar nəticəsində gəc üzrə bədii oymanın gözəl nümunələri aşkarlanmışdır. Xaraba-Gilanda gəc üzrə bədii oyma sənətində nəbati naxışlar və xəttatlıq nümunələrinə üstünlük verilmişdir. Belə tapıntılardan birinin üzərində, xonçanın

yuxarısında “La ilahə illallah” ifadəsi həkk olunmuşdur [9, s. 123]. Şəmkir şəhər yerindən tapılmış kərpic üzərində isə gəc üzrə kufi xətlə “ ... hakimiyyət Allaha məxsusdur...” sözləri həkk edilmişdir [10, s. 114].

Bəhs edilən dövrdə Azərbaycan şəhərlərində, xüsusilə Şirvan-Abşeron memarlıq məktəbi mərkəzlərində daş üzərində oyma üsulu ilə naxış salmaq özünün yüksək səviyyəsinə çatmışdı. Şəhər memarlığında bədii tərtibata diqqətin artması dövrün xarakterik əlamətlərindən biri idi. Şəhər tikililərinin bədii tərtibatında ornamentalizmə və xəttatlığa üstünlük verilirdi. Ornament təkcə bədii-estetik təsvir vasitəsi olmayıb, həm də ideya-məzmun yükü daşıyırdı. İncə duyuma malik cəmiyyət ornamentlərdəki simvollarla verilən informasiyanı qəbul etməyə, ornamenti oxumağa qadir idi. Dini məzmunlu, gözəl xətlə binaların üzərinə həkk olunmuş kitabələr ideya yükü daşımaqla, informasiyanın ötürülməsi ilə yanaşı, həm də dekorativ təyinata malik olub göz oxşayırdı.

İslam dininin gigiyena ilə bağlı tələblərinə riayət edilməsi Azərbaycanda şəhər abadlığına diqqətin artmasını şərtləndirmişdi. Beyləqan, Şəmkir, Gəncə, Dərbənd, Şamaxı, Bakı, Şabran və digər orta əsr şəhərlərinin arxeoloji qazıntıları zamanı üzə çıxarılan mühəndis qurğuları küçə və meydanların döşəndiyini, şaxələnmiş su təchizatı sisteminin yaradıldığını, ümumşəhər və məhəlli kanalizasiya xətlərinin, o cümlədən digər qurğuların mövcudluğunu göstərir.

Azərbaycanın orta əsr şəhərlərində sənətkarlıq istehsalının bütün sahələri müsəlman Şərqi üçün ənənəvi sənət sahələri idi. Xüsusilə bədii sənət sahələrinin müxtəlifliyi və istehsal olunan məhsulun yüksək bədiiliyi diqqətəlayiqdir. İslamın hakim ideologiyaya çevrilməsi ilə dekorativ-tətbiqi sənət sahəsində də yeni üslub təşəkkül tapıb inkişaf edirdi. Bədii sənətkarlıq məmulatında ornament, kalliqrafiya və təsviri motivlər kamilliklə və ahəngdarlıqla uzlaşırdı [11, s. 187].

Dekorativ-tətbiqi sənətdə kalliqrafiya bəzən ornamentin bir forması kimi çıxış edir. İnformasiyanın rəmzlərlə verilməsi, həndəsi, nəbati və epiqrafik elementlərdən mürəkkəb kompozisiyaların yaradılması, abstraktlığa meyil orta əsr Azərbaycan incəsənəti üçün səciyyəvidir. Keramika üzərində ərəb dilində xeyir-duaların yazılması geniş yayılmışdı. 14 məsumun adı ilə bağlı yazılara da rast gəlinir. Misal üçün, Şəmkir şəhər yerindən tapılmış şirli qabın oturacağında “qara rəngli mürəkkəblə 14 məsuma - Məhəmməd peyğəmbərə, Həzrət Fatiməyə və 12 imama – Allahın salamı olan mətndən “Məhəmməd peyğəmbərə (s) Allahın salamı olsun” sözləri yazılmışdır” [10, s. 115]. Bəzən keramika üzərində xeyir-dua sözlərlə deyil, ayrı-ayrı hərflərdən ibarət simvollarla verilirdi. Misal olaraq, Şəmkir şəhər yerindən arxeoloji qazıntılar nəticəsində tapılan şirli keramika üzərində simvol olaraq “mim”, “nun” və “sin” hərfləri həkk edilmiş nümunələri göstərmək olar [12, s. 662].

Müsəlman şəhərlərinin bir mühüm əlaməti də intellektual potensialın burada cəmləşməsi, şəhərlərin elmi, ədəbi və bədii yaradıcılıq mərkəzləri olmasında idi. İslamın yayılması ilə əlaqədar Azərbaycanda, ilk növbədə şəhərlərdə yayılan ərəb dili kargüzarlıqda, dini mərasim və ayinlərdə, elmi yaradıcılıqda hakim dilə çevrilirdi. Ərəb əlifbası üzərinə düşən funksiyanı uğurla yerinə yetirərək nəhəng ərazili, polietnik Xilafətdə birləşdirici qüvvə kimi çıxış edirdi.

IX əsrdə Azərbaycanda yerli dövlətlər yarandıqdan sonra da ərəb dili ünsiyyət dili, din və elmin dili olaraq əhəmiyyətini saxlamaqda idi. Yalnız Səlcuqlar dönəmində fars dili kargüzarlıqda, poeziya və elmi yaradıcılıqda tətbiq olunmağa başlandı. Ərəb işğalından sonra Azərbaycanda yayılan ərəb əlifbasının iki – rəsmi, monumental və adi, kursiv xətləri IX-X əsrlərdə geniş tətbiq olunurdu.

Azərbaycan şəhərlərinin arxeoloji tədqiqindən məlum olan ən qədim ərəb dilli, "kufi" xətli kitabə Dərbənd istehkamlarının tədqiqi zamanı aşkarlanmışdır. Bu kitabə hicri 176-cı ildə (793-cü il) tərtib olunmuşdur.

Tədqiqatçılar müsəlman cəmiyyətində elmə, biliyə, təhsilə xüsusi önəm verildiyini yekdilliklə qəbul edirlər. Müəyyən olunmuşdur ki, Müqəddəs Kitabda elm, bilik sözlərinə 811 dəfə rast gəlinir. Məhəmməd peyğəmbər (s) biliyə, təhsilə, elmə yüksək qiymət vermişdir: "Bilikli adamın ibadət edəndən üstünlüyü Ayın digər səma cisimlərindən üstünlüyünə oxşayır. Həqiqətən, bilikli adamlar peyğəmbərlərin varisləridir. Peyğəmbərlər isə miras olaraq dinarlar, dirhəmlər deyil, yalnız bilik miras qoyur, kim ona sahib olarsa, böyük səadətə çatacaq".

Azərbaycan şəhərlərində keçirilən elmi məclislərdə yerli alimlərlə yanaşı müsəlman dünyasının müxtəlif bölgələrindən gəlmiş alimlər də iştirak edir, fikir mübadiləsi, diskussiyalar aparılırdı. Misal üçün, XI əsrin məşhur ilahiyyatçısı, tarixçisi, ədibi Əbu Nəsr Əli ibn Hibbətullah ibn Makula Beyləqan, Bərdə və Gəncə şəhərlərində elmi məclislərdə iştirak etmişdir. O, Gəncə şəhərinə səfəri zamanı ziyarət etdiyi yerlər arasında Gəncə camesi və kitabxanasının adını xüsusi qeyd etmişdir [13, s.215-217, 319].

Orta əsr şəhərlərinin arxeoloji tədqiqinin nəticələri yazılı qaynaqların məlumatını təsdiqləyərək Azərbaycan şəhərlərində mədəni mühitin yüksək səviyyəsini nümayiş etdirir. Öz cahanşümul əsərləri ilə dünya mədəniyyəti xəzinəsini zənginləşdirən Nizami Gəncəvi, Xaqani Şirvani, Məhsəti Gəncəvi, Xətib Təbrizi, Əcəmi Əbubəkr Naxçıvani məhz orta əsr Azərbaycan şəhər mühitinin yetirmələri idi.

İslamın yayılması və möhkəmlənməsi, müsəlman mədəniyyətinin formalaşması ilə Azərbaycanda müsəlman dəfn adəti yayılmış, şəhərlərin ərazisində müsəlman nekropolları salınmış, qəbirüstü xatirə abidələri ucaldılmışdır. Erkən müsəlman qəbiristanlıqları Dərbənddə, Şabran, Qəbələ, Bəndəvan şəhər yerlərində arxeoloji qazıntılarla tədqiq olunmuşdur [14, s.101-104].

Beləliklə, Azərbaycanda İslam dininin yayılması və hakim ideologiyaya çevrilməsi, müsəlman Şərqi ilə intensiv iqtisadi və mədəni əlaqələr maddi və mənəvi mədəniyyətdə ümummüsəlman xüsusiyyətlərini formalaşdırmış, İslam sivilizasiyası üçün səciyyəvi olan urbanizasiya prosesləri Azərbaycanda da sürətlənmiş, İslam dəyərlərinə əsaslanan, istehsal, mədəni və intellektual potensialın cəmləşdiyi, tərəqqi ocağı olan yeni tip şəhər – müsəlman şəhəri formalaşıb inkişaf etmişdi.

# ƏDƏBİYYAT


1. Мец А. Мусульманский Ренессанс. Москва: Наука, 1973, 473 с.
2. Большаков О.Г. Средневековый арабский город // Очерки истории арабской культуры V - XV вв. Москва: Наука, 1982, с. 156-214.
3. Azərbaycan arxeologiyası. Altı cilddə. VI cild. Bakı: Şərq-Qərb, 2008, 632 s.
4. Dostiyev T.M. Azərbaycanın orta əsr şəhərləri (IX-XIII əsrin əvvəlləri). Bakı: Elm və təhsil, 2016, 200 s.
5. Dostiyev T.M. General and Special Features in the Material Culture of Mediaeval Azerbaijan // Caucasia, The Journal of Caucasian studies, 1998, vol. 1, p. 55-59.
6. Onnullahi S.M. XIII-XVIII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı: Elm, 1982, 280 s.
7. Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı: İşıq, 1991, 264 s.
8. Неймат М.С. Мемориальные памятники Азербайджана (XII - начала XIX вв.). Баку: Элм, 1981, 41 с. + 75 илл.
9. Ибрагимов Б.И. Средневековый город Киран. Баку-Москва: 2000, 176 с.
10. Nemət M. Şəmkir kitabələri // Azərbaycan arxeologiyası, 2009, № 2, s. 113-116.
11. Стародуб Т.Х. Исламский мир: художественная культура VII-XII вв. Москва: Восточная литература, 2010, 255 с.
12. Достиев Т.М. Поливная керамика средневекового города Шамкир // Поливная керамика Средиземноморья и Причерноморья X-XVIII вв. Казань - Кишинев: Изд-во Stratum plus, 2017, с. 639-674.
13. Əliyeva N. Azərbaycanda İslam mədəniyyəti (VII-XIII əsrin əvvəlləri). Bakı: Elm və təhsil, 2018, 488 s.
14. Dostiyev T.M. Azərbaycanın erkən müsəlman qəbiristanlarının tədqiqinə dair // "Dövlət və Din" ictimai fikir toplusu, 2018, № 4, s. 101-105.

Тарих Достиев

## РОЛЬ ИСЛАМА В ФОРМИРОВАНИИ ГОРОДСКОЙ КУЛЬТУРЫ В АЗЕРБАЙДЖАНЕ


РЕЗЮМЕ

С принятием ислама произошёл коренной перелом в исторической судьбе Азербайджана. Вхождение его в состав Халифата, активные, культурные и духовные связи породили обще-мусульманские черты в материальной и духовной культуре. В IX-X вв. утвердился тип города, который без принципиальных изменений просуществовал на протяжении всего средневековья. Подобно городам мусульманского Востока, города Азербайджана в основном имели трехстороннею планировочную структуру: цитадель, шахристан и рабад. Роль мусульманских культовых сооружений в создании архитектурного облика городов была весьма существенна. Города стали местом концентрации производственного, культурного и интеллектуального потенциала, важным очагом прогресса.


Tarikh Dostiyev

## THE ROLE OF ISLAM IN THE FORMATION OF URBAN CULTURE IN AZERBAIJAN


SUMMARY

With the adoption of Islam, a radical change occurred in the historical fate of Azerbaijan. With its affiliation to the Caliphate, dynamic, cultural and spiritual ties gave rise to the common Muslim features in material and spiritual culture. In 9th-10th centuries a type of city was established that existed without fundamental changes throughout the Middle Ages. Like the cities of the Muslim East, the cities of Azerbaijan basically had a three-term planning structure: the citadel, shahristan and rabad. The role of Muslim religious buildings in the creation of the architectural images of cities was very significant. Cities became a place where industrial, cultural and intellectual potential, and important centers for progress were concentrated.

# MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalda digər nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və mükəmməl redaktə olunmuş elmi məqalələr dərc edilir.

2. Məqalənin mətni jurnalın redaksiyasına A4 formatda, “14” ölçülü hərflərlə, yuxarıdan və aşağıdan 2 sm, soldan 3 sm, sağdan 1 sm məsafə ilə, 1,5 intervalla, Azərbaycan və rus dilində Times New Roman şriftində 1 nüsxədə çap edilərək elektron variantda jurnalın məsul katibinə təqdim edilir.

3. Məqalədə müəllifin işlədiyi müəssisə və həmin müəssisənin ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.

4. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq müəllifin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, s. aydın şəkildə verilməlidir.

5. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və [1] və ya [1, s.119] kimi işarələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad edilərsə, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

6. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Eyni məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının “Dissertasiyaların tərtibi qaydaları” barədə qüvvədə olan təlimatının “İstifadə edilmiş ədəbiyyat” bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.

7. Məqalənin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.

8. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasə verilməlidir. Məqalələrin həcminin 8-10 səhifə, xülasələrin isə 5-8 sətir olması tövsiyə edilir.

9. Məqalənin müxtəlif dillərdəki xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir. Müəllifin və ya müəlliflərin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. xülasədə yığcam şəkildə öz əksini tapmalıdır. Xülasələr elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır. Hər bir xülasədə məqalənin adı, müəllif və ya müəlliflərin tam adı göstərilməlidir.

10. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə (məqalənin və xülasələrin yazıldığı dillərdə) verilməlidir.

11. Məqalənin keyfiyyətinə, göstərilən faktların doğruluğuna və digər məlumatlara görə müəllif cavabdehlik daşıyır.

12. Dini mövzuda yazılmış elmi-kütləvi məqalələrin nəşrə hazırlanmasına aid beynəlxalq təcrübəyə əsaslanaraq müqəddəs və görkəmli din xadimlərinin adı çəkilərkən xüsusi xitab formasından istifadə olunması məqsədəuyğun hesab edilir.

# К СВЕДЕНИЮ АВТОРОВ

1. В журнале издаются безукоризненно отредактированные, краткие научные статьи, которые являются результатом новейших исследований, не предоставленных другим изданиям.

2. Текст статьи предоставляется ответственному секретарю журнала в электронном варианте, напечатанном в 1 экземпляре, шрифтом Times New Roman на азербайджанском и русском языках, в формате А4, с “14” размером букв, в интервале 1,5, на расстоянии от полей страницы сверху и снизу 2 см, слева 3 см, справа 1 см.

3. В статье должно быть указано учреждение, где работает автор, адрес данного учреждения и электронная почта автора.

4. В заключение статьи в ясной форме необходимо показать соответствующий характеру статьи научный результат, к которому пришёл автор, научное новаторство работы, практическую значимость и прочее.

5. Научная ссылка в связи с темой обязательна. Список литературы, данный в конце статьи должен быть пронумерован по порядку встречаемых в статье ссылаемых литератур и обозначен как {1} или {1, стр.119}. Если в статье будет ссылка на одинаковую литературу, тогда данная литература должна быть помечена прежним номером.

6. Информация о каждой ссылке в списке литератур должна быть полной и точной. Библиографическое описание ссылаемого источника зависит от её типа (монография, учебник, научная статья и т.д.). При ссылке на одинаковые статьи, симпозиумы, конференции и тезисы прочих влиятельных научных мероприятий должно быть указано название доклада или же тезиса. При библиографическом описании ссылаемого источника необходимо основываться на требования имеющей силу инструкции о “Порядке оформления диссертаций” Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики пункта 10.2-10.4.6 части “Использованная литература”.

7. В списке литературы, данной в конце статьи нужно отдать предпочтение научным статьям, монографиям и прочим надёжным источникам последних 5-10 лет.

8. Должно быть дано резюме на языке статьи и ещё 2 языках дополнительно. Рекомендуется, чтобы объём статьи был в пределах 8-10 страниц, а резюме 5-8 строк.

9. Резюме статьи на разных языках должно быть идентичным и соответствовать содержанию статьи. Научный результат, к которому пришёл автор или авторы, новаторство научной работы, практическая значимость и прочее должны быть в краткой форме отображены в резюме. Резюме должно быть серьёзно отредактировано с научной и грамматической точки зрения. В каждом резюме нужно в полном виде указать название статьи, имя автора или же авторов.

10. В каждой статье следует указать индексы UOT или коды типа PACS и ключевые слова. Ключевые слова должны быть даны на трёх языках (на языках статьи и резюме).

11. Автор несёт ответственность за качество статьи, достоверность указанных фактов и прочих сведений.

12. При упоминании имён святых и видных религиозных деятелей считается целесообразным использовать особую форму обращения, основываясь на международную практику относительно подготовки к печати научно-популярных статей, написанных на религиозную тему.